MÜNDƏRİCAT

Baş redaktordan 2

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Kitabxana sektorunun müdiri Lətifə Məmmədova ilə müsahibə
Kitabxana hər bir millətin yaddaşıdır, milli sərvətidir 3

Abuzər Xələfov
İlk fundamental elektron kitabxana 7

Əmin Əfəndiyev
Dünyanı gəzən elektron antologiya 11

Yeganə Məmmədova
ABŞ kitabxanalarında fasiləsiz təhsil 16

Fizurə Qasımova, Zakirə Əliyeva
Kitaba sevgi nədən başlayır? 18

Bakıda 31 Mart Azərbaycanlıların soyqırımı gününə həsr olunmuş "Tarix oldugu kimi" mövzusunda ikigünlük Beynəlxalq konfrans 22

Gülarə Xələfova
Kitabxanalarda konservasiya problemləri 24

Təranə Mirzəyeva
Azərbaycançılıq ideologiyasına dair biblioqrafik ehtiyat 28

Cəmalə Talıbova
AMEA Mərkəzi Elmi Kitabxanasının elmi-tədqiqat fəaliyyəti 30

Bəybəla Ələsgərov
Yeni biblioqrafik vəsait 32

İsmət Səfərov
Elmə həsr olunmuş ömür salnaməsi 33

Yarım əsr elmin və elin xidmətində 34

Şamil Həşimov
Kitabsevərlər tənhalıq bilməz 35

Samirə İslamzadə
Təsadüf və ya həqiqət 39

Ülviyyə Qasımova
Təqvimin yaranma tarixindən 41

Vəfa Ramazanova
Qeyri-adi yuxular və yuxu yozulması 42

Oqtay Oruclu
Qədim və həmişə müasir nərd 44

KİTABXANA.AZ
Müstəqil elmi, metodiki və praktiki jurnal.

TƏSİSÇİ:

"Gələcəyin Kitabxanası" İctimai Birliyi

BAŞ REDAKTOR:
Şəfəq İSLAMOVA

REDAKTOR:
Əmin ƏFƏNDİYEV

MƏSUL KATİB:
Yeganə MƏMMƏDOVA

KORREKTOR:
Şamil HƏŞİMOV

ART-DİREKTOR:
Oqtay ORUCLU

TELEFONLAR:
(99412) 421-05-06
(99412) 510 35 17

E-mail:
shafaq_ace@mail.ru
shafaq.ace@gmail.com

Qiyməti müqavilə ilə.

ÜNVAN:
8-ci km qəsəbəsi,
K.Balakişiyev 43/15

Lisenziya: 16.01.08

Məqalələr disketdə və çap olunmuş variantda təqdim edilməlidir.

Tirajı: 500



"Gələcəyin kitabxanası" İctimai Birliyi 2008-ci ildən etibarən "Kitabxana.az" adlı müstəqil elmi, metodiki və praktiki jurnalın ilk sayını oxuculara təqdim edir. Jurnalın əsas missiyası Azərbaycan Respublikasında milli və bəşəri elmi-mədəni dəyərlərə, demokratik prinsiplərə əsaslanan və müasir texnologiyalar bazasında kitabxana-informasiya şəbəkəsinin formalaşması, kitabxanaların informasiyalaşdırılmasına yardımçı olmaqdır. Başqa sözlə, jurnalımız Azərbaycan kitabxana-informasiya mühitinin təmas mərkəzi kimi geniş diapazonda öz missiyasını ifadə etmək əzmindədir.

Azərbaycan milli mənəvi və mədəni sərvətimiz olan kitabxanaların geniş şəbəkəsinə malik ölkədir və bu müəssisələrdə çalışan, bu sahəyə maraq göstərən, bu sahədə elmi tədqiqat işləri aparan, eyni zamanda onların xidmətindən istifadə edən çoxsaylı oxucu auditoriyasının belə bir jurnala ehtiyacı vardır. Müstəqil dövlət quruculuğumuzun bütün sahələrində olduğu kimi kitabxana-informasiya sahəsində də yeni bir mərhələ açılmışdır. Bununla belə kitabxanalarımızın informasiyalaşdırılması sahəsində əldə edilmiş nailiyyətlərlə yanaşı problemlər də mövcuddur. Jurnalımız bu sahədə həllini gözləyən problemlərin müzakirəsi, mübahisəli məsələlərin birgə həlli, təcrübə mübadiləsi, müasir kitabxana-informasiya biliklərinin təbliğində innovasiya məktəbi rolunu oynayacaqdır. Çox zaman mübahisələrdə əsil həqiqət üzə çıxır və problem öz həllini tapır. Bu məqsədlə jurnalda "Nəzər nöqtəsi" rubrikası sərbəst fikirlərin, mülahizələrin, müxtəlif mövqelərin tribunasına çevriləcəkdir.

"Azərbaycan kitabxanaları", "Görkəmli kitabxanaçılar", "Dünya kitabxanaları", "Kitabxana menecerliyi və marketinq", "Virtual kitabxanalar", "Maraqlı məlumat bazaları", "Fasiləsiz kitabxana təhsili", "Uğurlu layihələr", "Kitabsevərlər", "Yeni nəşrlər" və s. daim yeniləşən rubrikalar yəqin ki, mütəxəsislərimizin informasiya mühitindəki boşluğu dolduracaqdır.

Ümumiyyətlə, jurnal oxucularına "Dünya-Azərbaycan", "Dövlət - kitabxana", "Cəmiyyət-Sosial durum- kitabxana", "Elm və təcrübə", "Müəllif-kitabxana-oxucu", "Virtual mühit-kitabxana" və s. kontekstdə müxtəlif aspektli mövzuları təqdim etmək niyyətindədir və dərc olunacaq hər bir material kitabxana-informasiya fəaliyyətinin ən vacib istiqamətlərinin təbliğinə köməklik edəcəkdir. Jurnalın gələcəkdə kitabxana nəşrləri ailəsinin fəal bir üzvünə çevriləcəyinə əminik və bu əminliyə sizin köməyiniz arzuediləndir.

"Kitabxana.az" uzun və çətin bir yolun astanasındadır. Biz ümid edirik ki, bu yolda kitabxanaçıların həmrəyli bizə yardımçı olacaqdır.

Yalnız bu yolla biz kitabxanaçılar Vətən qarşısında olan borcumuzu öz peşəkar fəaliyyətimiz və xeyirxah əməllərimizlə yerinə yetirə bilərik.

Şəfəq İSLAMOVA,
"Gələcəyin Kitabxanası" İctimai Birliyinin sədri,
tarix elmləri namizədi

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin
Kitabxana sektorunun müdiri **Lətifə MƏMMƏDOVA**

Kitabxana hər bir millətin yaddaşıdır, milli sərvətidir



-Lətifə xanım, məlum olduğu kimi, yaxın günlərdə kitabxanaların inkişafına dair Dövlət Proqramı ölkə Prezidentinin təsdiqinə veriləcəkdir. Xahiş edirəm, deyin, Dövlət Proqramının qəbul olunması hansı zərurətdən irəli gəlmişdir ?

- Onu qeyd etmək istərdim ki, kitabxanaların modernləşdirilməsi və onların müasir dövrdə inkişafı məsələsi Azərbaycanda bir qədər gecikibdir. Bunu artıq etiraf etmək lazımdır. Artıq dünyada qlobal informasiya cəmiyyəti, biliklər cəmiyyəti yaradılır. Kitabxanalar bu proseslərin ön sıralarında gedir. Azərbaycan kitabxanaları bu proseslərdən bir qədər təcrid olunmuş halda fəaliyyət göstərir.

Biz Rusiyanın təcrübəsinə nəzər yetirsək, görərik ki, orada 1993-cü ildən başlayaraq hər 2 ildən bir Dövlət Proqramları qəbul edilir. Dövlət Proqramı kitabxana sahəsinin ayrı-ayrı istiqamətlərinin optimallaşdırılmasına yönəlmişdir. Qeyd etdiyim kimi, biz bir qədər vaxt itirmişik. Ona görə də indi kitabxanaçılığın ayrı-ayrı sahələri üzrə modernləşdirmə aparmaq məqsədəuyğun deyildir. Bütövlükdə kitabxanaların səviyyəsinin hərtərəfli yüksəldilməsi üçün cənab Prezidentin 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətini yaxşılaşdırmaq haqqında" Sərəncamına əsaslanaraq fəaliyyətə başlamağa üstünlük veririk.



- Dövlət Proqramında hansı məsələlərə üstünlük verilir və bunların həlli istiqamətləri necə müəyyənləşdirilir?

- Dövlət Proqramında biz kitabxana işinin bütün prioritet istiqamətlərini müəyyənləşdirmişik. Dövlət Proqramında 8 prioritet istiqamət müəyyən edilmişdir. Məsələn, birinci prioritet istiqamət - fondların inkişafı və kitabxanaların komplektləşdirilməsidir. Yəni fond yoxdursa, deməli kitabxana da yoxdur. Kitabxana yeni kitab, jurnal, qəzet almırsa kitabxananın fondu yeniləşmir və oraya oxucu gəlmir. Ona görə də, ***birinci*** prioritet istiqamət fondların optimallaşdırılması, müasir informasiya daşıyıcıları - CD-lər, DVD-lər, müasir kitablar, lüğətlər, ensiklopediyalar, dərsliklər, dərs vəsaitləri və s. ilə komplektləşdirilməsidir.

İkinci prioritet istiqamət kitabxanaların informasiyalaşdırılmasıdır. Biz bu istiqaməti qəsdən kitabxanaların informasiyalaşdırılması adlandırmışıq. Yəni, ümumiyyətlə, kitabxanalarda olan informasiyanın optimallaşdırılması, kompüterləş-dirilmə, kitabların elektron kataloqunun yaradılması və s. Həmçinin, kitabxanalarda müxtəlif informasiya mərkəzlərinin: ekoloji informasiya, hüquqi informasiya, işgüzar informasiya, informasiya ehtiyatları, daha sonra multimedia mərkəzinin yaradılması nəzərdə tutulur.

Üçüncü istiqamət kitabxana fondlarının konservasiyası, bərpası və onların qorunub gələcək nəsillərə çatdırılmasıdır. Bu çox vacib istiqamətdir. Bilirik ki, bu barədə Avropa Şurası, YUNESKO, BMT-nin bir sıra vacib sənədləri vardır ki, orada sənədlərin müasir informasiya daşıyıcılarına köçürülməsindən söhbət gedir. Lakin bu məsələyə çox ehtiyatla yanaşmaq lazımdır. Yəni, orijinala, əsərin özünə zərər vurulmasın. Ona görə ki, illər keçəndən sonra CD, DVD-yə yazılan əsərin həqiqətən orijinaldan çıxarılmış olduğu surəti şübhə yaratmasın. Və yaxud orada hər hansı bir təhriflərə yol verilib-verilməməsini sübut etmək üçün mütləq əsərin orijinalının saxlanması, onun konservasiyası çox vacib məsələlərdən biridir. Bu məqsədlə kitabxanaların fondlarında olan nadir kitabların surətləri çıxarılacaqdır. Kitabxanalardakı kitablardan sığorta fondu da yaradılac-

aqdır ki, hər hansı bir hadisə baş versə, onlar qorunub saxlanılsın və gələcək nəsillərə çatdırılsın.

Daha bir prioritet istiqamət, kitabxana işi sahəsində elmi əsərlərin yazılması, hazırlanması və mövcud əsərlərin, monoqrafiyaların xarici dillərdən Azərbaycan dilinə tərcümə edilməsidir. Bu sahədə çoxlu qıtlıq hiss olunur.

Düzdür, BDU-nun Kitabxanaşünaslıq- informasiya fakültəsinin professor və müəllim heyəti bu istiqamətdə, şübhəsiz ki, müəyyən işlər görürlər. Amma bu yenə də bütün kitabxana sahəsini əhatə etmir.

Kitabxana işi bu gün digər sahələrə nisbətən çox dəyişibdir. Ona görə də bütün bu yeniliklərdən kitabxana ictimaiyyəti və peşəkarlar xəbərdar olmalıdırlar. İngilis və rus dillərində dərc olunan kitablar tərcümə olunmalıdır.

- Lətifə xanım, Proqramda kitabxanaçıların təcrübə mübadiləsi, onların beynəlxalq əlaqələri məsələsi necə əks olunur?

- Bəli, bunlara geniş yer verilmişdir. Beynəlxalq əlaqələrimizin genişləndirilməsi əsas istiqamətlərdən olacaqdır. Bu mənada Azərbaycan peşəkarlarının beynəlxalq konfranslarda iştirakına ciddi diqqət yetiriləcəkdir.

Onu qeyd edim ki, dünyada hər il kitabxana sahəsində ən azı 10-12 beynəlxalq konfrans keçirilir. Azərbaycan kitabxanaçıları o konfranslarda təmsil olunmalı, ölkəmizi təmsil etməlidirlər. Burada gedən işlər dünya ictimaiyyətinə məlum olmalıdır. Eyni zamanda, kitabxana işi sahəsində beynəlxalq tədbirlər keçirilməlidir. Buraya xarici ekspertlər, mütəxəssislər dəvət olunmalıdır. Artıq bu istiqamətdə də müəyyən işlər görmüşük. Məsələn, keçən il biz iki beynəlxalq tədbir keçirmişik. Azərbaycanda kütləvi kitabxanaların nəzdində ictimai hüquqi informasiya mərkəzləri yaratmışıq ki, Rusiyada təşkil olunmuş hüquqi informasiya bazasına o kitabxanalar vasitəsilə daxil olmaq mümkündür. Bu beynəlxalq tədbiri həyata keçirmək üçün "İnformasiya hamı üçün" YUNESKO Proqramının Rusiya Komitəsi və eləcə də Rusiya Federasiyasının Mədəniyyət və Kinematoqrafiya üzrə Dövlət Agentliyinin bizə böyük köməkliyi oldu. Biz mütəxəssislər dəvət edərək keçən ilin fevral və may aylarında Azərbaycanda beynəlxalq tədbirlər keçirdik. "Kitabxanalar və ekologiya" mövzusunda kitabxanaçıların ekologiya problemlərinin həllində rolu, kitabxanalarda ekologiyaya həsr olunmuş məlumatların toplanması, sistemləşdirilməsi və həmin informasiyanın istifadəçilərə təqdim edilməsi və s. müzakirə edildi.

- Bəs kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi məsələsi necə həll olunacaqdır?

- Kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi əsas məsələlərdəndir. Ona görə ki, uzun illərdir, bizim kitabxanalarımız çox pis vəziyyətdədir. Onların mebelləri, digər köhnə avadanlıqları, hətta binaları da müasir tələblərə cavab verməkdən çox uzaqdır. Ona görə də kitabxanaların maddi-texniki bazasının inkişafı, möhkəmlənməsi bizim prioritet istiqamətlərimizdən biridir. Burada nə nəzərdə tutulur? Yeni kitabxana binalarının tikilməsi, mövcud kitabxana binalarının yenidən qurulması, onların əsaslı təmiri, müasir avadanlıqlarla təchiz edilməsi və s. Mən həmişə deyirəm ki, ancaq o kitabxanaya oxucu və istifadəçi gələ bilər ki, həmin kitabxanada onun evindən yaxşı şərait olsun. Yəni burada istilik, işıq, kompüter, İnternet problemi olmamalıdır. Bu gün istifadəçiyə lazım olan yaxşı maraqlı kitab və ya dövri mətbuat nümunələri hər bir sosial qrupun - uşaqların, yeniyetmələrin, gənclərin, orta nəslin tələbatına cavab verən məkan olmalıdır ki, doğrudan da onun ətrafında müxtəlif sosial qruplar birləşsinlər. Bu gün mütaliə problemi təksə Azərbaycanı deyil, bütün dünyanı bürüyüb. Bu barədə mən bir çox mütəxəssislərlə fikir mübadiləsi aparıram. Mütaliə problemi nəinki ABŞ-ı, Çini, Böyük Britaniyanı düşündürür, hətta ən çox mütaliə edən Rusiya dövlətində bu problem mövcuddur. İndi təsəvvür edin ki, hazırda Azərbaycan nə vəziyyətdədir. Şübhəsiz ki, burada da mütaliə problemi var. Odur ki, insanları kitablara,mütaliəyə qaytarmaq da çox vacib məsələdir. Keçmiş postsovet məkanında olan Estoniyada vəziyyət tam başqa cürdür. SSRİ dağılanda Estoniya öz müstəqilliyini elan edən ilk dövlətlərdən biri oldu. Onlar ilk növbədə öz dövlətlərinin imkanlarını təhlil edirlər. Görürlər ki, Estoniya Azərbaycan və digər ölkələr kimi zəngin təbii sərvətlərə malik varlı dövlət deyil. Onların nə geostrateji mövqeyi, nə təbii ehtiyatları Azərbaycana çata bilməz. Qərara gəlirlər ki, mütləq intellektual kapital yaratmalıdırlar.

Onlar bu istiqamətdə işlər apararaq hər il 50 yeni kitabxana tikdilər.Ancaq intellektual potensialın hesabına bu gün Estoniya Avropa Birliyində ən öndə gedən dövlətlərdən birinə çevrilib. İntellektual potensial da ki, əlbəttə kitabxanalardan başlandı. Nəyə görə? Ona görə ki, kitabxana bu gün yeganə sosial məkandır ki, bu sosial-mədəni məkanda əhalinin müxtəlif təbəqələrinə pulsuz xidmət göstərilir. İnformasiya bu məkanda pulsuz verilir. Əgər sizə hər hansı əlavə xidmətlər lazımdırsa, onda siz ona pul ödəyə bilərsiniz. Əgər siz bu kitablarla evdə işləmək istəyirsinizsə və bu kitab bir nüsxədirsə, o gecə abonementi yolu ilə bir gecəlik verilə bilər. Ancaq bu zaman siz ona pul ödəməlisiniz. Kitabın özü yox, onun müəyyən səhifəsi sizə lazımdırsa, kseroksla surətini çıxarıb verilir. Kseroks surətinə görə də pul ödəməlisiniz.

Dünyada pullu xidmətlər haqqında çoxlu fikir-

lər vardır. Mütəxəssislər birmənalı olaraq belə cavab verirlər ki, kitabxana xidmətləri pulsuz olmalıdır. Ona görə ki, kitabxanalardan istifadə edən insanlar sonrakı fəaliyyətləri ilə cəmiyyətin, elm və mədəniyyətin inkişafına təkan verirlər.

Bundan əlavə, aldıqları məvacibdən müəyyən miqdarda vergi verirlər. Bu vergi isə müxtəlif sosial sahənin inkişafına sərf edilir ki, kitabxanalar belə sahələrdən biridir. Yəni, biz məvacibimizin müəyyən hissəsini kitabxanaların inkişafına veririk. Xaricdə bir çox bələdiyyə kitabxanaları mövcuddur. Bizdə bir dənə də olsa bələdiyyə kitabxanası yoxdur. Ölkəmizdə kitabxanalar dövlət tərəfindən maliyyələşdirilir, qorunub saxlanılır.

Bələdiyyə kitabxanası isə belədir. Əgər kitabxana bu ərazinin tələblərinə cavab vermirsə, onda deməli bu kitabxana lazım deyildir və o bağlanır. Rusiyada belə kitabxanaların çoxu bağlanıb. Xaricdə kitabxanaların qarşısında çox tələblər qoyulur: kitabxana oxucunun tələbinə cavab verməli, minimum vaxtda məsafədən, zamandan, məkandan asılı olmayaraq maksimum informasiya ilə oxucuların tələbatını ödəməlidir. Kitabxanaların avtomatlaşdırılması informasiyanı gecə saat 3-də də Elektron kataloq və Elektron kitabxanaya daxil olub lazımi məlumatı əldə etməyə imkan verəcəkdir.

Mən Polşada olmuşam. Kiçik bir şəhərdir, Olşteyn. Şəhərdə narkomaniya, müxtəlif xəstəliklər inkişaf edib. Orada dağılmış koma vəziyyətində bir kitabxana var idi. Yerli bələdiyyə, yerli icma və kitabxananın kollektivi belə bir qənaətə gəlirlər ki, Olşteyn şəhərində əhalini maarifləndirməkdən ötrü yaxşı bir kitabxana tikməlidirlər. O kitabxana üçün çox maraqlı ad fikirləşirlər - "11-ci Planet". Günəş sistemində 10 planet var, bu kitabxana isə 11-ci planetidir. İnşa edilmiş bu kitabxana bütöv şüşədən ibarətdir. Kosmik gəmini xatırladır. Hər şey yumrudur. Stullar, stollar, plafonlar. Kitabxanada gördük ki, ora çoxlu insanlar gəlir, burada 5 dəqiqə də olsa boş vaxt yoxdur.

- Azərbaycanda kitabxanaların günün tələblərinə cavab vermələri istiqamətində hansı işlər görülür?

- Son 4 il ərzində respublika Prezidenti İlham Əliyevin kitabxana işi sahəsində 4 sərəncamı olub. Mən belə hesab edirəm ki, bu çox böyük nailiyyətdir. Belə bir praktika dünyada yoxdur. 20 aprel 2007-ci ildə "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında", ondan əvvəl 2 sərəncam - 12 yanvar 2004-cü il "Latın qrafikası ilə Azərbaycan dilində olan kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və 27 dekabr 2004-cü ildə "2005-2006-cı illərdə "Latın qrafikası ilə Azərbaycan dilində çapı nəzərdə tutulan əsərlərin siyahısının tərtib edilməsi haqqında" sərəncamı verilmişdir. Daha sonra cənab Prezidentin "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı" təsdiq edilib. Həmin tədbirlər Proqramında 5 rayon üzrə 15 kitabxananın təmiri nəzərdə tutulub: 4 kitabxana Sabunçuda, biri Binəqədidə, biri Suraxanıda, 4-ü Qaradağda, 5-i Əzizbəyov rayonunda təmir olunacaqdır.

29 dekabr 2006-cı ildə "Heydər Əliyev Mərkəzinin yaradılması haqqında" cənab Prezidentin daha bir Sərəncamı imzalanıb. Burada belə sözlər vardır: "Müasir tələblərə uyğun və bir məkanda konfrans, konsert, sərgi, ziyafət, kitabxana və digər məqsədlər üçün yararlı olan salonları özündə birləşdirən kompleks tikililərə böyük ehtiyac duyulur". "Heydər Əliyev Mərkəzi"ndə də gözəl, müasir bir kitabxana yaradılacaq. Nəhayət, 2007-ci il 24 avqust tarixli "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" Sərəncamına əsasən Nazirlər Kabinetindən bizə belə bir sorğu gəldi ki, dünya ədəbiyyatına daxil olan hansı müəlliflərin kitabları Azərbaycan dilində nəşr oluna bilər. Biz, 150 cildlik Dünya ədəbiyyatı kitabxanası yaratmağı qərara aldıq. Bura klassik dünya ədəbiyyatı ilə yanaşı, müasir ədəbiyyatları da daxil elədik.

Beləliklə, biz Dövlət Proqramından çox şey gözləyirik, bizim Dövlət Proqramına çox böyük ümüdlərimiz var. Biz kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi bölməsini hazırlayarkən onu rayon və şəhər icra hakimiyyətləri ilə razılaşdırmışıq və onların təklifləri nəzərə alınıb.

- Hal-hazırda nəşriyyatlarla kitabxanalar arasında əlaqələr nə vəziyyətdədir?

- Nəşriyyat, kitabxana və oxucu. Bunlar bir-biri ilə sıx bağlı olub, biri digərinin fəaliyyətini tənzimləyir, istiqamətləndirir. Dünya praktikasında bu əlaqələr özünü çox doğruldur. Belə ki, nəşriyyatlar bilir ki, hansı kateqoriyalı oxucu üçün necə kitabları nəşr etməlidirlər. Kitabxanaçılar isə bilir ki, nəşriyyatlar hansı kitabları nəşr edir və o öz oxucularına lazım olan ədəbiyyatı alır. Əfsuslar olsun ki, hal-hazırda Azərbaycan nəşriyyatları ilə kitabxanalar arasında əlaqə çox zəifdir. Burada nəşriyyat, kitabxana və oxucu kimi ayrı-ayrılıqda 3 qütb yaranıb. Bu çox xoşagəlməz haldır. Bu baxımdan Rusiyada vəziyyət xeyli fərqlidir. Orada hər il orta hesabla 150 min adda kitab nəşr edilir. Bu ədəbiyyatlardan mütləq məcburi nüsxələr Rusiya Kitab Palatasına verilir. Azərbaycanda isə təxminən 200 adda kitab çıxır. Onlar Azərbaycan oxucularının səviyyəsinə, tələblərinə cavab vermir. Nəşriyyatların əsas məqsədi gəlir əldə etməkdir. Odur ki, çox vaxt məzmunca çox aşağı səviyyəli kitablar çap edilir. Lakin, hər bir nəşriyyat gələcək nəslin formalaşmasına müsbət təsir göstərən əsərlərə daha çox yer verma-

lidir. Kitabxanalar isə öz fondlarının profillərinə uyğun surətdə komplektləşdirməlidirlər. Kitabxana işi haqqında Qanunun 15-ci maddəsində yazılıb ki, Azərbaycan Respublikasının Milli Kitabxanasına, AMEA-nın Mərkəzi Elmi Kiatbxanasına, Bakı Dövlət Universitetinin kitabxanasına məcburi olaraq 4 nüsxə verilməlidir. Lakin nəşr olunan kitabların çoxu kitabxanalara verilmir. Müəlliflər də məcburi nüsxələrin verilməsinin vacibliyinə laqeyd yanaşır, bu nəşrlərin gələcək nəsillərə çatdırılması qayğısına qalmırlar. Onlar dərk etməlidirlər ki, 30-40 ildən sonra bu kitabların izi itə bilər. Hər şeydən əvvəl onların tarixdə yaşamaları üçün də Qanunda göstərilən maddəyə riayət etmələri çox vacibdir. Bir də bir şeyi bilməlidirlər ki, kitabxana hər bir millətin yaddaşıdır, milli sərvətidir.

Bizim Milli Kitabxanamızda çox qədim nəşrlər qorunub saxlanılır. Orada, hətta, 1599-cu ildə nəşr olunmuş kitablar vardır. 400 ildən artıqdır ki, belə kitablar qorunur, mühafizə edilir. Hər il Milli Kitabxana tərəfindən "İllik Azərbaycan kitabiyyatı" buraxılır. Yəni hər il nə qədər ədəbiyyat nəşr edilir, bu vəsaitdə öz əksini tapır. Əgər respublikamızda kitab çıxır, lakin məcburi nüsxə verilmirsə, o zaman bundan həm kitabxanaların xəbəri olmur, həm də "İllik Azərbaycan Kitabiyyatı"nda əks edilmir. Bu, həllini gözləyən ən böyük problemdir.

-Siz bu vəzifəni icra etməyə başladığınız müddətdən nə kimi işlər görmüsünüz, xahiş edirəm, bunlar haqda məlumat verəsiniz.

- Gördüyüm işlər haqqında danışmaq mənim üçün çox çətindir. Ona görə ki, bu işləri mənim adıma bağlamaq düzgün olmazdı. Dövlətin apardığı siyasətin istiqaməti, cənab Prezidentin, cənab Nazirin dəstəyi olmadan heç bir müsbət dəyişikliyə, irəliləyişə nail olmaq mümkün deyildir. Təkcə son 4 ildə kitabxana sahəsinə aid 5 sərəncam verilib. Bu sərəncamlara, rəhbərliyin dəstəyinə arxalanaraq biz lazımi işləri həyata keçiririk. Bu baxımdan biz beynəlxalq layihələrdə iştirak edir, həm də respublika əhəmiyyətli layihələrlə fəaliyyət göstəririk. Biz böyük fərəh hissi ilə Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mədəniyyət sahəsində 12 illik fəaliyyətinə həsr edilmiş "Mədəniyyətimizin və mədəni incilərimizin hamisi" adlı kitab buraxmışıq. Bundan əlavə "İnformasiya hamı üçün" proqramının bir hissəsi kimi Azərbaycan və rus dillərində "Kitabxanalar biliklər cəmiyyətində" adlı irihəcmli daha bir kitab çap etdirmişik. Rusiya Mədəniyyət və Kütləvi Kommunikasiya Nazirliyi ilə birgə həyata keçirilmiş bu layihə analoqu olmayan bir layihədir. Azərbaycan biliklər cəmiyyətinin konsepsiyasını, kütləvi kitabxanaların inkişaf konsepsiyasını özündə əks edən "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" (I və II cild) kitabı da bizim son nəşrlərimizdəndir. Bu kitab yazılarkən Avropa təcrübəsindən istifadə edilmişdir.

Bu yaxınlarda Prezident Aparatı kitabxanasının 5 illik yubileyi təntənəli qeyd edilmişdir. Bu münasibətlə kitabxananın direktoru Mayıl Əhmədovun təşəbbüsü ilə beynəlxalq konfrans keçirilmişdir. Hər iki kitabın təqdimatı da həmin konfransda olmuşdur. Konfransı mədəniyyət və turizm naziri Əbülfəs Qarayev geniş çıxışla açmış, konfransın məqsəd və vəzifəsindən, qarşıda duran vəzifələrdən bəhs etmişdir.

Həyata keçirilən layihələrdən biri də regionlarda informasiya mərkəzlərinin yaradılması olmuşdur. Artıq bir çox kitabxanalarda elektron kataloqun formalaşması və tərtibi prosesi həyata keçirilir. Goranboy rayonunda ilk kitabxana-informasiya mərkəzi yaradılmışdır. Bundan başqa, Şamaxı rayonunun Mərkəzi Kitabxanasında, Gəncə şəhər Mərkəzi Kitabxanasında Elektron kataloqun yaradılmasına başlanılıb. Doğrudur, bütün bunlar hələ ləng həyata keçirilir. İstəyirik ki, daha çox müsbət dəyişikliklər olsun, inkişaf yüksək templə getsin. Kitabxanalar mədəniyyətimizin ən böyük sahəsidir. Buna baxmayaraq, ən az maliyyələşdirilən, yaddan çıxan və geridə qalan da elə kitabxanalardır. Birdən-birə ölkəmizdə fəaliyyət göstərən kitabxanaları ayağa qaldırmaq çox çətindir. Ona görə də biz təcrübə mübadiləsi təşkil edirik. Son 10 ildə ilk dəfə olaraq bizim 5 nəfər kitabxanaçı Almaniyanın Frankfurt səfərinə gediblər. 15 nəfər Rusiyada təcrübə mübadiləsi keçiblər. Əlbəttə, bunların hamısı çox yaxşıdır. Ekologiya üzrə 2 nəfər mütəxəssis 15 gün təcrübə mübadiləsi keçdi. Anapada keçirilən Beynəlxalq konfransda bizim mütəxəssislər də iştirak ediblər. Bütün bunlar Mədəniyyət və Turizm Nazirliyinin vəsaiti hesabına həyata keçirilib. Çünki kitabxanaların vəsaiti yoxdur. Mən bir sıra forumlarda kitabxanaları təmsil edirəm. Pskovda Beynəlxalq kitabxanaların fəlsəfə məktəbində, bir sıra xarici ölkələrdə keçirilən tədbirlərdə olmuşam. Çalışırıq ki, onların təcrübəsindən maksimum səviyyədə istifadə edək.

-Yeni nəşrə başlayacaq jurnala nə arzu edərdiniz?

- Əlbəttə, mən böyük uğurlar arzulayıram. Hesab edirəm ki, jurnalın ən böyük uğuru geniş oxucu auditoriyasını öz ətrafında birləşdirməsidir. Arzu edərdim ki, bu jurnal sevilsin, oxunsun, ona çox böyük tələbat olsun. Yəni, inzibati metodlarla yox, arzu olunaraq bu jurnala abunə olunsun. Bizdə çox yaxşı mütəxəssislər var. Istərdim onların da fikirləri, arzuları bu jurnalda əks olunsun. Tənqid və özünütənqid şəraitində bu jurnal inkişaf etsin.

Müsahibəni apardı:

İlk fundamental elektron kitabxana

Abuzər XƏLƏFOV
Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri,
Əməkdar elm xadimi, BMT Yanında İnformasiyalaşdırma
Akademiyasının akademiki, tarix elmləri doktoru, professor



Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin bütün dövlət strukturları qarşısında informasiya texnologiyalarından səmərəli istifadə etmək, təhsil və mədəniyyət müəssisələrinin yaxın gələcəkdə tamamilə kompüterləşdirilməsilə bağlı göstərişinə uyğun olaraq respublikamızın kitabxanalarında oxuculara xidmətin yeni forma və üsullarının axtarışı, müasir informasiya texnologiyalarının tətbiqi sahəsində böyük işlər görülür. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanasında aparılan işlər daha diqqətəlayiqdir. İctimaiyyət arasında Prezident kitabxanası kimi tanınan bu mədəniyyət ocağında ölkəmizdə ilk dəfə fundamental elektron kitabxana yaradılmış, avtomatlaşdırılmış kitabxana proqramı və oxuculara məsafədən xidmət texnologiyası tətbiq edilmişdir.

Müstəqillik illərində bütün sahələrdə olduğu kimi, Azərbaycan Respublikasının mədəni həyatında da bir çox mühüm hadisələr baş vermişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kitabxanası (Prezident Kitabxanası) və Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası (Parlament Kitabxanası) yaradıldı. Hər iki kitabxana Azərbaycanın dövlət müstəqilliyinin hədiyyəsidir. Müstəqil dövlətlərin atributları sırasında prezident kitabxanaları və parlament kitabxanaları mühüm yer tutur. Belə kitabxanalar öz statusu etibarilə dövlət kitabxanaları hesab olunur.

Kitabxana işinə olduqca böyuk qiymət verən, onu cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik və zəka mənbəyi adlandıran ümummilli lider Heydər Əliyev bu sahənin dövlət, ümumxalq qayğısı ilə əhatə edilməsini lazım bilirdi: "Kitabxanaya daimi hörmət xalqımızın mənəviyyatını nümayiş etdirən amillərdən biridir".

Ulu öndər dövlət aparatında çalışan işçilərə yüksək kitabxana-informasiya xidməti göstərmək, qanunları, fərmanları, sərəncamları, qərarları və digər dövlət sənədləri toplayaraq qoruyub saxlamaq və onlardan istifadə edilməsi üçün Prezident Kitabxanasının yaradılmasını zəruri saymışdı.

Prezident Kitabxanası öz fondunun zənginliyi və oxuculara xidmətin yeni forma və üsulları, müasir kitabxana-informasiya texnologiyası ilə təmin edilməsi baxımından hazırda respublikamızda çox mühüm mədəni, elmi və informasiya əhəmiyyəti kəsb edən bir mərkəzə çevrilmişdir. Prezident Kitabxanasına onun yaradılmasının təşəbbüskarı və müasir kitabxana-informasiya mərkəzi kimi formalaşmasına xüsusi diqqət göstərən, bütün həyatı boyu Azərbaycan mədəniyyətinin və incəsənətinin çiçəklənməsi üçün var qüvvəsini əsirgəməyən Heydər Əliyevin adının verilməsi ümummilli liderimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan növbəti addım olar və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanardı.

Kitabxana 2003-cü ildə Bakı şəhərinin iki zəngin kitabxanasının - Mərkəzi Şəhər Kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublkası Prezidenti İşlər İdarəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin Kitabxanası) bazasında təşkil edildi.

Prezident Kitabxanasını Mərkəzi Şəhər Kitabxanasının binasında təşkil etmək qərara alındı. Bu, çox düzgün seçim oldu. Çünki tez bir müddətdə fəaliyyətə başlamalı olan kitabxananı "quru yerdə" yaratmaq mümkün olmazdı. Həmçinin Mərkəzi Şəhər Kitabxanası şəhərimizin qocaman və zəngin kitabxanası olduğundan onun nadir kitab fondu qorunub saxlandı və oxucuların istifadəsinə verildi.

Kitabxanada zəngin bədii ədəbiyyat fondu ilə yanaşı, xarici ədəbiyyat və nadir kitablar fondu, xüsusilə Bakı kitabxanalarının heç birində olmayan incəsənət ədəbiyyatı fondu da var idi. Lakin şəhərin mərkəzində yerləşən bu tarixi bina baxımsızlıq üzündən qəza vəziyyətində idi.

Hazırda kitabxananın binası müasir Şərq memarlığı üslubunda və tikinti texnologiyasının son nailiyyətləri əsasında yüksək zövqlə təmir edilmiş, dünya standartlarına cavab verən kitabxana binası halına gətirilmişdir. Kitabxana ancaq Prezident Aparatının işçiləri üçün deyil, bütün oxucuların üzünə açıldı ki, bu da respublikamızda müstəqillik dövründə kitabxana işinin demokratik əsaslar üzərində qurulmasına bariz sübutdur.



Burada incəsənət ədəbiyyatı, böyük oxu, xüsusi, elektron resurslar, neft və elmi-kütləvi ədəbiyyat, nadir kitablar salonları və müxtəlif mədəni-kütləvi tədbirlər, mühazirələr, elmi seminarlar, dəyirmi masalar, görüşlər, mətbuat konfransları, sərgilər, disputlar, təqdimatlar keçirmək üçün 100 nəfərlik konfrans salonu yaradılmışdır.

İki kitabxananın kitab fondunun birləşdirilməsi nəticəsində kitabxananın olduqca zəngin və nadir fondu var. Kitabxana öz fondunu yeni kitablarla da ardıcıl olaraq komplektləşdirir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, kitabxanalara Azərbaycanda nəşr edilən bütün kitablardan öz profilinə uyğun pulsuz məcburi nüsxə almaq hüququnun verilməsi də kitabxananın yerli nəşrlərlə davamlı komplektləşdirilməsinə imkan verir. Kitabxana həmçinin öz fondunu komplektləşdirmək üçün xarici nəşrlərin əldə edilməsinə xüsusi diqqət yetirir, bu da xarici ədəbiyyat fondunun zənginləşməsi üçün əlverişli şərait yaradır. Komplektləşdirmə zamanı üstünlük siyasətə, hüquqa, tarixə, iqtisadiyyata, qanunvericiliyə, azərbaycanşünaslığa dair ədəbiyyata verilir. Nadir kitablar fondunda dünyanın müxtəlif xalqlarının dillərində olan xeyli kitab toplanmışdır.

Kitabxana oxucuların arzu və sorğularını nəzərə alaraq geniş dövri mətbuat fondu yaratmağa nail olmuşdur. Azərbaycanda nəşr edilən dövri mətbuatla yanaşı, xarici dövri mətbuatın da alınması fondun əhəmiyyətini artırmışdır. Hazırda bu fondda 200 addan artıq qəzet və jurnal komplekti toplanır.

Kitabxana qarşısında Azərbaycan Respublikası Prezidenti İcra Aparatının və digər mərkəzi icra orqanlarının, həmçinin iqtisadiyyatın, mədəniyyətin müxtəlif sahələrində çalışan görkəmli alimlər, mütəxəssislər, yaradıcı ziyalılar üçün kitabxana-biblioqrafiya və informasiya bazası yaratmaq, müasir kitabxana-informasiya texnologiyasını tətbiq etməklə kitabxana işini kompüterləşdirmək kimi çox mühüm bir vəzifə qoyulmuşdur. Kitabxana, həmçinin Azərbaycan dövlətçiliyinin, milli ideologiyanın, azərbaycançılığın təbliğat mərkəzi kimi ümummilli lider Heydər Əliyev irsinin toplanıb saxlanmasında və təbliğində mühüm rol oynayır. Bunun üçün müxtəlif şöbələr yaradılarkən kitabxananın qarşısında duran bütün vəzifələr nəzərə alınmış, hər bir şöbə öz profilinə uyğun kadrla komplektləşdirilmişdir. Kitabxananın rəhbərliyi bu işə xüsusi əhəmiyyət vermiş, kadr seçərkən tələsməmiş, kitabxana və informatika sahələri üzrə təcrübəli mütəxəssisləri seçib yerləşdirməyə müvəffəq olmuşdur. Həmçinin kitabxananın işinə politoloqlar və sosioloqlar cəlb edilmişdir ki, bütün bunlar qarşıda duran çox mürəkkəb problemlərin uğurlu həyata keçirilməsinə imkan yaradır.

Kitabxanaya Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin yetirməsi, təcrübəli kitabxana təşkilatçısı kimi tanınan Mayıl Əhmədov başçılıq edir. Gənc kollektiv qısa bir müddət içərisində kitabxananı müasir tələbata, dünya standartlarına uyğun formalaşdırmağa, oxuculara xidmət işini günün tələbləri səviyyəsində təşkil etməyə müvəffəq olmuşdur.

Bəşəriyyətin informasiya əsri kimi qəbul etdiyi XXI əsr kitabxanaların qarşısında ol-

duqca mühüm, keyfiyyətcə yeni vəzifələr qoymuşdur. Müasir kitabxanalar ənənəvi kitabxanaçılıq təcrübəsi ilə kifayətlənməməli, oxuculara xidmət işini informasiya cəmiyyətinin tələbləri səviyyəsinə yüksəltmək üçün dünya informasiya məkanına daxil olmağı, ümumbəşəri intellektual potensialdan operativ istifadə etməyi bacarmalıdır. Bu məqsədlə kitabxanalarda müasir informasiya texnologiyası tətbiq edilməli, informasiya mühiti üçün şərait yaradılmalıdır. Bu da hər şeydən əvvəl, kitabxana işinə müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqini tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ilin dekabrında Cenevrədə informasiya cəmiyyəti problemlərinə həsr edilmiş ümumdünya sammitindəki çıxışında ölkəmizdə informasiya texnologiyalarının inkişafını dövlətimizin prioritet vəzifələrindən biri elan etmişdir. Məhz buna görədir ki, dövlət kitabxanası kimi fəaliyyətə başlayan Prezident Kitabxanası öz işini müasir dünya standartlarına cavab verə biləcək səviyyədə qurmaq üçün avtomatlaşdırmanı ön plana çəkmiş, avtomatlaşdırılmış sistem tətbiq etmişdir. Kitabxana bu məqsədlə geniş araşdırmalar aparmış, dünya kitabxanalarında tətbiq edilmiş sistemləri öyrənmiş, respublikamızın şəraitinə, xüsusilə kitabxananın öz şəraitinə və profilinə uyğun olan sistem seçmişdir.

Kitabxana öz daxili imkanlarını, avtomatlaşdırılmış sistem tətbiqinin səmərəliliyini nəzərə alaraq 2004-cü ilin may ayında MDB məkanında geniş yayılmış İRBİS-64 sistemini tətbiq etmişdir. Rusiya Dövlət Ümumi Elmi-Texniki Kitabxanasında yaradılmış bu sistem hazırda Rusiyanın və bir sıra xarici ölkələrin 1000-dən çox kitabxanasında müvəffəqiyyətlə tətbiq edilməkdədir. Kitabxanalarda istifadə tətbiqi baxımından olduqca sadə olan bu sistem bütün beynəlxalq standartlara cavab verir. Sistem həmçinin beynəlxalq biblioqrafik standartlara və formatlara uyğunlaşdırılmışdır. Bu sistemin qəbul edilməsi kitabxananın kompleks kompüterləşdirilməsinə və kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasına şərait yaratmışdır.

Prezident Kitabxanası respublikamızda İRBİS sistemini ilk dəfə tətbiq edən kitabxana olduğundan, hazırda bu sahədə böyük təcrübə toplamışdır. Prezident Kitabxanasının mütəxəssisləri bu sistemi sonradan tətbiq edən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının, eləcə də Mədəniyyət Nazirliyi sisteminə daxil olan şəhər və rayon mərkəzi kitabxanalarının əməkdaşlarına proqram tətbiqi işində hərtərəfli yardım edirlər. Hazırda mədəniyyət və təhsil nazirlikləri də öz kitabxana şəbəkələrində İRBİS sisteminin müxtəlif variantlarının tətbiqi ölkəmizdə kitabxana işinin əlaqələndirilməsi üçün geniş perspektivlər açа bilər.

Hazırda bu sistem vasitəsi ilə kitabxananın aldığı yeni ədədiyyat elektron kataloqa daxil edilir, dövri mətbuat materiallarının biblioqrafik təsvirinin elektron kartotekası yaradılır, bütün kitabxana prosesləri avtomatlaşdırılır. Elektron kataloqdan, biblioqrafik nəşrlərin elektron kartotekasından və məlumat bülletenlərindən kitabxananın, "Web" səhifəsi vasitəsi ilə istifadə etmək olar. Xüsusi oxucu qruplarına elektron poçt vasitəsilə də kitabxana-informasiya xidməti göstərilir. Prezident Kitabxanası bu proqram vasitəsilə respublikada ilk dəfə oxucuya məsafədən xidmət etməyə başlamışdır.

Kitabxanada "Elektron resursların oxu salonu" yapadılmışdır. 15 oxucu yeri və İnternetə daimi çıxışı olan bu salonun xidmətindən oxucular hərtərəfli faydalana bilərlər. Qısa müddətdə əməkdaşların hazırladığı 11 adda tammətnli mövzu üzrə elektron-məlumat bülletenləri, müxtəlif mövzularda elektron kitablar bu salonda oxucuların istifadəsinə verilmişdir.

İstifadəçilərin böyük marağına səbəb olan və müxtəlif yönlü axtarışa xidmət edən tammətnli elektron nəşrlər (resurslar) barədə oxuculara daha ətraflı məlumat vermək istəyirəm. İlk dəfə olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən prezidentliyi dövründə bütün nitqlərinin, məruzələrinin, çıxışlarının, müsahibələrinin mətnlərinin elektron variantı hazırlanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2003-cü ilin oktyabr ayından etibarən bütün nitqlərinin, məruzələrinin, çıxışlarının və müsahibələrinin də tammətnli elektron nəşri hazırlanmışdır. "Sabitlik və dinamik inkişaf ili" adlanan tammətnli elektron nəşrdə Prezident İlham Əliyevin birillik fəaliyyətinin xronikası (oktyabr 2003 - oktyabr 2004) öz əksini tapmışdır. "Əsrin müqaviləsi - 10 il", "İlham

Əliyev və Azərbaycanın neft diplomatiyası" adlanan tammətnli nəşrlərdə ümummilli lider Heydər Əliyev təpəfindən müəyyənləşdirilən Azərbaycanın neft strategiyasına, indiyədək imzalanmış neft müqavilələrinə, Azərbaycan neftinin dünya bazarlarına nəqli ilə keçirilən rəsmi görüşlərə, təntənəli mərasimlərə, Dövlət Neft Fonduna dair materiallar toplanmışdır.

"Xoşməramlı səfir" adlanan tammətnli nəşrdə isə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinə dair materiallar verilmişdir. Xalqımızın başına gətirilən faciələrin xronikası "Əsrin faciəsi - Xocalı soyqırımı" və "Dağlıq Qarabağ münaqişəsi" kimi nəşrlərdə tam dolğunluğu ilə əhatə olunmuşdur. "Azərbaycan diasporu" adlanan digər tammətnli nəşrdə diasporumuzun yaranma tarixçəsinə, Dünya azərbaycanlılarının forumlarına, həmrəylik gününə, diaspor təşkilatlarına dair rəsmi materiallar və məqalələr öz əksini tapmışdır. Yerli özünüidarə orqanı olan bələdiyyələrə dair materiallar "Bələdiyyə hakimiyyəti" adlanan tammətnli elektron nəşrdə cəmləşmişdir.

Kitabxanada həmçinin elektron biblioqrafik-informasiya göstəriciləri tərtib edilir. Belə göstəricilərdən "Azərbaycan Respublikasının Prezidenti: gündəlik fəaliyyətin xronikası" (rüblük), "Azərbaycanı dünyaya tanıdan lider", "İlham Əliyev. Azərbaycanın neft diplomatiyası", "Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları" (rüblük), "Azərbaycan Respublikasının qanunları" (rüblük), "Yeni kitablar" (rüblük) biblioqrafik nəşrləri göstərmək olar. Yuxarıda göstərilən göstəricilər və kitabxananın tərtib etdiyi digər nəşrlərlə İnternet vasitəsilə də tanış olmaq mümkündür.

Kitabxana-informasiya xidmətini daha da təkmilləşdirmək məqsədi ilə azərbaycanşünaslıq, yeni kitabxana-informasiya texnologiyasının tətbiqi və biblioqrafik-analitik nəşrlərlə iş üzrə qruplar yaradılmış və ən təcrübəli, xidmət prosesini yaxşı bilən mütəxəssislər cəlb edilmişdir. Bu qrupların qarşısına ənənəvi kitabxana xidməti ilə yanaşı, yeni kitabxana-informasiya texnologiyalarını və metodlarını tətbiq etmək vəzifəsi də qoyulmuşdur. Müstəqillik əldə etdikdən sonra dövlətçilik tariximizin, azərbaycanşünaslığın öyrənilməsinə, xüsusi ilə onun iqtisadi, sosioloji və politoloji aspektlərinin dərindən tətbiq edilib öyrənilməsinə böyük tələbat yaranmışdır. Oxucular Azərbaycan tarixinə, iqtisadiyyatına, mədəniyyətinə, elmin müxtəlif sahələrinə dair əsərlərə və müstəqillik dövründə yeni təfəkkür tərzi, milli ideologiya baxımından yazılmış əsərlərin öyrənilməsinə böyük maraq göstərirlər. Bu baxımdan Prezident Kitabxanasında "Prezident, dövlət idarəçiliyi və ölkəşünaslığa dair ədəbiyyatın biblioqrafiyası" şöbəsinin təşkili təqdirəlayiqdir.

Bu şöbə Azərbaycanın tarixini, iqtisadiyyatını, siyasətini, mədəniyyətini yaxşı bilən bir sahə kimi öyrənilməsinə, təbliğ edilməsinə, oxuculara çatdırılmasına, oxucu sorğularının ödənilməsinə olduqca böyük təsir edəcək. Şöbə bu məqsədlə azərbaycanşünaslığa dair yeni nəşrləri izləyir, onun əldə edilməsini təmin etməklə yanaşı, oxuculara, xüsusilə, Prezident Aparatının işçilərinə çatdırmaq, vaxtlı-vaxtında onları məlumatlandırmaq üçün kitab icmalları, biblioqafik göstəricilər, tövsiyə siyahıları hazırlamağı nəzərdə tutur. Şöbə həmçinin dövri mətbuat materiallarının toplanmasını və azərbaycanşünaslığın ayrı-ayrı sahələrinə dair biblioqrafik siyahıların tərtib edilməsini, məqalələr toplusu qovluqlarının yaradılmasını təmin edir. Bu materialların və sənədlərin kitabxananın İnternet saytına daxil edilməsi onun əhəmiyyətini daha da artırır.

Kitabxanada fəaliyyət göstərən biblioqrafik-analitik işçi qrupu ənənəvi biblioqrafik fəaliyyətlə elektron biblioqrafik fəaliyyəti əlaqələndirir, ənənəvi biblioqrafik materialların elektron variantını hazırlayır.

Nə vaxt yolum Prezident Kitabxanasına düşsə, hər dəfə orada hansısa ciddi bir yeniliyin şahidi oluram. Artıq kitabxanada görülmüş işləri xarici mütəxəssislər də yüksək qiymətləndirirlər. ABŞ-dan gəlmiş kitabxana idarəetməsi və treninq üzrə nüfuzlu mütəxəssis doktor Kennet Oberembtin kitabxananın "Xatirə kitabı"na yazdığı "Prezident Kitabxanası mənim Azərbaycanda gördüyüm ən yaddaqalan kitabxanadır. O, gözəldir, yaxşı təşkil olunmuşdur və düzgün idarə olunur" sözləri məni çox sevindirdi. Mən də bu müasir mədəniyyət ocağının - respublikamızda ilk fundamental elektron kitabxananın kollektivini qazandığı uğurlara görə təbrik edir, ona gələcək fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıram.

"Azərbaycan ədəbiyyatı antologiyası" adlı elektron kitabxananın yaradıcılarından olan, Türkdilli ölkələrin kitabxana assambleyasının vitse-prezidenti, Azərbaycan Yazıçıları və Azərbaycan Jurnalistləri Birliyinin üzvü, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri namizədi Əmin Əfəndiyevlə söhbətləşib, həmin antologiya haqqında, onun müxtəlif dövlətlərdə yayılması haqqında fikirlərini oxucularla bölüşməyi xahiş etdik.

Yola saldığımız hər il, hər əsr bəşər mədəniyyəti tarixində özünəməxsus iz qoyub getdiyi kimi, XX yüzillik də elm və mədəniyyətin ayrı-ayrı sahələrində parlaq səhifələr yazaraq tarixə çevrilmişdir. XX əsr təkcə müharibələr, ictimai-siyasi çevrilişlər, milyonlarla insanın həyatına son qoymuş qanlı toqquşmalar əsri olmayıb. Keçən əsrdə bəşəriyyət elm, mədəniyyət və təsərrüfatın bütün sahələrində böyük nailiyyətlər qazanmışdır.

DÜNYANI GƏZƏN ELEKTRON ANTOLOGİYA

XX əsr Azərbaycan xalqı üçün də yüksəliş, elm, mədəniyyət və incəsənətin çiçəklənməsi dövrü olmuşdur. Xalqımız vidalaşdığımız əsrdə dünya mədəniyyəti xəzinəsinə Yusif Məmmədəliyev və Mustafa Topçubaşov kimi alimlər, Üzeyir Hacıbəyov, Qara Qarayev və Fikrət Əmirov kimi bəstəkarlar, Sabir, Mirzə Cəlil, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza kimi yazıçılar, Tahir Salahov və Əzim Əzimzadə kimi rəssamlar və onlarla digər sənətkarlar bəxş etmişdir. Ən nəhayət, təkcə Azərbaycan xalqı üçün deyil, bütün Türk dünyasına ümummilli lider Heydər Əliyev kimi dahi siyasi xadim, ağıllı dövlət başçısını vermişdir. Məhz belə bir dahi rəhbər verdiyi üçün XX əsr uzun illər xalqımızın yaddaşından silinməyəcək.

Keçən yüzilliklə əlaqədar yada salmalı, xatırlanmalı və fəxr etməli tarixi hadisələr və faktlar çoxdur: xalqımız XX əsrdə ictimai-siyasi sahədə böyük uğurlar qazanmışdır - tarixdə ilk dəfə müstəqil dövlət yaratmış, imperiya zülmündən azad olaraq demokratik dövlət qurmuşdur. Azərbaycan dilinin yenidən dövlət dili elan olunması xalqımızın ən böyük uğurlarından biri hesab edilməlidir. Elm, mədəniyyət, ədəbiyyat və incəsənət nəhəng addımlarla irəliləmişdir, böyük sənətkarlar ordusu yetişmişdir. Təhsil və idman dünya standartları səviyyəsinə qalxmışdır. İndi respublikamızda çox geniş formatda orta və ali təhsil sistemi formalaşmışdır. Minlər və on minlərlə gənclərimiz milli universitetlərdə ali təhsil almaqla bərabər, dünyanın ən böyük elm ocaqlarında müxtəlif ixtisas və peşələrə yiyələnirlər. İndi Azərbaycanda geniş mədəni-maarif müəssisələri şəbəkəsi on minlərlə zəhmətkeşə xidmət edir, ən ucqar kəndlərdə, qəsəbə, rayon





və şəhər mərkəzlərində zəngin ədəbiyyat fonduna malik kitabxanalar, minlərlə özfəaliyyət və teatr kollektivlərini öz ətrafında birləşdirən klub və mədəniyyət evləri xalqımıza mədəni xidmət göstərir. Respublikamızda fəaliyyət göstərən onlarla nəşriyyat klassik və müasir yazıçılarımızın əsərlərini nəşr etməklə bərabər, dünya ədəbiyyatı korifeylərinin də ən yaxşı kitablarını dilimizə tərcümə edərək kütləvi tirajla çap edir. Hörmətli Prezidentimiz İlham Əliyevin dünya klassiklərinin ən yaxşı əsərlərinin latın əlifbası ilə Azərbaycan dilində nəşr edilməsi haqqındakı Sərəncamı respublikamızda kitab nəşri işinə böyük təkan vermişdir.

Uzun illərdən bəri bəşəriyyətə uğurla xidmət etmiş yeganə informasiya mənbəyi hesab edilən "kağız kitablar" artıq indi insanları təmin etmir, onu daha müasir "kitablar"la, elektron daşıyıcılarla əvəz edirlər. Bizim indi söhbət açdığımız elektron kitabxana - "Antologiya" da belə bir ehtiyacdan yaranmışdır. Bu, həyatın tələbidir. Zaman, ictimai quruluş dəyişdikcə insanların dünyagörüşü, intellektual səviyyəsi, milli-mədəni sərvətlərə



münasibəti də dəyişir. Vaxtı ilə piyada, dəvə və atla aylarla getdiyi yolu indi təyyarə, sürət qatarı və maşınla bir-iki saata qət edir. Qəribədir ki, uzun əsrlər qaranlıq komalar və zirzəmilərdə yaşamış insan, indi çoxmərtəbəli binalarda və yaraşıqlı evlərdə işığın bir saatlığa sönməsi ilə razılaşa bilmir, radiosuz, telefonsuz, televizor və kompütersiz həyat onun üçün darıxdırıcı görünür. Dünənki həyat onu qane etmir. Bəşəriyyətin beşiyi hesab etdiymiz Yer kürəsi indi insana darısqal görünür, o, Aya, Marsa, başqa planetlərə uçuş edir. İnsanın başqa planetlərdə özünə məskən salacağı illər, yəqin ki, çox uzaqda deyil. Bəli, insan siqləti belədir, o daima ucalmaq, yüksəlmək arzusu ilə yaşayır.

XX əsr insan zəkasının məhsulu olan kompüter texnologiyaları, İnternet xidməti həyatımızın bütün sahələrinə möhkəm daxil olmuş, o cümlədən elm, mədəniyyət və təsərrüfatın ən müxtəlif qatlarında uğurla tətbiq olunmaqdadır. Bu "düşünən", "ağıllı maşınlar" kitabxana təsərrüaftında da hakim mövqeyə keçməkdədir. Oxuculara verilən informasiya xidməti kompüterin köməyilə həyata keçirilir, elektron kataloqlar və kitabxanalar yaradılır, müxtəlif mövzularda saytlar və antologiyalar tərtib olunur. İri kitabsaxlayıcıların çoxmilyonlu fondları elektron variantlarla əvəz edilir. Bir sözlə, indi kompüter texnologiyası tətbiq olunmadan kitabxana fəaliyyətini təsəvvürə gətirmək qeyri-mümkündür.

Kompüterin kitabxana işinə tətbiqi ilə əlaqədar bir məsələni xatırlamaq yerinə düşərdi: ötən yüzilliyin 90-cı illərində kitabxana fəaliyyətinə yenicə daxil olmağa başlayan "ağıllı maşınlara" kitabxananın bəzi işçilərinin, xüsusilə də yaşlı əməkdaşların münasibəti o qədər də xoşagələn deyildi. Kompüterin imkanlarını hələ dərindən başa düşməyən, onun xeyrini yaxşı dərk etməyən kitabxanaçılar "bizim görəcəyimiz işləri kompüter yerinə yetirəcəksə, bəs biz nə iş görəcəyik, bu yaşımızda hara gedəcəyik?"- deyirdilər. Lakin onlar unudurdular ki, hər bir yeni ixtiralar, "düşünən, ağıllı maşınlar" kəşf olunarkən ilk növbədə onlar bəşər övladının əməyini yüngülləşdirmək üçün tətbiq olunurlar. Fərəhli haldır ki, o vaxtlar kompüterdən giley-güzar edən həmin şəxslər indi onun qarşısında oturub oxuculara xidmət edir, dünyanın ən ucqar guşələrində yerləşən ölkələrlə əlaqə saxlayır, müxtəlif kitabxanalar və elmi idarələrlə "məktublaşır", onlarla "danışırlar"…

Zaman dəyişdikcə, ictimai həyat, cəmiyyət

yeniləşdikcə insanların xarakteri də dəyişir.

İndi hər bir oxucu kitab okeanında, bilik dəryasında kompüterin köməyi ilə sərbəst hərəkət edən, özünə lazım olan informasiyanı qısa bir müddətdə əldə edə bilir. Həmin informasiya daşıyıcısı dünyanın hansı ölkəsində, hansı kitabxanasında saxlanılmasından asılı olmayaraq, İnternet onu tezliklə tapıb istifadəçiyə çatdırır - lakin bir şərtlə ki, həmin informasiya daşıyısı İnternetdə yerləşdirilmiş olsun.

"Azərbaycan ədəbiyyatı antologiyası" tərtib edilərkən bir neçə əsas məsələ nəzərdə tutulmuşdu. Bunlardan ən başlıcası xaricdə yaşayan soydaşlarımızın ehtiyaclarını ödəmək idi. Məlumdur ki, 40 milyondan çox azərbaycanlı indi dünyanın müxtəlif ölkələrinə səpələnmişdir. Lakin vətənindən ayrı düşmüş soydaşlarımız heç vaxt Azərbaycanla əlaqələrini kəsməmiş, respublikamızla maraqlanır, onun haqqında geniş informasiya əldə etməyə çalışır, bu və ya digər ədəbiyyatın göndərilməsini xahiş edirdilər. Belə məktubları biz həm yaxın xarici ölkələrdən, həm də Avstraliya, Kanada, ABŞ, İngiltərə, Almaniya kimi uzaq ölkələrdə yaşayan soydaşlarımızdan alırdıq. Bundan əlavə, dünyanın müxtəlif ölkələrində yaşayan, elmi-tədqiqat müəssisələrində çalışan, Azərbaycanla maraqlanan ayrı-ayrı şəxslər tərəfindən bizə müraciət olunurdu. Bunların arasında elmi, tarixi, respublikanın bu günü ilə əlaqədar ədəbiyyatla yanaşı, bədii kitablar tələb edənlər də az deyildi. Lakin rabitə-poçt xərcləri və digər çətinliklər bizi başqa yollar axtarmağa vadar etdi.



O vaxtlar sıx əməkdaşlıq şəraitində, birgə tədbirlər keçirdiymiz ABŞ səfirliyinin Bakıda fəaliyyət göstərən Tədris və İnformasiya Mərkəzi, onun işgüzar direktoru Sevelina Kolarovanın köməyi ilə İnternetdə "Azərbaycan ədəbiyyatı antologiyası" adlı elektron kitabxana yaratmağı qərara aldıq və işə başladıq. Respublikamızda belə bir təcrübə yox idi, lazım olan avadanlıq çatışmırdı, ona görə də iş uzanırdı. Təxminən iki il üzərində işlədiyimiz "Antologiya"nın birinci hissəsi 2000-ci ildə hazır oldu. Lakin təəssüflər olsun ki, nəzərdə tutduğumuz plan yarımçıq qaldı. ABŞ səfirliyinin Tədris və İnformasiya Mərkəzi bağlanandan sonra bizə kömək edən olmadı.

"Antologiya"da folklor nümunələrindən başlamış ta bu günə qədər yazıb-yaradan yazıçıların yaradıcılığı öz əksini tapmalı idi. Elektron kitabxana isə şifahi xalq ədəbiyyatı nümunələri - minlərlə atalar sözü, bayatılar, lətifələr, 55 nağıl, 22 dastan, 20-dən çox aşıq yaradıcılığı və s., yazılı ədəbiyyatdan, X1 əsrdən-Qətran Təbrizi yaradıcılığından başlamış Məhsəti Gəncəvi, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif və s. yazıçıların əsərləri öz əksini tapmışsa da, X1X əsrdən sonra yaranmış ədəbiyyat "Antologiya"dan kənarda qalmışdır. Respublikamızda analoqu olmayan həmin elektron kitabxanada M.F.Axundov, N.B.Vəzirov, M.Ə.Sabir, Mirzə Cəlil, H.Cavid, C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, M.Hüseyn, Mir Cəlal, R.Rza, B.Vahabzadə, N.Xəzri, Anar və onlarla gənc yazarların əsərləri verilməmişdir.

"Antologiya" oxucu tələbini ödəmək, ondan istifadə etmək nöqteyi-nəzərindən böyük ustalıqla tərtib olunmuşdur: hər hansı bir nağılı, atalar sözünü, arzu etdiyin yazıçının, məsələn, Nizami poemalarının hər hansı birini oxumaq istəyirsənsə müvafiq düyməni bas, əsər monitorda hazırdır. Burada verilmiş hər bir bölmədə yazıçının şəkli, onun doğum və ölüm tarixləri, qısa tərcümeyi-halı, keçdiyi yaradıcılıq yolu, daha sonra əsərləri tövsiyə olunur. Sonda isə yazıçı haqqında yazılmış əsərlərin biblioqrafiyası verilir. Bundan əlavə, "Atologiya"nın bədii və musiqi tərtibatı yüksək zövqlə hazırlanmışdır. Burada onlarla miniatür rəsm əsərləri, Tofiq Quliyevin melodik mahnıları "Antologiya"nı daha da "oxunaqlı" və cazibədar edir. ABŞ səfirliyinin əməkdaşı S.Kolarova və bizim müəllifliyimizlə hazırlanmış "Azərbaycan ədəbiyyatı antologiyası" adlı kitabxana artıq bir neçə ildir ki, İnternetdə özünə daimi yer tapmış (www.azeribooks.aznet.org) və planetimizin müxtəlif ölkələrində yaşayan soydaşlarımızın istifadəsindədir.

"Antologiya"nın üstün cəhətlərindən biri

də ondan ibarətdir ki, vəsaitə daxil edilmiş bütün ədəbiyyat kirillə deyil, latın əlifbası ilə verilmişdir. Xaricdə yaşayan 40 milyondan artıq soydaşımız, Azərbaycanın söz sənəti ilə maraqlanan tədqiqatçılar, xaricdə yaşayan gənclər ondan uğurla istifadə edirlər.

Elektron kitabxananın ərsəyə çatmasında ABŞ səfirliyində çalışan əməkdaşların, xüsusilə də S.Kolarovanın, Ədəbiyyat İnstitutunun "İnformasiya və biblioqrafiya" şöbəsi işçilərinin xüsusi xidməti olmuşdur. Kirill əlifbası ilə çap olunmuş kitabların "latınlaşdırılması", bir sıra mənbələrin və şəkillərin skanerləşdirilməsi, kodlaşdırılmış proqramların tapılması, musiqi parçalarının yerləşdirilməsi, axtarış proqramlarının tərtibi və s. problemlər onların yaxından köməyilə yerinə yetirilmişdir.

Bunu da qeyd edək ki, "Antologiya" artıq 7-8 ildir ki, İnternet vasitəsi ilə dünyanın bütün qitələrində geniş istifadə olunur. Bundan əlavə, elektron kitabxana bu müddət ərzində müxtəlif ölkələri gəzmiş, orada təşkil olunan qurultay, konfrans, simpozium və yığıncaqlarda təqdimatı keçirilmiş, onun nüsxələri tədbir iştirakçılarına paylanmış və böyük razılıqla qarşılanmışdır.

"Antologiya" ilk dəfə Bakıda Elmlər Akademiyasının əməkdaşlarına göstərilmişdir. Onun təkrar təqdimatı AMEA-nın prezidenti, akademik Mahmud Kərimovun təşəbbüsü ilə Rəyasət Heyətinin üzvləri arasında olmuşdur. Bundan sonra o, Bakının bir sıra təşkilatlarında, ABŞ və Misir səfirliklərində nümayiş etdirildikdən sonra xarici "səfərlərə" başlamışdır. "Antologiya" Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq, Belqorod şəhərlərində, Ukraynanın Baxçasaray, Sudak, Simferopol şəhərlərində, Krımda - Türk Dünyası Kitabxanaları Assambleyasının iclasında, Finlandiyanın Parlament binasında, Türkiyənin Antalya şəhərində təqdimatları olmuşdur. Bu təqdimatlardan yalnız ikisi haqqında qısa məlumat vermək istərdim.

Oxuculara yaxşı məlumdur ki, Rusiya və Ukrayna mədəniyyət nazirlikləri və dövlət kitabxanalarının rəhbərliyi ilə 1994-cü ildən bu günə



qədər hər il, iyul ayının ilk dekadasında Ukraynanın Sudak şəhərində kitabxana işçilərinin Beynəlxalq Konfransını keçirir. "Kitabxanalar və Assosiyasiyalar dəyişən dünyada: yeni texnologiyalar və yeni əməkdaşlıq əlaqələri" devizi ilə keçirilən konfransda hər il 40-50 ölkədən 2500-3000-ə qədər kitabxanaçı, naşir, jurnalist radio və televiziya əməkdaşları, müəllim və yazıçılar iştirak edir. Konfransın əsas məqsədi müasir dövrdə kitabxana və informasiya sahəsində yeni texnologiyaların tətbiqi, kitabxana proseslərində avtomatlaşdırma problemlərinin müzakirəsi idi. Konfransda elmi məruzələr, müzakirələr, çıxışlar, seminarlar, dəyirmi stollar, maraqlı kütləvi tədbirlər və s. keçirilir. 2002-ci ildə (9-16 iyul) keçirilmiş konfransa biz də əliboş getməmişdik. Rusiya Xarici Ədəbiyyat Kitabxanasında yenicə yaradılmış "Şərq Mədəniyyət Mərkəzi" əməkdaşlarının təklifi ilə tədbirdə Antologiyaya baxış keçirildi. Tədbirə Avropa kitabxanaçıları da dəvət olunmuşdu. Bundan əvvəl, konfrans auditoriyalarının birində, onlarla xarici ölkə kitabxanaçıları qarşısında təqdimat təntənə ilə keçmiş, çoxlu suallara cavab verilmişdi. Bu beynəlxalq konfrasda xalqımız haqqında, onun öz dilində, öz əlifbası ilə təqdim olunan ilk "elektron söz" idi. "Antologiya" böyük şöhrət qazanmışdır. 13 iyul 2002-ci ildə Baxçasaray Mərkəzi kitabxanasında "Türk dünyası kitabxanaları: birgə fəaliyyət və əməkdaşlıq"



mövzusunda keçirilən dəyirmi masada özbək, qazax, tatar, qırğız, başqırd və s. türk xalqlarının nümayəndələri iştirak edirdilər. Tədbir böyük təntənə ilə keçdi. İclasın keçirilməsi Azərbaycan nümayəndəliyinə tapşırılmışdı. Ukrayna Prezidentinin Krımdakı nümayəndəsi Rəmzi Havaçı, Krım MR-in Ali Radasından İlmi Ömərov, Ukrayna Mədəniyyət Nazirliyi kitabxanalar üzrə baş mütəxəssisi Yelena Emirova və b. çıxışları maraqla qarşılandı. Çıxış üçün gənc bir xanım söz istədi. Bu, vaxtı ilə kitabxanamızdan qiyabi şəkildə istifadə etmiş, indi dissertasiya müdafiə edərək Tavriya Universitetinin Şərq ədəbiyyatı kafedrasında müəllim işləyən, bu günə qədər üzünü görmədi-yimiz, Türk dünyasının görkəmli sənətkarı, "Tərcüman" qəzetinin redaktoru, "fikirdə birlik, sözdə birlik, əməldə birlik" çağırışının müəllifi, böyük İsmayıl bəy Qaspıralının nəvəsi Gülnarə Seyidvaniyeva idi. O, bizə müraciət edərək dedi ki, sizin burada olduğunu eşidərək Tavriyadan bura gəlmişəm ki, mənə etdiyiniz köməyə görə Sizə təşəkkürümü bildirim. Özümüzlə apardığımız "Antologiya"nın 30 nüsxəsindən birini ona hədiyyə etdik.

"Azərbaycan ədəbiyyat antologiyası"nın ikinci belə təntənəli təqdimatı Türkiyənin cənnət guşəsi olan Antalya şəhərində olmuşdur. 2006-cı ilin iyun ayının 4-dən 10-a qədər burada dünyanın müxtəlif ölkələrində yaşayan Azərbaycan ziyalılarının Birinci Beynəlxalq Forumu keçirilmişdir. Tədbirə dünyanın 40-a yaxın ölkəsindən, o cümlədən Azərbaycan, Türkiyə, ABŞ, Rusiya, Avstraliya, Almaniya, İngiltərə, Fransa, Finlandiya, İsveç, Belçika, Kanada, Meksika, Özbəkistan, Belorus, Qazaxıstan, Litva, Qırğızıstan və s. ölkələrdən nümayəndələr dəvət olunmuşdu. Əvvəllər iştirak etdiymiz bir sıra beynəlxalq tədbirlərdən bu forum özünün orijinallığı və demokratik axarı ilə fərqlənirdi: tədbiri xarici ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov açaraq sözü əlindən tutub rəyasət heyətinin qarşısına gətirdiyi 7-8 yaşlı qarabuğdayı, totuq bir qız uşağına verdi. O, məlahətli və gur səsi ilə Azərbaycan və Türkiyə dövlətlərinin himnlərini ifa etdi. Forum belə başlandı…

Antalyaya böyük bir nümayəndə heyəti getmişdi. Əbülfəs Qarayevin "Azərbaycan diaspor quruculuğunda və milli həmrəyliyin əldə olunmasında mədəni irsin rolu", Əli Həsənovun "Qloballaşma prosesi və milli-mənəvi dəyərlərin qorunması" mövzusundakı məruzələri, Qənirə Paşayevanın məzmunlu çıxışı, Oqtay Mirqasımovun, Ayaz Salayevin, Rəşad Məcidin, Elçin Şıxlının və b. həmyerlilərimizin çıxışları böyük maraqla qarşılandı.

Forumun davam etdiyi bütün günlər ərzində incəsənət nümayəndələri İlhamə Quliyeva, Səkinə İsmayılova, Azərin, Manana, Tünzalə Ağayevanın və b. ifa etdikləri mahnılar foruma xüsusi təravət bəxş edir və alqışlarla qarşılanırdı. Forumun birinci günü, iyun ayının 5-də axşam iclasında "Antologiya" haqqında danışmaq və onu iştirakçılara təqdim etmək üçün mənə söz verildi.

Böyük maraqla keçən müzakirədə xarici ölkələrdən gəlmiş onlarla nümayəndə çıxış edib təşəkkürlərini bildirir, suallar verir, təklif və arzularını bildirirdilər. İki nəfərin çıxışı haqqında qısa məlumat vermək istəyirəm. Hyüston Universitetinin ədəbiyyat müəllimi İradə Axundova qeyd etdi ki, belə bir vəsait bizə hava və su kimi lazımdır. Dərs keçərkən rübai, qəzəl, qəsidə haqqında danışmaqda çətinlik çəkirik. Kitab qıtlığı ilə üzləşirik. İndi əlimizdə zəngin kitabxana var. (Forum iştirakçılarına "Antologiya" paylanmışdı). Finlandiyada fəaliyyət göstərən "Dostluq" cəmiyyətinin prezidenti Təranə Nəzərova: Biz son zamanlar müxtəlif şəhərlərdə "axşam" və "bazar günü" məktəbləri açmışıq, uşaqlardan ibarət rəqs qrupları təşkil etmişik. İstəyirik ki, balalarımız öz ana dilində danışsınlar. Azərbaycan ədəbiyyatı, tarixi, incəsənti haqqında kitablar yox dərəcəsindədir. "Antologiya" bu işdə bizə böyük kömək edəcəkdir".

Müzakirədən sonra onlarla həmyerlimiz - İmamverdi Qasımov (Sidney), Tomris Azəri (ABŞ), Nəsib Nəsiboğlu (Moskva), Nüsrət Məmmədov (Bişkek), Fuad Raufoğlu (Türkiyə), Eldar Əfəndiyev (Tallin), Vidadi Salahov (Qazaxıstan) və b. bizə yanaşıb Antologiya haqqında fikirlərini bildirirdilər. Belə söhbətlər bəzən gecə saat 3-4-ə qədər çəkirdi… "Azərbaycan ədəbiyyatı antologiyası" haqqında daha ətraflı məlumat üçün aşağıdakı ədəbiyyatlardan istifadə etmək olar:

1. Antalya təəssüratları //Ədəbiyyat qəzeti. - 2006. - 21 iyul.
2. Elektron informasiya:Səsimiz səslər içində. Beynəlxalq konfransdan qeydlər //Ədəbiyyat qəzeti. 2002. - 2 avqust.
3. Elektron antologiya //Elm. - 2001. - 15 sentyabr.
4. Elektron kitabxana: Azərbaycan ədəbiyyatı antologiyası //Ədəbiyyat qəzeti. - 2001. - 13 iyul.

ABŞ KİTABXANALARINDA FASİLƏSİZ TƏHSİL

Bütün dünya kitabxanalarında fasiləsiz təhsil məsələləri həmişə ön planda olmuşdur. Daha doğrusu, oxuculara yeni xidmət növləri göstərmək, bu sahədəki informasiya texnologiyalarından maksimum istifadə etmək kitabxanaçıların daim öz ixtisaslarını artırmaq zərurətini yaradır. İxtisasartırma problemlərini hər bir dövlət özünəməxsus tərzdə yerinə yetirir. Bu baxımdan ABŞ kitabxanalarında fasiləsiz təhsil prosesi öz orijinallığı ilə diqqəti cəlb edir. Belə ki, orada fasiləsiz təhsil kitabxanaçının bütün ömür boyu təhsili (long-life education) kimi nəzərdə tutulur. Hər bir işçi növbəti maliyyə ilində öz əmək haqqını qoruyub saxlamaq üçün illik hesabatında (self evaluation) bunu göstərməlidir. Əgər kitabxanaçı həmin ildə müxtəlif kurslarda, seminarlarda iştirak etməyibsə, mütləq məqalə yazmalı, məruzə etməli, hər hansı bir komissiyanın işində çalışmalı, müəyyən layihələrin yerinə yetirilməsində konkret işi yerinə yetirməlidir. Bu zaman təqdim edilən hesabat qısa, dəqiq, aydın olmalıdır. Hesabatın belə yazılışının özü də həmin kitabxanaçının savadlılığına dəlalət edir. Kitabxanaçı il ərzində gördüyü işləri açıqlayarkən "…öyrəndim", "…mənimsədim", "…tətbiq etdim" və s. göstərməlidir. Bir sözlə, fasiləsiz təhsilin göstəricisi kimi peşəkarlığın inkişafı nəzərdə tutulur.

Əmək haqqını artırmaq üçün isə təkcə işə gəlmək kifayət deyil, həm də iş vaxtından səmərəli istifadə etmək lazımdır. Əgər norma varsa, onu artıqlaması ilə yerinə yetirmək gərəkdir. Məsələn, katalogizator bir saatda orta hesabla bir sənədlə işləyir. Əgər o, normadan artıq işləyirsə, bu əlavə əmək haqqı deməkdir. Lakin bu zaman diqqət yetirmək lazımdır ki, səhvə yol verilməsin. Belə olmazsa, o zaman bütün zəhmət hədər gedə bilər. ABŞ kitabxanalarında komplektatorun öz norması vardır. Fond mütəmadi surətdə keyfiyyətcə yeniləşməlidir, lakin ədəbiyyat sayca artmamalıdır. Fondun inkişafı üzrə mütəxəssislər nəinki yeni ədəbiyyatın alınması, həm də köhnə nüsxələrin fonddan çıxarılması haqqında qərar qəbul edirlər. Ona görə də ABŞ kitabxanalarının fondları heç vaxt çox yüklənmir.

Hər kitabxananın inzibati personalı mütəmadi olaraq kitabxana işi üçün yeni forma, metodlar axtarır, oxucuların sorğularını analiz edir, kadrları yetişdirir. İnzibati surətdə kitabxana işinə yararsız kadrlar kütləvi surətdə işdən xaric edilir. Əməkdaşların orta hesabla 50 faizi daimi, əsl professional kadrlara aiddir. Onlar çalışırlar ki, öz kitabxanaları şəhərdə, ştatda, universitetlər arasında qabaqcıl yerləri tutsun. Bu kadrlar statistik göstəriciləri hərtərəfli analiz edir, çalışırlar ki, əhalinin çox hissəsini kitabxanalarına cəlb etsinlər. Misal olaraq göstərmək olar ki, ABŞ-ın bütün universitetlərində fəaliyyət göstərən kitabxanalar kütləvi kitabxana kimi həm uşaqlara, həm də böyüklərə xidmət edirlər. ABŞ-da ayrıca uşaq kitabxanası yoxdur.

ABŞ orta məktəbinin 12-ci sinfini bitirən (high school ali məktəb adlanan) hər kəs kitabxanaçılıq fakültəsinə daxil ola bilməz. 1992-ci ildən kitabxanaçıların bakalavr səviyyəsində təhsil almağı dayandırılıb. Peşəkar kitabxanaçılar (Occupational choice) kitabxananın daxilindən seçilir. Magistr Master dərəcəsi almaq istəyən şəxsin isə bakalavr dərəcəsi iş stajı və yaxşı xasiyyətnaməsi olmalıdır.

ABŞ kitabxanalarına hər kəs işə düzələ bilir. İş stajı zamanı hər kəsin bütün xüsusiyyətləri - xasiyyəti, qavrama dərəcəsi, işgüzarlığı diqqətlə öyrənilir. Peşəkar kitabxanaçıları seçmək üçün kitabxanalarda xüsusi metodika (Professional Selektion) hazırlanmışdır. Seçmə zamanı



həmin metodikaya uyğun olmayanlar kütləvi surətdə işdən azad edilirlər. Beləliklə, kitabxana kadrlarının özəyi kimi ancaq 50 faiz əməkdaşlar fəaliyyət göstərir. Qeyd etmək yerinə düşərdi ki, ABŞ kitabxanalarında bütün ştat vahidləri 5 kateqoriyaya bölünür. Axırıncı üç kateqoriya köməkçi qrup (Support staff) kimi xarakterizə olunur. İki yuxarı kateqoriyaya peşəkar (Professional) aiddir. Hər kateqoriyanın vəzifələrinin gördüyü işə uyğun olaraq münasib əmək haqqı vardır. Əmək haqqı hər il korrektə olunur.

1. KLERK. Ən aşağı kateqoriya olub, ancaq orta məktəb məzunlarını qəbul edirlər. Bununla belə, ixtisas tələblərinə uyğun olmaları üçün onların biznes məktəblərini (Business school) bitirmələri də arzu edilir. Bundan sonra iş prosesində həmin işçilərin təlimi tədris etmək hüququna malik olan kitabxanaçılar tərəfindən həyata keçirilir. Hamilik (tutorial sistem) peşəkar hazırlığa qədərki dövrdə çox vacib mərhələdir. Hami (İnstrustor) işə götürülən şəxsin peşə qabiliyyətini öyrənir və öz təkliflərini verir. Bu təkliflər bir növ həyata vəsiqə rolunu oynayır

2. KİTABXANAÇININ TEXNİKİ KÖMƏKÇİSİ (Tecnical assistant). Bu vəzifə ştat cədvəlində aşağıdan ikinci olub, orta məktəb təhsilindən əlavə mütləq hər hansı bir təhsilə də malik olmalıdır. Kitabxanaçının texniki köməkçisi vəzifəsinə kitabxanada işləmək istəyən bakalavr və magistratura dərəcəsinə malik olanlar qəbul edilirlər. Kənardan qəbul edilən bu işçilər əvvəlcə ciddi seçimə məruz qalırlar.

Onlar qısamüddətli kurslara göndərilir ki, burada onların peşəkarlığı yoxlanılır. Klerklər kimi onların da hüquq vəzifələri vardır. Lakin əlavə olaraq onlara müəyyən məsuliyyətli iş tapşırılır. Bu zaman onun işinə hami deyil, müşahidəçi (superviser) nəzarət edir. İlk dəfə olaraq ona ixtisasını artırmaq üçün şəxsi plan tərtib edilir. Bu plan hər il korrektə olunur.

3. KİTABXANA İŞÇİSİ (library associate) və yaxud mütəxəssis (associate specialist). Ştat cədvəlinin üçüncü kateqoriyasına aid olan bu vəzifəyə ancaq bakalavr və magistr dərəcəli mütəxəssislər təyin edilir. Onlar test üsulu ilə ciddi yoxlamadan keçir.

Bundan sonra əməkdaş bir müddət müvəqqəti olaraq həmin vəzifəyə qəbul edilir. Bir daha hərtərəfli yoxlamadan sonra perspektivli bakalavr və magistrlər kitabxana məktəbinə oxumağa göndərilir. Çox vaxt tədris müddətində natamam iş günündən (part-time) istifadə edirlər. Həmin işçinin işgüzar keyfiyyətlərindən asılı olaraq müdiriyyət onun təhsil haqqını ödəyir.

4. KİTABXANAÇI və ya mütəxəssis ilk peşəkar kateqoriyadır. Əməkdaşın kitabxanaçı vəzifəsinə keçirilməsi və ya təyin edilməsi üçün mütləq kitabxana elmi üzrə magistr dərəcəsinə malik olmalıdır. Bir sahə üzrə 5 il iş stajı olan magistr dərəcəli kitabxanaçı Amerika Kitabxanaları Assosiasiyalarının müvafiq bölməsində, beynəlxalq və milli konfranslarda iştirak edə bilər. Bununla belə, o, praktiki katalogizator olaraq kitabxanada öz işini davam etdirməlidir.

Kitabxanaçılar bütün fəaliyyəti ərəfəsində yeni informasiya sistemləri və dəyişən texnologiyaları mənimsəmək üçün öz ixtisasını təkmilləşdirir. Təcrübə qazandıqca onlar şöbə müdiri, kitabxana direktoru, baş inzibatçı (chief executive offiser) vəzifələrinə qədər yüksələ bilirlər.

5. BÖYÜK KİTABXANAÇI və ya BÖYÜK MÜTƏXƏSSİS - ali peşəkar kateqoriyadır. Bu, əsl mənada hər bir kitabxananın qızıl fondudur. Kitabxanaçılar bu kateqoriyaya aid olmaq üçün üç prosesdən keçməlidirlər.

Birinci, onlar idarəçilik və s. kitabxana ixtisası üzrə ikinci magistr dərəcəsi almalıdırlar. Bu zaman MBA (Master of Business Administration) dərəcəsi daha yüksək qiymətləndirilir.

İkinci, kitabxana məktəbinin doktorantura şöbəsinə daxil olmalı, dissertasiya müdafiə edib elmlər doktoru dərəcəsini almalıdır.

Üçüncü, ali professional ixtisas sertifikatını (müəyyən ixtisaslar üzrə - fondların formalaşması, kataloqlaşdırma, biblioqrafik vəsaitlərin tərtibi, məlumat xidməti və s.) almalıdır.

ABŞ-da minlərlə kitabxanaçı oxuculara xidmət işinin yeni forma, metod, texnologiyalarını axtarır. Onların fikir və təkliflərinə hörmətlə yanaşılır, təcrübədən keçirmək üçün şərait yaradırlar. Lakin heç kəs bu işləri innovasiya kimi qiymətləndirmir. Eləcə də, minlərlə kitabxana mütəxəssisləri Amerika Kitabxana Assosiasiyasının müxtəlif komissiyalarının işində iştirak edir, norma, qayda və standartların dəyişdirilməsi üçün müxtəlif təkliflər irəli sürürlər. Bununla belə, hər bir kitabxananın - ən böyük kitabxanadan tutmuş, məktəb kitabxanalarına qədər özünün Şura və Komissiyalarını yaradır. Müxtəlif tədbirlərlə onlar təkcə oxucuları deyil, bütün əhalini öz işlərilə, problemlərilə tanış edirlər. Bu zaman mətbuat, televizor, radiodan istifadə edir, müxtəlif həftəliklər, aylıqlar təşkil edirlər.



Yeganə MƏMMƏDOVA

KİTABA SEVGİ NƏDƏN BAŞLAYIR?..

Fizurə QASIMOVA,
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

Zakirə ƏLİYEVA,
"Uşaqlar və kitablar: gələcəyin dialoqu" layihəsinin müəllifi



Uşaqlarda kitaba sevgi nədən başlayır? Bu sualın cavabını F.Köçərli adına Respublika Uşaq kitabxanasında həyata keçirdiyimiz "Uşaqlar və kitablar: gələcəyin dialoqu" adlı layihə üzrə təşkil olunmuş "Kitabların təmiri və bərpası mərkəzi"nin məşğələləri zamanı elə uşaqların özündən aldıq...

Əvvəlcə onu qeyd edək ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları gələcəyimiz olan uşaqlara və yeniyetmələrə informasiya xidməti göstərməklə bərabər, kitabxana sahəsində dünyada baş verən yeniliklərlə, yeni iş metodları ilə vaxtında, yaxından tanış olur, öz işlərini bu istiqamətdə daha səmərəli qurmağa səy göstərirlər. Kitabxanaya müraciət edən uşaqları, burada maraqlı və rəngarəng kitab dünyası ilə yanaşı, maraqlı elektron nəşrlər, İnternet xidməti və müasir texnologiyaları mənimsəyərək bütün fəaliyyət istiqamətlərinə bacarıqla tətbiq edən peşəkar kitabxanaçılar gözləyir. Mütəmadi olaraq keçirilən mədəni-kütləvi tədbirlər, kitab bayramları, sərgilər, görüşlər və s. asudə vaxtını kitabxanada keçirməyə üstünlük verən uşaqların sayını artırmaqdadır.

Məhz bu səbəblərdəndir ki, layihənin ilkin mərhələsində nəzərdə tutduğumuz kimi azyaşlı, yeniyetmə oxucularla ünsiyyət yaratmaq və onların mütaliə maraqlarını öyrənmək kitabxanaçılarımız üçün çox da çətin olmadı. İlkin mərhələdə keçirdiyimiz müsahibələrdə uşaqlardan "Böyüyəndə hansı peşəni seçəcəksiniz?-sualına onlar hakim, müəllim, sürücü, biznesmen, diplomat, hərbçi, polis və s. cavablar verdilər. "Bəs kitabla bağlı hansı peşələri bilirsiniz?" sualına isə kitabxanaçı, naşir, rəssam, cildçi, yazıçı və s. cavablar ala bildik.



Əsas məqsədimiz isə böyüməkdə olan nəslə kitablarla, informasiya resursları ilə xidmət göstərməklə onların tərbiyəsinin düzgün istiqamətləndirilməsi proseslərində fəal iştirak edən Respublika Uşaq Kitabxanası oxucularının əməyini kitabların bərpası işinə yönəltmək və gələcəkdə bu işlə məşğul ola biləcək daha bacarıqlı peşəkar kadrların yetişməsinə diqqəti artırmaq, uşaqların düzgün peşə seçmələrinə nail ola bilmək və son nəticədə milli mədəni irsimizin tərkib hissəsi olan mədəni abidələrimizin, o cümlədən kitabların mühafizəsi qayğısına qalmaq idi. Nəzərinizə çatdırmaq istərdik ki, respublikamızda bu sahədə peşəkar insanlar, mütəxəsislər çox azdır və demək olar ki, yox dərəcəsindədir. Eyni zamanda gələcəkdə Azərbaycan uşaq ədəbiyyatının saxlayıcısı kimi kitabxananın fondunun zənginləşməsi istiqamətində də bu mühüm addım ola bilər. Ən mühüm cəhət isə odur ki, bu peşələrlə tanış olan yeniyetmələrin simasında Azərbaycan kitabxanaları, əlyazma fondları, muzeyləri, arxivləri və s. peşəkar bərpaçı, cildçi, konservasiya mütəxəssisi kimi kadrlarla təmin oluna bilər.

Layihə haqqında söhbətə başlamazdan əvvəl valideynlərə bir məsləhətimizi də çatdırsaq yerinə düşər.

Əziz valideynlər, uşaqlarınızın qarnının tox və geyiminin səliqəli olmasına çalışdığınız kimi,

NİHAD QULİYEV - 20 saylı məktəb

Kitab həyatımıza lap kiçik, hələ hərfləri belə tanımadığımız andan daxil olur. Əvvəl o bizimlə şəkilləri ilə danışır və sonralar biz ona hava və su kimi adət edirik. İndi mən hər hansı kitabı vərəqlədikcə sanki möcüzələr aləminə düşürəm: onun sətirləri məni gülməyə, həyəcan keçirməyə, maraqlı və qəribə hadisələrin iştirakçısı olmağa vadar edir. Kitabxananın rəflərində gördüyüm kitablardakı biliklər insanlar üçün gərəklidir və ona görə də onlar həmişə iş başındadır, əldən ələ keçir, mütaliə edilir. Və elə bir zaman gəlir ki, kitab köhnəlir, "qocalır", vərəqləri tökülür. Amma hələ neçə-neçə oxucu onun yolunu gözləməkdədir. Bu vaxt onların köməyinə çatmaq çox vacibdir. Bu dərnəkdə öyrəndiyim biliklər köhnə kitablara sağlamlığını qaytarmağa, dağılmış cildləri bərpa etməyə, hətta öz əllərimlə yeni kitab hazırlamağıma imkan verdi. Və mən başa düşdüm ki, kitab yalnız mütaliə ediləndə deyil, ona əmək sərf edəndə də sevinc gətirir. Axı biz ona ikinci həyat veririk.



onların mənəvi kamilliyi üçün kitabları mütaliə etməsinə həvəs və marağı da aşılamağa səy göstərin. Bir çox ölkələrdə, xüsusilə Qərbdə, insanlar tarix boyu qazandığı təcrübə və biliklərin nəsillərdən nəsillərə ötürülməsi ənənəsinin artıq imkansız olduğunu müşahidə edirlər. Bu isə müasir insanın düşüncəsini tənhalaşdırır, cəmiyyətdə özünə yer tapmasına mane olur. Uşaqlar və valideynlər, babalar və nənələr çox vaxt təcrid olunmuş bir aləmdə yaşayırlar. Əksər hallarda uşaqlar bir otaqda televizor ekranına baxır, valideynlər isə digər bir "dünyada" tənha yaşayırlar...

Vizual ekran mədəniyyəti - son on ildə həyatımıza daxil olan yeni anlayışdır. Artıq biz bu gün müxtəlif ekranların - televizor, videopleyer, kompüter, İnternet və s. texniki vasitələrin əhatəsindəyik. Və onların sayı gündən-günə artmaqdadır. Müxtəlif kommunikasiya vasitələri daha çox uşaqlara və yeniyetmələrə təsir göstərir. Lakin biz hələ ki, bu təsirlərin nəticələrinin törədəcəyi güclü fəsadlar haqqında özümüzə hesabat vermirik. Ancaq onlar davam etməkdə və genişlənməkdədir.

Yeni əsrimizin başlanğıcında uşaqların kitab aləminə münasibəti radikal olaraq dəyişmişdir. Bu gün sosial proseslərə kitab yox, kütləvi informasiya vasitələri daha çox təsir göstərməkdədir. İnformasiya kanalları isə sürətlə artmaqdadır. Belə bir vəziyyətdə daha çox audiovizual vasitələr uşaqların həyatında üstünlük təşkil edir.

Yeni ədəbiyyatın komplektləşdirilməsində kitab rəngarəngliyindən, milli mənəvi dəyərlərimizə xidmət edən mövzu resurslarının geniş repertuarından məhrum olan kitabxanalar, öz potensial oxucularını da itirmək üzrədir. Yeni nəsil vaxtının çox hissəsini İnternet saytlarında "səyahətə" çıxmaqla keçirir və yararlı-yararsız mütaliə ilə məşğul olurlar. Bu təsirin parametrlərini isə artıq müəyyən etmək olar:

- çap məhsulunun və informasiyanın qavranılmasının səviyyəsi dəyişir, o səthi və mozaik xarakter alır;

- mütaliə repertuarı daha çox detektiv, trillər, dəhşətli hadisələr, macəralı janrlar kimi istiqamətlərdə formalaşır;

- uşaqlar və gənclər daha çox illüstrasiyalı curnallara, əyləncə xarakterli nəşrlərə üstünlük verir və s.

İndi uşaqların mütaliəsində intellektual tərbiyənin çatışmadığı kəskin şəkildə hiss olunur. Biz arzu edərdik ki, ən gözəl mənəvi, intellektual profilaktik vasitə olan kitablar uşaqlarımızın gündəlik tələbatına çevrilsin, hər gün çörək yediyi və dişlərini təmizlədiyi kimi kitab mütaliəsi ilə də məşğul olsun, bunu adət halına salsın.

Əgər bizi, uşaqlıq illərində həvəslə oxuduğumuz şirin nağıllardan, dastanlardan, bayatılardan, A.Şaiqin, A.Səhhətin, Sabirin və b. müəlliflərin əsərlərindən məhrum etsəydilər, bu gün intellektual və mənəvi boşluğu heç bir şeylə tamamlaya bilməzdik.

Lakin, kitab oxumaq üçün vaxt da lazımdır. Qaçhaqaç, qovhaqovlarla müşayiət olunan postmodernizm adlanan bu günkü dünyamızda, həmişə tələsən valideynlərin məhəbbətinin hərarətindən məhrum olan uşaqların sayı ildən-ilə artmaqdadır. Biz yaşlı nəsil, uşaqlıqda sirli, möcüzəli nağıllar dünyasında yaşamışıq. Ətraf mühit bizim üçün həmişə əlçatmaz, sirli xəyallar aləmi olub. Uşaqlara deməyin ki, nağıllar yalandır. Bu dünya varsa, deməli nağıllar da var və onlar həqiqətdir. Televizora yönələn baxışlarınızı bir anlıq kitabların nağıllar dünyasına yönəldin. Onda görərsiniz ki, bu elə sizin özünüzün, uşaqlarınızın həyatının güzgüsüdür. Bəzən əyri, bəzən tutqun göstərən, lakin heç bir vaxt yalan danışmayan güzgü.

Deyirlər, Sokrat Afinanın bazar meydanını dolaşaraq qarşısına çıxan hər bir kəsə belə deyərmiş: " Afina - tənbəl atdır. Mən onu oyadan və hə-

TURAL MƏMMƏDOV - 135 saylı məktəb



Mən şeir həvəskarıyam. M.Ə.Sabirin, S.Vurğunun, M.Müşfiqin, B.Vahabzadənin şeirlərini həvəslə oxuyuram. Oxuduğum hər misradan faydalı fikirlər əldə edirəm.

Bu dünyanın hər sirrini
Bizə deyir bu kitablar.
Ömrümüzün yollarına
Nur çiləyir bu kitablar.

F.Köçərli adına Respublika Uşaq kitabxanasında "Gələcəyin dialoqu: Kitablar və uşaqlar" mövzusundakı məşğələlərdə iştirak etdikdən sonra bu elm mənbələrinin daha bir sirli aləmi ilə tanış oldum. Yazının, kağızın və nəhayət kitabların necə yaranması haqda yeni biliklər öyrəndim. Dünyada kitabla bağlı çoxlu peşələrin olduğunu da bildim. Öz əllərimlə kitabları təmir etdim və ilk dəfə zəhmətimə görə əmək haqqı aldım.

rəkətə gətirən mozalanam". Kitablar da buna bənzər mozalan kimi böyük təsir qüvvəsinə malikdir. Onlar uşaqların yatmış dünyasını oyadan Koroğlu cəngisidir.

Azərbaycan uşaq folkloru rəngarəng yaradıcılıq nümunələri ilə zəngindir. Bu nümunələr xalq dilinin axıcılığını, sadəliyini və yığcam fikir çalarında sözün hikmətini özündə saxlayan, uşaqların diqqətini cəlb edən, onların milli ruhda tərbiyə edilməsinə təsir göstərən bir məktəbdir. Sadəcə onu tapmaq, toplamaq, uşaqlara maraqlı ola biləcək variantlarda, kağız və elektron daşıyıcılarda təqdim etmək indiki zaman üçün çox lazımdır.

Beləliklə keçək layihəmizə… Layihə üzrə hər həftənin şənbə və bazar günləri fəal oxuculardan ibarət xüsusi qruplar cırılmış, istifadəyə yararsız kitabların bərpası ilə məşğul olmağa başladılar. Onlar məşğələlərdə çox həvəslə kitabın indiyə qədər keçdiyi tarixi yol - əlyazma və çap kitabları, Azərbaycanda kitab nəşri problemləri, onun tarixi haqqında ətraflı məlumatlar əldə edə bilirdilər.

Dərnəklərdə və kurslarda uşaqlara kitabın keçdiyi tarixi inkişaf yolu, onun quruluşu, təmiri və bərpası üzrə nəzəri bilikləri öyrədən müəllimlər təcrübi məşğələlərdə gərək olan alətlər, materiallar haqqında da məlumat verirdilər. Özü də, bütün dərslər PowerPoint proqramında təqdimatlarla müşayiət olunur, uşaqlara uşaq dilində kitabın tarixi haqqında ətraflı məlumat verilirdi:

Kitablar gəlməyib həyata birdən,
Gah daşdan düzəlib, gah da dəridən.
Yazarlar yorulur, əllər əsirdi,
Kitab yol gəlirdi, neçə əsrdi.
Nəhayət yarandı elə bir dəzgah
Kitabı bir anda o eylədi çap.
Sevindi, bu işə insanlar xeyli
Elmə, biliklərə çoxaldı meyli.

Kitablarla uşaqların dialoqunun necə başladığını, onların həvəslə təmir və bərpa işlərini necə böyük maraqla apardığını müşahidə etdik. Təmir etdiyi kitabları səliqə ilə vərəqləyib oxuyanlar, öz kiçik dünyasının fantaziyası ilə tərtibat verənlər də tapıldı. Qızlar da, oğlanlar da sanki ən yaxşı bərpa işi üçün yarışa girmişdilər. Hər kəs özünün bərpa və təmir etdiyi kitabla öyünürdü. Gördükləri işə görə əmək haqqı alanda isə onların sevinci yerə-göyə sığmadı.

Axı bu, onların aldıqları ilk əmək haqqı idi. Ən başlıcası isə, uşaqlar kitabı yaradan sənətkarların əməyini qiymətləndirir, yeni peşələr haqda məlumat əldə edirdilər. Kimsə evdəki kitabları təmir etməyə başladığından danışır, bəzi uşaqlar öyrəndiklərini yoldaşlarına başa salır, digərləri kiril əlifbasında olan bu kitabların məzmunu ilə tanış olduqdan sonra təəccüblə indiyə kimi belə əsərləri oxumadıqlarına heyfsilənirdilər. Digər tərəfdən, kitablara ikinci həyatı verən uşaqlar kitabxananın fondunun zəifləməsinin də qarşısını almışdı.

Bizim üçün isə, ən mühüm məsələ o idi ki, istədiyimizə nail olmuşduq. Uşaqlarda kitaba qarşı maraq oyanmışdı, özü də necə maraq! İndi hər şənbə və bazar günləri F.Köçərli adına Uşaq Kitabxanasında müxtəlif yaş qruplarından olan uşaqlar "xəstə" kitabları "müalicə" etdikləri üçün böyük sevinc və fərəh hissləri keçirirdilər. Bu sevinc kitabların onlara bəxş etdiyi bilik və zəhmətin nuru idi. Kim bilir, bəlkə də bu uşaqlar böyüyəndə yazıçı, kitabxanaçı, naşir, cildçi və ya indi kitabxanalarımızın, arxiv və muzeylərimizin böyük ehtiyac duyduğu və hələ ki, respublikamızda tədris olunmayan konservasiya mütəxəssisi olacaqlar. Bunun üçün onlarda həvəs də var, əməyə məhəbbət də, ən başlıcası isə intellektual sərvət olan kitablara ehtiram da.

ŞƏFƏQ HƏSƏNZADƏ - 54 saylı məktəb



Bir çox insanlar kitabları o qədər sevirlər ki, onlar öz şəxsi kitabxanalarını yaradırlar. Şəxsi kitabxanası olmayanlar isə ümumi kitabxanalardan istifadə edirlər. Mən boş vaxtlarımda kitab oxuyuram, kitablardan demək olar ki, heç ayrılmıram. F.Köçərli adına Uşaq Kitabxanasındakı kitabı bərpaetmə qrupuna mən də yazılmışam. Burada öyrəndiyim biliklərlə bu kitabxanada oxuduğum M.Dilbazinin "Əlcəzairli qız", S.S.Axundovun "Qaraca qız", Ə.Məmmədovun "Haray", A.Məmmədovun "Gülab nəfəsli", "Əlvida gözəl dünya", "Aşıq Əsəd", C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" və s. kitabları təmir etmişəm. Fəxr edirəm ki, mənim həyata qaytardığım bu kitablardan haçansa, hansısa bir şagird bəhrələnəcəkdir.

NİHAD SEYİDZADƏ - 21 saylı məktəb



Kitablar insanların ən etibarlı dostlarıdır. Çünki insanların bütün kəşfləri, bilikləri kitablardadır. Kitab olmasa "Dədə Qorqud", "Koroğlu", "Qaçaq Nəbi" kimi qəhrəmanqlıq dastanlarımız gəlib bizə çatmazdı və biz də onu sevə-sevə oxumazdıq. Kitab olmasaydı xalqlar da bir-birini tanımazdı. Kitabları qorumaq və gələcək nəsillərə çatdırmaq üçün kitabxanalar yaranmışdır.

Kitabı sevməliyik. Oxuyanda səhifələri əzilməsin deyə arasına əlfəcin qoymalıyıq. Mən F.Köçərli adına Uşaq Kitabxanasında dostlarımla birlikdə cırılmış kitabları təmir edir, müəllimlərin köməyi ilə kitab haqqında çoxlu məlumatlar öyrənirəm. Hamımız həvəslə çalışır, köhnəlmiş, cırılmış, cildi dağılmış kitabları bərpa edirik, ona yeni cild hazırlayırıq. Kitab üçün gərək olan bütün materialların, alətlərin də adını, istifadə qaydalarını öyrənmişik. Xüsusilə, biz oğlanlar bu peşəylə daha çox maraqlandıq. Kitab yaradan sənətkarlar, müasir kitab nəşri haqqında bizi maraqlandıran suallara müəllimlərimizdən cavab alırdıq.

Cırtdanın kitabxanaya səyahəti

(p o e m a)

ƏMİN ƏFƏNDİYEV

Müəllimə dedi: bu gün
Cırtdan qonaq gəlir bizə,
Gəlişinin səbəbini,
Özü izah edər sizə.
Bu xoş xəbər sürət ilə,
Tez yayıldı uzaqlara.
Gülərüzlü, şən balalar,
Yığışdılar otaqlara.
Hazırlaşdıq qarşılayaq.
Qonağı şən, gülərüzlə.
Sevindirək Cırtdanı biz,
Mahnı ilə, şirin sözlə.
Çox keçmədi gəldi Cırtdan,
Çanta dolu kitablarla
Dedi, güldü, oynadı o.
Mehriban şən uşaqlarla.
Sonra yığıb ətrafına,
Uşaqları əziz Cırtdan.
Sorğu-suala başladı,
Bütün günü yorulmadan.
Gətirdiyi kitabları.
Balalara verdi özü.
Çantasını boşaltsa da,
Ürəyində qalıb sözü:
Siz kitabı necə sevir?
Onu necə oxuyursuz?
Təzəsini, köhnəsini
Deyin, necə qoruyursuz?
Kitab bilik mənbəyidir,
O, ömürlük dostdu sizə.
Çox qədimdən kəşf olunub,
Qonaq gəlib ölkəmizə.
Kitabsız ev qaranlıqdır,
Kitab qüvvət verir bizə.
İnsanlara bilik, ağıl,
İşıq verir gözümüzə.
Hədiyyədir babalardan,
O indiki nəsillərə.
Mənəvi bir yadigardır
Nəsillərdən nəsillərə.
Kitab sənin silahdaşın,
Sədaqətli yoldaşındır.
Yalan deməz o heç zaman,
Darıxanda sirdaşındır.
Bəşər oğlu nə qazanıb,
Borcludur o, kitablara.
Əlyazması, çap kitabı,
Xidmət edib insanlara.
Yer bəşərin beşiyidir
Beşikdə çox qalmaq olmaz.
Kitabların qiymətini,
Heç bir zaman danmaq olmaz.
Kitabların gücü ilə,
İnsan qalxıb asimana.
Çox dəcəllər, yol azanlar
Qayıdıb haqqa, imana
Nizamilər, Füzulilər,
Nə yazıblar - kitabdadır.
Bütün kəşflər, ixtiralar,
Möcüzələr - kitabdadır.
Kitabları hər birimiz
Qorumalı, sevməliyik.
Onları kimlər yaradıb,
Öyrənməli, bilməliyik.
Bilirsizmi kağız nə vaxt,
Hansı eldə kəşf edilib?
İlk kitablar haralarda
Hazırlanıb, nəşr edilib?
Kitab da insan kimidir
Çap olunur, ömür sürür,



İllər keçdikcə qocalır,
Haldan düşür, sonra ölür…
Gah vərəqi qopur onun,
Gah cildinə ləkə düşür.
Bir nadincin əllərində,
Yaralanmış kökə düşür.
Oddan, sudan qorxur kitab,
Nəmişliyə gətirmir tab.
Toz da onun düşmənidir,
Bunu hamı bilməlidir.
Nəmli hava, bağlı otaq.
Kitab ora getsə qonaq,
Tez dəyişər halı orda.
Çürüyər kağız, karton da.
Söhbətini saxlayaraq,
Düşüncəyə dalır Cırtdan…
Sonra bütün uşaqlarla.
Bağa çıxır otaqlardan…
Bağın məşhur qonaqları
Heyran edir uşaqları.
Kimlər yoxdu bu aləmdə?
Divlə, küpəgirən qarı…

Davamı gələn sayımızda

№ 1 (01), İyun 2008

BAKIDA 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜNƏ HƏSR OLUNMUŞ "TARİX OLDUĞU KİMİ" MÖVZUSUNDA İKİGÜNLÜK BEYNƏLXALQ KONFRANS

Martın 30-da "Park İNN-Azərbaycan" mehmanxanasında "Tarix olduğu kimi" mövzusunda ikigünlük beynəlxalq konfrans keçirilmişdir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Bakı Dövlət Universitetinin və "İrəli" Ümumrespublika Gənclər Hərəkatının birgə təşkil etdiyi tədbir 31 Mart azərbaycanlıların soyqırımı gününə həsr olunmuşdu.

Konfransı gənclər və idman nazirinin müavini İntiqam Babayev açaraq Azərbaycan xalqına qarşı tarix boyu törədilmiş soyqırımı siyasətindən danışmış, ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmana əsasən 31 martın azərbaycanlıların soyqırımı günü kimi qeyd olunduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, erməni terrorçularının əsrlər boyu azərbaycanlılara qarşı törətdikləri cinayətləri araşdırmaq üçün son vaxtlar azərbaycanlı, habelə əcnəbi alimlər tərəfindən aparılan tədqiqatların sayı çoxalmışdır.

Bakıda belə bir mühüm konfransın keçirilməsinin əlamətdar hadisə olduğunu vurğulayan Prezidentin İcra Aparatının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov diqqətə çatdırmışdır ki, tədbirdə xarici alimlərin iştirak etməsi Azərbaycan tarixinə marağın artdığını göstərir. Cənubi Qafqazda ən intensiv inkişaf edən dövlət olan Azərbaycan regional proseslərin əsas inteqratoruna çevrilmişdir.

Şöbə müdiri bildirmişdir ki, Şərqlə Qərbi birləşdirən çoxəsrlik mədəniyyətə malik Azərbaycan təkcə sivilizasiyalar üçün körpü deyil, həm də çox mühüm geosiyasi və geoiqtisadi məkandır. Bütün bunlara görə ölkəmiz əsrlər boyu onu işğal etmək, Azərbaycan ərazisini ələ keçirmək, qoparmaq, bölüşdürmək istəyənlər üçün "yağlı tikə" olmuşdur. Milli tariximizdə dövlətçiliyimizi məhv etmək, xalqımızı kölə vəziyyətinə salmaq, tariximizi və mədəniyyətimizi unutdurmaq cəhdləri ilə bağlı faktların sayı-hesabı yoxdur. Çox vaxt mənfur qonşularımız bizim ərazimizi ələ keçirməyə cəhd göstərmiş, aldatma və yalanlar yolu ilə tariximizə və mədəniyyətimizə sahib çıxmağa çalışmışlar. Üstəlik, onlar başqa xalqlara münasibətdə vəhşilik, qəddarlıq, soyqırımı törətdikləri halda, özlərini belə əməllərin qurbanı kimi qələmə verməyə cəhd etmişlər.

Bütün bunların ağlasığmaz cəfəngiyyat olduğunu vurğulayan Elnur Aslanov demişdir ki, ermənilər dünya birliyini guya Sumqayıt hadisələrinin azərbaycanlılar tərəfindən törədildiyinə inandırmağa çalışırlar. Üstəlik, erməni təbliğatı hətta Xocalıda törətdikləri vəhşiliklərі də ermənilərə qarşı törədilmiş akt kimi qələmə verməyə səy göstərir. Təəssüf ki, bəziləri buna inanırlar. Bəzi dövlətlərin qondarma "erməni soyqırımı"nı tanıması buna sübutdur. Başqaları isə Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini müəyyən edərkən "ikili standartlar" nümayiş etdirirlər. Ona görə də bu gün Azərbaycan cəmiyyəti qarşısında duran vəzifə Prezident İlham Əliyev tərəfindən çox dəqiq göstərilmişdir. Artıq təbliğatda hücum siyasətinin vaxtı yetişmişdir. Azərbayacanın işi haqq işidir və buna əsla şübhə yoxdur. Başqa dövlətin ərazisinin 20 faizini Azərbaycan işğal etməyib, regionda zorakılığın yayılmasının mənbəyi Azərbaycan deyil, bir milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə Azərbaycan bais olmamışdır. Milli Məclis sədrinin müavini Bahar Muradova parlament rəhbərliyi adından konfrans iştirakçılarını salamlamışdır. Tarixi hadisələrdən ibrət almağın vacibliyini vurğulayan B.Muradova demişdir ki, yenidən belə faciələrlə üzləşməmək üçün lazımi addımlar atmalıyıq. Son illər Azərbaycan nümayəndələri müxtəlif beynəlxalq tədbirlərdə ölkəmizi narahat edən problemləri diqqətə çatdırırlar. Bu istiqamətdə səylər artırılmalıdır.

Bakı Dövlət Universiteti-

nin (BDU) rektoru, akademik Abel Məhərrəmov Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün son illər xarici dillərdə müxtəlif kitabların yazıldığını bildirmiş, rəhbərlik etdiyi ali təhsil ocağının bu istiqamətdə gördüyü işlərdən danışmışdır.

Bu işdə gənclərin fəallığının əhəmiyyətinə toxunan A.Məhərrəmov, konfransın işinə uğurlar arzulamışdır.

"İrəli" Ümumrespublika Gənclər Hərəkatının həmtəsisçisi Ceyhun Osmanlı xarici və yerli elm adamlarının iştirakı ilə belə bir tədbirin keçirilməsinin əhəmiyyətini vurğulamışdır.

"Faciənin tarixi" videofilminin nümayişindən sonra "Danışır erməni elitası" kitabının təqdimatı olmuşdur.

Kitabın müəllifləri Atamoğlan Məmmədov və Nuridə Allahyarova nəşr haqqında ətraflı məlumat vermişlər. Bildirilmişdir ki, beş dildə işıq üzü görən kitabda ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərdən faktlar əsasında bəhs olunmuşdur.

Müəlliflər kitabın ərsəyə gəlməsində göstərdiyi köməyə görə BDU-nun prorektoru professor Nərgiz Paşayevaya minnətdarlıq etmişlər.

Sonra "Danışır erməni elitası" kitabı əsasında hazırlanmış film nümayiş olunmuşdur.

ABŞ-ın Kolumbiya Universitetinin nümayəndəsi xanım Marie Tirell Ermənistan-Azərbaycan münaqişəsinin tarixi baxımından araşdırılmasının vacibliyinə toxunmuşdur.

Həmin dövrə aid tarixin dəqiq araşdırılmasının vacibliyini xüsusi vurğulayan alim, Birinci Dünya müharibəsindən qayıdan 7 min erməni hərbçisinin Bakıda saxlanıldığını və onların kütləvi qırğınlar törətməklə məşğul olduqlarını demişdir.

Marie Tirell demişdir ki, Şaumyanın rəhbərliyi və bolşeviklərin dəstəyi ilə ermənilərin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri qətllər və dağıntılar haqqında beynəlxalq ictimaiyyət məlumatsız idilər.

Konfransda ABŞ-ın BMT Baş Məclisində və Təhlükəsizlik Şurasında səfiri olmuş Siçan Siv, Portuqaliyanın postsovet ölkələri üzrə tədqiqat mərkəzinin direktoru Antonio Eduardo Mendonka, Almaniyanın Siergen Universitetinin təmsilçisi Henrix Yohannes, Paris Sosial Elmlər üzrə Ali Məktəbinin nümayəndəsi Rafael Mathey və BDU-nun professoru Musa Qasımov mövzu ilə bağlı məruzə etmişlər.



Kitabxanalarda konservasiya problemləri

Gülarə XƏLƏFOVA
AMEA MEK-in "Nadir və qiymətli nəşrlər" bölməsinin müdiri

Məşhur alman filosofu Qotfrid Vilhelm Leybnits kitabxanaları kitablarda cəmləşən insan fikrinin xəzinəsi adlandırmışdır. İnsan sivilizasiyasını əsası minilliklərin dərinliklərində qoyulmuş binaya bənzətmək olar. Bu binaya qoyulmuş hər bir kərpic ixtiraçıların yuxusuz gecələrinin bəhrəsi, dünyanın ən zəkalı insanlarının fikirləridir. İnsanın yaratdığı bu zinətlərin içərisində kitabın xüsusi yeri var. **Kitab - bilik xəzinəsi, insanın ruhu üçün məlhəm, müdriklik mənbəyidir.** Ərəblər kitaba bir xəzinə kimi münasibət bəsləmiş, qədim romalılar kitabı dibi görünməyən bir dərya ilə müqayisə etmiş, qədim rus alimləri isə kitabı torpağa həyat verən aşıb-daşan bir çaya bənzətmişlər. İnsanlar ta qədimdən indiyə kimi kitabları zərrə-zərrə toplayıb, nəsildən-nəslə ötürüb, nəticədə kitabxanalar yaratmışlar. Cəmiyyətin həyatında və mədəniyyət tarixində kitabxanaların rolu çox böyükdür. Hər bir cəmiyyət dünya mədəni irsinə aid nümunələrin qorunub saxlanması üçün böyük məsuliyyət daşıyır.



Yeni texnologiyaların inkişafı ilə bağlı cəmiyyətin sürətlə informasiyalaşması, məsələn elektron resursların yaradılması və yeni növ sənədlərin yaranmasını tələb edir. Müasir şəraitdə kitabxana fondları üçün daha qiymətli sayılan sənədlərin mühafizəsi problemləri davamlılığının artması və gələcəkdə unikal materialların itirilməməsi probleminin həlli üçün çox vacibdir.

Respublika kitabxanalarında bu məsələyə lazımi səviyyədə fikir verilməyib, ümumiyyətlə mühafizə problemləri nə elmi kitablarda, nə də dərsliklərdə işıqlandırılmayıb. Fondların mühafizəsi və bərpası məsələləri ilk dəfə olaraq Azərbaycanda Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında "Nadir və qiymətli nəşrlər" bölməsi tərəfindən həm nəzəri, həm də təcrübi cəhətdən öyrənilib və tətbiq edilib. Bu sahəyə aid "Nadir kitabların saxlanılması və konservasiyası" adlı layihə həyata keçirilib və "Nadir nəşrlərin mühafizəsi və kon-

servasiyası", "Kitabların biozədələnməsi haqqında əməli və təcrübi qeydlər" adlı məqalələr dərc olunub.

Fondların mühafizəsini təmin etmək üçün müxtəlif üsullardan istifadə olunur və onların ən əhəmiyyətlisi sənədlərin xüsusi saxlama rejimi və bərpasıdır.

Sənədlərin mühafizəsi probleminə ikitərəfli yanaşılır:

1. Sənədlərin əsli və nəşrlərin orijinalının mühafizəsi;

2. İnformasiya və sənədin surətinin mühafizəsi.

Hal-hazırda sənədlərin surətini maşınla oxunan daşıyıcılara köçürülməsi ən aktual məsələdir. Sənədlərin başqa daşıyıcılara köçürülməsi sənədin orijinalının qorunub saxlanmasına, həmçinin bütün marağı olan oxucuların sənədin surətindən istifadə etmək imkanını yaradır.

Ənənəvi nöqteyi nəzərdən kitab fondlarının mühafizəsi probleminin həlli üçün nadir nəşrlərin bərpası və fondlarda yerləşən sənədlərin fiziki keyfiyyətinə təsir göstərən 5 amildən qorunub saxlanması nəzərdə tutulur. Bu hava-mühit, bioloji, dalğavari enerji, sosioloji və fövqəladə vəziyyət amilləridir. Fondların mühafizəsi problemi çərçivəsində kitabxanalarımızda ancaq birinci və ikinci amillər nəzərdə tutulur.

Müasir dövrdə kitabxana fondlarının mühafizəsi probleminin həllində bütün dünya kitabxanalarının iştirakı vacibdir, ona görə ki, XXI əsrin astanasında ətraf mühitin çirklənməsi, kitabxana fondlarının, həmçinin nadir nəşrlər fondlarının intensiv istifadəsi, sənədlərin tez-tez surətinin çıxarılması ilə əlaqədar bütün dünyada sənədlərin saxlama şəraiti eyni ilə kəskin şəkildə pisləşir. Bu gün fond işçiləri qarşısında duran məsələlərin ən vacibi - tərkibində yüksək turşusu olan kağızlardan nəşr olunmuş kitabların məhv olmasıdır. Bu qəbildən olan kitabları başqa elektron daşıyıcılara köçürməklə, sığorta fondlarının yaradılmasını təmin etmiş olurlar. Bu da fondların mühafizəsi üçün ən əlverişli üsuldur.

Kitabların məhv olmasının qarşısının alınması üçün konservasiya bir profilaktik tədbir kimi tətbiq olunur. Fondun bərpası ilə bağlı kitabxananın çoxaspektli fəaliyyəti nəticəsində yaranmış preventiv konservasiyanın yeni texnologiyası "mərhələli" (faza) konservasiya adlandırıldı. Mərhələli konservasiya ideyası ondan ibarətdir ki, hər bir kitaba onun ölçüsünə uyğun xüsusi turşusuz kartondan mikroiqlimli konteyner hazırlanır. Bu cür üsulla kitab ətraf mühitin zərərli təsirindən müdafiə olunur, kağızın köhnəlmə prosesi sabitləşir.

İlk dəfə mərhələli konservasiya texnologiyası 1973-cü ildə ABŞ-ın Konqres kitabxanasında, sonra isə ABŞ-ın bütün kitabxanalarında tətbiq olunub. Mikroiqlimli konteynerlər ilk dəfə turşusuz kartondan Amerikan proqram təminatı olan "Box Maker" dəzgahda hazırlanıb. Rusiyada isə Elmlər Akademiyasının kitabxanasında ABŞ-ın Konqres kitabxanasının köməyi ilə sınaqdan keçirilib, onların şəraitinə uyğunlaşdırılıb və yanğın zamanı ziyan çəkən kitablara tətbiq edilib. 1993-cü ildə ilk dəfə Rusiya turşusuz karton əldə edə bilir və o vaxtdan öz kitabxanalarını bu materiallarla təmin edir.

Azərbaycanda ilk dəfə mərhələli konservasiya Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında həyata keçirilib. "Nadir kitabların saxlanması və konservasiyası" adlanan bu layihə Soros Açıq Cəmiyyətinin kitabxana proqramları üzrə planlayihələr müsabiqəsində 6500$ məbləğində qrant udmuşdur. Bu layihə çərçivəsində iş əsasən üç mərhələdən ibarət idi:

1. Yeni yaranmış "Nadir nəşrlər" fondunun təmiri;

2. Fondun yeni avadanlıqla təchizatı;

3. Bərpaya daha çox ehtiyacı olan ilk 500 kitab üçün Moskvadan gətirilmiş turşusuz kartondan mikroiqlimli konteynerlərin düzəldilməsi.

Layihə əsasında Nadir nəşrlər fondu təmirdən sonra lazımi avadanlıqla təmin olundu. Fondun saxlama şəraitini yaxşılaşdırmaq üçün kondisioner, məlumat kartlarını tərtib etmək və məlumat bazasını yaratmaq üçün kompüter, kitabların tozunu almaq üçün tozsoran, kitabxananın daxili imkanlarından istifadə edərək nadir nəşrlər

üçün müvafiq stellajlar və mikroiqlimli konteynerləri saxlamaq üçün şkaf hazırlandı. Bundan sonra turşusuz kartonu əldə etmək üçün iki kitabxana əməkdaşı Moskvaya ezam olundu. Həmin bu kitabxanada 500 kitab üçün turşusuz karton alındı. Ezamiyyətdən sonra seçilmiş ədəbiyyat dezinfeksiya olundu və kitablardan ölçü götürüləndən sonra, hər bir konservasiya olunan kitaba kompüterdə məlumat kartı tərtib olundu. Hər bir kitabın ölçüsü əsasında mikroiqlimli konteynerlər hazırlandı, sonra isə hər bir hazırlanmış konteynerə kitablar yerləşdirildi və örtülü şkafa düzüldü.

Beləliklə, Azərbaycanda ilk dəfə mərhələli konservasiya - fonddan ədəbiyyatın seçilməsi, kitabın ölçülərinin götürülməsi, kitabın ölçüləri əsasında mikroiqlim konteynerlərin harzırlanması, kitabların dezinfeksiya və dezinseksiya olunması, hər bir kitaba informasiya kartının tərtibi, kitabın fərdi mikroiqlimli konteynerdə yerləşdirilməsi layihəsi kimi həyata keçirildi.

Bu layihə çox gözəl təşəbbüsdür, lakin vəziyyətdən çıxış yolu deyildir, çünki kitabxanalarımızda milyonlarla kitabın belə bir konservasiyaya ehtiyacı vardır. Azərbaycanın nə turşusuz karton istehsal etməyə, nə də bu kartonu xaricdən almağa maddi imkanı yoxdur.

Azərbaycan kitabxanalarında mühafizə problemləri ilə bağlı məsələlərə lazımi səviyyədə fikir verilməyib. Konkret olaraq, iri elmi kitabxanalarda saxlama rejimi sənədlərin təhlükəsizliyinin təmin olunması ilə bitmir. Lakin bu tədbirlər də lazımi səviyyədə deyil, məsələn, elmi kitabxanalarda saxlayıcılar təmirə ehtiyacı olan otaqlarda və yaxud zirzəmidə (AMEA MEK) yerləşdirilib, fond sahələrində normadan əlavə kitablar düzülüb, halbuki 2500-3000 kvadrat metr sahədə 1 mln. artıq ədəbiyyat yerləşdirilməməlidir. Bəzi elmi kitabxana fondları (Məsələn: Pedaqoji, Kənd təsərrüfatı, Tibb Elmi kitabxanaları, xüsusilə də AMEA MEK) normadan artıq ədəbiyyatla yüklənib. Bu da saxlama şəraitinin tam şəkildə pozulması deməkdir. Bundan əlavə, yeni ədəbiyyatı yerləşdirmək üçün bütün ehtiyat sahələrdən istifadə olunub və nəticədə ədəbiyyat çox sıx şəkildə yerləşdirilib, kitabxanalar kondisionerləşmə və hava təmizləyən qurğularla təmin olunmayıb, bu sistemlər tamam yararsız haldadırlar.



Bununla da fondların təhlükəsizliyi təmin olunmayıb. Bunun əsas səbəbi kitabxanaların lazımi səviyyədə uzun müddət maliyyələşdirilməməsi və kompleksləşdirməyə lazımi vəsaitin ayrılmaması, kitabxana işçilərinin əməyinin qiymətləndirilməməsi ilə bağlıdır.

Bütün bunlar kitabxana fondlarının mühafizəsi problemlərinin həllini təhlükə altına alır və nəticədə bərpaya ehtiyacı olan sənədlərin həcminin artmasına səbəb olur.

Kitabxana fondlarının mühafizəsi və bərpası ilə əlaqədar aşağıdakı işlər görülməlidir:

* fondların mühafizəsi ilə bağlı regional bərpa xidmətlərinin yaradılması;
* respublika üzrə nadir nüsxələrin ümumi kataloqunun yaradılması;
* respublika üzrə sığorta fondlarının yaradılması;
* bu mərkəzdə fəaliyyət göstərməyə qadir olan yeni kadrların hazırlanması;
* bərpaçı-konservator;
* fövqəladə vəziyyət yarandıqda hazırlıq tədbirləri planı.

Dövlət səviyyəsində kitabxana fondlarının mühafizəsi üzrə proqram qəbul olunmalı, layihələr həyata keçirilməli, donor təşkilatlar maliyyələşdirməlidir.

Bu proqram çərçivəsində müxtəlif layihələrin iştirakçıları fondların mühafizəsi sahəsində müəyyən iş görmüş kitabxana və təşkilatlar olmalıdır. Burada ilk növbədə AMEA-nın Mərkəzi Elmi Kitabxanasını qeyd etmək lazımdır, çünki respublikada ilk dəfə bərpa və konservasiya üzrə Soros Açıq Cəmiyyəti tərəfindən maliyyələşdirilən layihə məhz burada işlənilib və bu layihə əsasında müasir tələblərə cavab verən "Nadir və qiymətli nəşrlər fondu" yaradılıb. Yenə də Soros Açıq Cəmiyyəti tərəfindən maliyyəldəşdirilən mühafizə, konservasiya və bərpaya aid rus dilində olan müəyyən metodiki vəsaitlər tərcümə edilib. Bundan əlavə, MEK Amerika səfirliyinin nəzdində fəaliyyət göstərən Tədris Mərkəzi tərəfindən maliyyələşdirilən "Sənədlərin bərpası və konservasiya" adlı 24 saatlıq kurslar tədris olunub və bu kurslar Bakının müxtəlif elmi kitabxanalarının (məsələn, Azərbaycan Pedaqoji Kitabxana, Elmi-texniki kitabxana, Tibb Universitetinin kitabxanası, Memarlıq və İnşaat universitetinin kitabxanası, Kənd Təssərüfatı kitabxanası və s.) mütəxəssisləri müdavimi olub, sertifikat almışlar.

AMEA-nın Əlyazmalar İnstitutunun bu proqramda iştirakı vacibdir, ona görə ki, 1950-ci ildən Ədəbiyyat İnstitutunun Əlyazmalar şöbəsinin nəzdində uzun illər bu sahədə işlər aparılıb. Orada 70-ci illərdə yaranmış Bərpa və gigiyena laboratoriyası fəaliyyət göstərir.

M.F.Axundov adına Milli kitabxananın da "Nadir nəşrlər" şöbəsinin mühafizəsi sahəsində xidmətləri böyükdür. Lakin bütün bunlara baxmayaraq, kitabxanaların ümummilli miqyasda qətiyyətli tədbirlər həyata keçirilməsi vaxtı gəlib çatmışdır.

Normativ qaydalara uyğun sənədlərin saxlama rejimini yaratmaq üçün və fondların təhlükəsizliyi təmin etmək üçün aşağıdakı qeyd olunan tədbirlərin keçirilməsi vacibdir:

* kitabxanalar üçün ixtisaslaşdırılmış binaların tikilməsi;
* fondların artımını nəzərə alaraq plan üzrə sahələrinin genişləndirilməsi;
* binanın və mühəndis-kommunikasiya sistemlərinə tam nəzarət edilməsi;
* fondların mühafizəsini təmin edən müasir texniki vasitələrlə kitabxananın təchiz edilməsi;
* kitabxanaların maddi-texniki ehtiyaclarının maliyyələşdirilməsinin təmin edilməsi.

Fondların mühafizəsi üzrə normal işin təşkili üçün respublikada yaxşı kimyəvi laboratoriyası, fotolaboratoriyası olan, bərpa şöbəsi fəaliyyət göstərən xüsusi konservasiya və bərpa mərkəzi olmalıdır. Həm Bakıda, həm regionlarda belə bir mərkəzin yaradılması və lazımi avadanlıqla, materiallarla, kimyəvi reaktivlərlə təchiz olunması respublika üçün çox vacibdir və fondların mühafizəsi ilə bağlı prioritet iş istiqamətlərindən olduğu şəksiz sübutdur.

Azərbaycançılıq ideologiyasına dair biblioqrafik ehtiyat

Milli ideologiyamızın özəyi olan Azərbaycançılıq ideologiyasının cəmiyyət üzvləri tərəfindən fəal qavranılması və geniş vüsət almasının və istifadəsinin real mümkün yollarından biri, bəlkə də ən əsası onun informasiya təminatı sisteminin təşkili məsələsidir. İnformasiya bizi əhatə edən mühit haqqında hər cür məlumatı nəzərdə tutan bir anlayışdır. 3 aprel 1998-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında " Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsində "İnformasiya" terminino belə hüquqi qiymət verilir: "İnformasiya - təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və prosseslər haqqında məlumatlardır". İnsanın düzgün qərar qəbul etməsi informasiyanın adekvatlığının, real prosesin, obyektin vəziyyətinə uyğunluq dərəcəsindən asılı olaraq müəyyən edilir. Hazırda bütün ölkələrdə hər bir şəxsin, qrupun, kollektivin, təşkilatın inkişafı getdikcə daha çox dərəcədə məlumatlı, bilikli olmaqdan, informasiyaları axtarmaq, istifadə etmək bacarığından asılıdır. Hər-hansı tədris, elmi, istehsalat və digər fəaliyyəti yüksək səviyyədə icra etmək üçün ilk növbədə əlaqədar informasiyaları toplamaq, emal etmək və istifadə etmək vacibdir. Bu informasiyalar əsas məlumat daşıyıcıları olan sənədlərdən əldə edilir. Mövcud və tarixən formalaşmış, artan informasiyaları sürətlə axtarmaq, seçmək, təhsildə, elmdə və istehsalatda istifadə etmək və həmçinin məqsədyönlü mütaliə üçün ədəbiyyatın seçilməsi, onların əks etdirdiyi informasiyadan ən dəyərlilərinin mənimsənilməsi tarixən informasiya tələbatçılarının qarşısında duran mühüm problemə çevrilmişdir. Ardıcıl və sistemli informasiya üçün lazım olan sənədlərin əldə edilməsi və dəqiq seçilməsi müasir dövrdə daha da çətinləşmişdir. Sənəd kütləsindən daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitəçilərdən biri biblioqrafiya və onun əsasında yaradılan bibloqrafik informasiyadır. Biblioqrafik fəaliyyətin məhsulu kimi biblioqrafik informasiya mənbələri, ehtiyatları yaradılaraq, meydana gəlir. Bu zaman qarşıya belə bir sual çıxır. Biblioqrafiya, biblioqrafik informasiya, biblioqrafik mənbələr, vəsaitlər nədir və kimlər üçün nəzərdə tutulmuşdur? Biblioqrafiyaya 1984-cü ildə qəbul edilmiş III Dövlət Standartında bu cür tərif verilir: **"Biblioqrafiya - cəmiyyətdə biblioqrafik informasiyanın fəaliyyət göstərməsini təmin edən müxtəlif fəaliyyət (təcrübü, elmi-tədqiqat, tədris, idarəetmə) növləri sistemidir."** Həmin standartda biblioqrafik informasiyanın tərifi belədir: **"Biblioqrafik informasiya - sənədlər haqqında xəbər vermək, onların axtarışı, tövsiyə edilməsi və təbliği məqsədilə yaradılan informasiyadır."** Biblioqrafik vəsaitə isə belə tərif verilir: **"Biblioqrafik vəsait - biblioqrafik informasiyanın məqsədinə, oxucu istiqamətinə uyğun olan fikrə, məqsədə, forma və məzmuna görə vəhdətdə götürülmüş və qaydaya salınmış biblioqrafik yazı toplusudur."**

İnformasiya ehtiyatları insanlar tərəfindən əsasən sosial istifadə üçün yaradılmış və müxtəlif maddi daşıyıcılara keçirilmiş, yazılmış bilgilərdir. İnformasiya ehtiyatları- informasiya sistemlərində olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləridir. İnformasiya tələbatçılarının müxtəlif məzmunlu sorğularına vaxtında, dolğun cavab vermək və onların tələbatlarını səmərəli şəkildə ödəmək baxımından informasiya ehtiyatları içərisində özünəməxsusluğu ilə seçilən biblioqrafik ehtiyatlar, daha doğrusu biblioqrafik informasiya mənbələri hesab edilən biblioqrafik vəsaitlərdir. Standartda verilmiş tərifdən göründüyü kimi biblioqrafik vəsaitlər, ehtiyatlar müxtəlif mövzulara həsr olunmuş, sürətlə artan, xeyli miqdarda sənəd kütləsi içərisindən günün aktual problemlərinə həsr olunmuş ilkin sənədlərin (kitab, jurnal, qəzet materialları) seçilərək biblioqrafik təsvirlərinin ardıcıllıqla düzülüşündən ibarətdir. Biblioqrafik informasiyanın digər informasiya sistemlərindən, vasitələrindən əsas fərqli xüsusiyyəti ondan ibarətdir ki, o sənədlərin özlərini deyil, bilavasitə sənədlər haqqında lakonik məlumatları informasiya tələbatçılarına çatdırır.

Təəssüflə qeyd etmək lazımdır ki, bir çox müxtəlif mövzulara, elm sahələrinə həsr olunmuş ümumi və xüsusi xarakterli biblioqrafik informasiya vəsaitləri hazırlanıb, informasiya tələbatçılarına çatdırılsa da milli ideologiya, milli dövlətçilik və azərbaycançılıq ideologiyasına həsr olunmuş biblioqrafik informasiya mənbələri bu günə qədər kifayət qədər işlənməmişdir. Bu mövzu ilə bağlı bir neçə biblioqrafik informasiya vəsaitləri tərtib olunmuşdur ki, həmin mənbələrdə də bu məsələyə dair sənəd kütləsinin çox az hissəsi əhatə olunmuşdur. Həmin informasiya ehtiyatlarını bu cür xarakterizə etmək olar:

1. Qarabağ: Biblioqrafiya / Tərt. ed.: A.C.Xəlilov; red. V.Quliyev.- Bakı: Şuşa, 2004.- 400 s.

Mövzu xarakterli olan bu vəsait ideya, oxucu və məqsəd istiqamətinə görə elmi-köməkçi, funksional məqsəd istiqamətinə görə retrospektiv xarakterli bibli-

oqrafik mənbədir. Qeyd etmək lazımdır ki, bu Qarabağ mövzusuna həsr olunmuş ilk biblioqrafik informasiya vəsaitidir. Vəsaitin nəzərdən keçirilməsi ilk baxışda Ermənistanın Azərbaycan ərazilərinə siyasi iddialarının əsassız olduğunu, ermənilərin qaldırdığı məsələyə bütövlükdə Qarabağ tarixi fonunda necə dayaz olduğunu göstərir. Göstəricidə bu fakt əyani şəkildə göstərilir. Məhz buna görə milli ideologiyanın tərkib hissəsi olan Azərbaycançılıq ideyasına həsr olunmuş bir neçə kitablar, qəzet və jurnal materialları burada öz əksini tapmışdır. Bu nöqteyi-nəzərdən vəsaiti milli ideologiya məsələsini işıqlandıran biblioqrafik informasiya ehtiyatı kimi qiymətləndirmək olar.

2. Əfəndiyev Ə. Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu: İzahlı biblioqrafiya / Elmi red.: V. Arzumanlı.- Bakı: Qartal, 1998.- 217 s.

3. Şükürov K. Azərbaycan əhalisi haqqında: Biblioqrafik göstərici.- Bakı: Azərb.Döv.Kitab Palatası, 1997.- 368 s.

Bu biblioqrafik informasiya vəsaitlərinin hər ikisi ölkəşünaslıq xarakterli mənbələrdir. İdeya, oxucu və məqsəd istiqamətlərinə görə elmi-köməkçi, funksional məqsəd istiqamətinə görə isə retrospektiv xarakterli vəsaitlərdir. Milli ideologiya və azərbaycançılıq ideyası baxımından bu göstəricilərdə qədim dövrlərdən müasir dövrümüzədək əhali problemlərinə, xüsusilə, Azərbaycanda yaşayan azsaylı xalqlar, etnos, etnik birliklərə, Azərbaycanın və Qafqazın ən qədim xalqlarına, onların tarixinə, mədəniyyətinə, məişətinə və s. həsr olunmuş ilkin mənbələr haqqında məlumat verilmişdir. Sosial, ictimai-siyasi əhəmiyyətinə görə bu biblioqrafik mənbələri milli ideologiya məsələlərini qismən əhatə etdirən biblioqrafik ehtiyatlar adlandırmaq olar.

4. Heydər Əliyev: Biblioqrafik məlumat kitabı / Tərt. ed. : A. Xələfov, S. Sadıqova.- Bakı: BDU, 2003.- 434 s.

Bu biblioqrafik göstərici şəxsi biblioqrafik xarakterli mənbə olub, oxucu və məqsəd istiqamətinə görə elmi-köməkçi, funksional məqsəd istiqamətinə görə isə retrospektiv xarakterli biblioqrafik vəsaitdir. Göstəricidə ümummilli lider Heydər Əliyevin dövlətçiliyimiz, müstəqilliyimiz, ədalətli cəmiyyət quruculuğu, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda mübarizəsi, siyasi cəhdləri, milli birliyə, vətəndaş həmrəyliyinə dair çıxışları, xarici səfərləri, imzaladığı qərar və sərəncamları, fərmanları və bu məsələlərə, problemlərə həsr olunmuş kitablar, qəzet və jurnal materialları haqqında biblioqrafik məlumat verilir. Bu cəhətdən göstəricini milli ideologiyaya dair sənəd kütləsinin aktuallığını qismən ödəyən biblioqrafik ehtiyat adlandıra bilərik.

Ancaq bu gün Azərbaycan informasiya elitasının qarşısında duran ən vacib problem, görülməsi əhəmiyyətli olan məsələ ənənəvi kitabxana biblioqrafiya üsullarının avtomatlaşdırılmış kompüter axtarış formasına keçirilməsidir. Belə ki, "kompüter əsri olan" XXI əsrdə heç bir informasiya ehtiyatları ilə müqayisə edilməsi mümkün olmayan kitabxana-informasiya prosseslərini müasir texnologiyalar əsasında yenidən qurmaq tələb olunur. Bu texnologiyalar əsasında kitabxana-informasiya ehtiyatlarının kəmiyyət və keyfiyyət parametrlərini, inkişaf dinamikasını, bütün fəaliyyət sahələrinə real təsir mexanizmini, bilik, informasiya bazaları kimi formalaşma metodologiyasını və minlərcə digər problemləri həll etmək mümkündür. Retrospektiv və cari informasiyaların inkişafı mənəvi varislik qanununa tabe olmadan, kitabxana-informasiya ehtiyatları informasiyalaşdırılmış cəmiyyətin bütün fəaliyyət sahələrinin aparıcı tərkib elementini təşkil etməlidir. Hazırda qabaqcıl dünya ölkələrində informasiya ehtiyatlarına əlaqədar ölkənin, regionun, təşkilatın strateji ehtiaytları kimi baxılır. Əhəmiyyətinə görə bu ehtiyatlar xammal, enerji, təbii və digər ehtiyatlardan daha vacib hesab edilir.

Müharibə şəraitində, iqtisadi keçid dövründə olan Azərbaycan dövləti üçün nə qədər çətin olsa da Avtomatlaşdırılmış Biblioqrafik Məlumat Bazası (ABMB) və Avtomatlaşdırılmış İnformasiya Axtarış Sistemi (AİAS) yaradılmalıdır. Çünki müasir mərhələdə informasiyalaşmış, kompüterləşmiş cəmiyyətə keçid dövrünü yaşayan Azərbaycanda ardıcıl, məqsədyönlü informasiya üçün lazım olan sənədlərin əldə edilməsi və dəqiq seçilməsi çətinləşmişdir. Milyonlarla sənəd kütləsi içərisində informasiya tələbatçılarının öz tələbatlarına uyğun olan informasiyaları operativ şəkildə öyrənilməsi ancaq biblioqrafik və elmi informasiya əsasında yaradılmış biblioqrafik vəsait, xüsusilə də kompüter və internet şəbəkəsində yaradılmış ABMB və AİAS vasitəsilə mümkündür. Bütün bunlar isə özünü cəmiyyət üzvlərinin informasiyalaşdırılmasında sənədlərin köməyi ilə təsir göstərən biblioqrafik informasiyada, sənədlərin məntiqi təhlili əsasında formalaşan elmi informasiyada və sözün əsl mənada "Azərbaycançılıq ideologiyası və onun informasiya təminatı sistemində" özünü biruzə verəcəkdir.



Təranə MİRZƏYEVA
AMEA MEK-in Elmi-biblioqrafiya şöbəsinin əməkdaşı

№ 1 (01), İyun 2008

AMEA MƏRKƏZİ ELMİ KİTABXANASININ ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ

(2000-2005-ci illər)

Hər bir əsr özünəməxsus inkişaf prosesi, elmi və mədəni əhəmiyyətə malik hadisələr ilə xarakterizə olunur. Dünya alimləri XX əsri "elmi-texniki tərəqqi əsri", XXI əsri isə "informasiya əsri" hesab edirlər. İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması informasiyanı yaymağı, informasiya resurslarını qoruyaraq onu əsrdən-əsrə ötürməklə informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxanalar qarşısında mühüm vəzifələr qoyur. Müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır.

Kitabxanalar bəşəriyyətin tarixi süzgəcindən keçən elmi sərvətləri toplayan, elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin tərəqqisi və yayılması üçün xüsusi şərait yaradan, insanlara təməннasız informasiya xidməti kimi böyük tarixi missiyanı həyata keçirən əsas elmi mərkəz, sosial institutdur.

Yeni əsrin ilk ilinin hesabatlarına nəzər saldıqda aydın olur ki, informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində AMEA-nın Mərkəzi Elmi Kitabxanası da yaxından iştirak etmiş, dünyanın inkişaf etmiş ölkələrinin kitabxanaları kimi müasir texnologiyaların geniş tətbiq edildiyi informasiyalaşdırma mərhələsinə qədəm qoymuş və bu sahədə uğurlu addımlarını atmışdır. MEK qətiyyətlə informasiyaya doğru irəliləyir. O, beynəlxalq təşkilatlar, xarici səfirliklərlə işgüzar əlaqələrini fəal əsaslarda quraraq, layihələr təqdim etmiş və qrantlarla mükafatlandırılmışdır. Bu baxımdan Soros Fondu, Açıq Cəmiyyət İnstitutunun 29 may 2000-ci il tarixli qrant sənədlərinə əsasən "Kitabxana və assosiasiyalar dəyişən dünyada: yeni texnologiyalar, yeni əməkdaşlıq formaları" devizi ilə keçirilən "Krım-2000" Beynəlxalq Konfransından böyük təcrübə və yeni biliklərlə qayıdan əməkdaşlar "EA kitabxanalarının avtomatlaşdırılması şəbəkəsi", "Respublikada ilk sənədlərin mühafizə və konservasiya mərkəzlərinin Akademiyada təşkili" layihələri ilə çıxış etmişlər. Daha sonra müəyyən layihələr üzrə işlər həyata keçirilmiş, qrantlar əldə edilmiş və bu qrantlar hesabına kompüter avadanlığı ilə təmin edilmiş və bu avadanlıqlarla təchiz olunmuş İnternet zalı açılmışdır. Digər bir qrant qazanmış layihə isə elmi-tədqiqatların zəruri informasiya təminatını, ədəbiyyat mübadiləsinin səmərəli təşkilini, müştərək elektron informasiya ehtiyatlarının yaradılmasını,

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, Azərbaycan elminin nailiyyətlərinin təbliğini nəzərdə tutan "Qafqazın yaddaşı. Sülh və əməkdaşlıq məramı ilə" (Gürcüstan Elmlər Akademiyasının kitabxanası ilə birgə tədbir) olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında fərmanı və ondan irəli gələn vəzifələr, latın qrafikalı kitabların nəşrinə olan böyük ehtiyacı nəzərə alaraq MEK (kitabxananın direktoru, f.e.n. Ə.Əfəndiyevin rəhbərliyi ilə) və ABŞ səfirliyinin nəzdindəki Tədris və İnformasiya Mərkəzinin əməkdaşları birlikdə "Azərbaycan ədəbiyyatı antologiyası" elektron kitabxanasını yaratmışlar.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun "Kitabxana işinin avtomatlaşdırılması və kitabxana fondlarının tədricən müasir informasiya daşıyıcılarına köçürülməsi, elektron mübadilə sistemlərindən (İnternetdən və s.) istifadə və milli fondların həmin sistemdə əks olunması, "milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönəldilən informasiya sisteminin yaradılması" (1 Fəsil. Maddə 3) haqqında bəndlərini əldə rəhbər tutaraq 2002-ci ildə AMEA Mərkəzi Elmi Kitabxanasında kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsi yaradılmışdır. Şöbə işini Rusiya istehsalı olan "İRBİS-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi vasitəsilə reallaşdırır. Yaradılan sayt vasitəsi ilə şöbə İnternetlə oxuculara elektron elmi kommunikasiyalar və informasiya xidmətini təşkil edir.

Kitabxananın həmin ildə ikinci ən böyük uğuru "Kitabxana içində kitabxana" - "Azərbaycan dövlətçiliyi və Heydər Əliyev kitabxanası"nın yaradılması olmuşdur. Bu kitabxananın fonduna minlərlə ədəbiyyat toplanmış, elektron kataloqu yaradılmış, fonddakı materiallar əsasında Azərbaycan dövlətçiliyi ilə bağlı mövzu-biblioqrafik göstəricisini tərtib etmək məqsədilə elmi-tədqiqat işləri aparılmışdır.

Kitabxanada struktur dəyişikliyi nəticəsində elmi-tədqiqatlar aparan şöbələr yaradılmış, kitabxana işi sahəsində aktual nəzəri və praktiki məsələlər üzrə tədqiqatlar; oxuculara biblioqrafik-informasiya xidmətinin elmi təşkili; kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması; kitabxana işinin səmərəliliyinin artırılması kimi elmi-tədqiqat işlərini əks etdirən "MEK-in elmi-tədqiqat işlərinin planı" yeni baxımdan işlənmiş, ona əsasən 4 problem, 6 mövzu, 7 iş nəzərdə tutulmuşdur. "Elmi-tədqiqat işləri" probleminə daxil olan və MEK-in son illərdəki elmi fəaliyyətinin nəticələrini əks etdirən "Kitabxana işlərinin elmi nəzəri məsələləri" mövzusu üzrə iş aparılmış, "Kitabxanaşünaslıq məsələləri. Elmi əsərlər" toplusunda nəşr edilmişdir.

2003-cü ildə Mərkəzi Elmi Kitabxanada aparılan elmi-tədqiqat işlərinin əsas istiqamətlərindən biri kitabxana-informasiya proseslərinin işlənməsi və tətbiqi ilə bağlı

tədqiqatların təşkili, biblioqrafik fəaliyyətin tərəqqi üsullarının mənimsənilməsi, avtomatlaşdırılmanın konkret məsələlərinin işlənməsi və yeni texnologiyaların tətbiqi həyata keçirilmişdir. Bununla bağlı "AMEA MEK-də kitabxana-biblioqrafiya proseslərinin əsas istiqamətlərinin təxmini planı" hazırlanmışdır.

Həmin il Elmi Şuranın planına əsasən analitik-informasiya təminatında müasir texnologiyaların istifadəsi, kataloq və kartotekaların kompüterləşdirilməsi, kitabxana-informasiya xidmətində yeni texnologiyaların tətbiqi, yeni şəraitdə fondların elmi komplektləşdirilməsi problemləri, ədəbiyyatın elmi sistemləşdirilməsinin müasir problemlərinin yeni istiqamətləri ilə bağlı araşdırmalar aparılmış və nəticələri müzakirədən keçirilmişdir.

AMEA MEK oxuculara xidmətin yeni üsul və vasitələrinin tətbiqi istiqamətində bir sıra uğurlu nəticələr əldə etmişdir. Eyni zamanda, inkişaf etmiş ölkələrin böyük kitabxanaları ilə əlaqələr artmış və 2004-cü ildən kitabxanada elektron nəşrlərin istifadəsinə başlanılmışdır. Kitabxanada bir sıra elektron məlumat bazalarının yaradılmasına baxmayaraq, dünya elm sferasına inteqrasiya etmədən, digər kitabxanalarla informasiya mübadiləsi aparmadan oxucuların tələbatlarını tam təmin etmək çətindir. Buna əsaslanaraq kitabxana inkişaf etmək məqsədilə məhz 2004-cü ildə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun üzvünə çevrilmişdir. Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu dünya mədəniyyətinin inkişafında əsas rol oynayan ELFL.net Beynəlxalq Kitabxana Konsorsiumunun tamhüquqlu üzvüdür. Bu vasitə ilə Mərkəzi Elmi Kitabxana EBSCO məlumat bazasına çıxış əldə etmişdir.

MEK-in avtomatlaşdırma şöbəsinin əməkdaşları 2004-cü ildə Şərqdə ilk dəfə olaraq İnternet saytlarının biblioqrafik göstəricisi olan "Vebloqrafiya " ("Dünya kitabxanalarının saytları") adlı yeni kitabın I cildinin 1-ci buraxılışını çap etmişlər. Bu buraxılışda müxtəlif ölkələrin ən iri kitabxanalarının saytları əks olunmuşdur.

Həmin ildə "Kitabxana işi sahəsində aktual nəzəri və təcrübi məsələlərə aid elmi-tədqiqatların təşkili" istiqamətində aparılan işlərdən danışarkən MEK-in "Elmi əsərləri"nin hazırlanması (məqalələr toplusu), "AMEA-nın Mərkəzi Elmi Kitabxanasının bələdçisi"nin adını çəkmək olar. Bələdçiyə kitabxananın tarixi, strukturu, fondları, fəaliyyəti, məlumat-biblioqrafiya və avtomatlaşdırılmış informasiya xidməti, şöbələrin əsas funksiyaları, kataloq və kartotekaları, Akademiya şəbəkəsi kitabxanaları haqqında qısa məlumat daxil edilmişdir.

Mərkəzi Elmi Kitabxana 2005-ci ildə öz fəaliyyətini kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya sahəsində apardığı elmi-tədqiqat işlərinin genişləndirilməsi və inkişaf istiqamətlərinə yönəltmişdir. Həmin il elmi-tədqiqat işlərinin planına əsasən MEK universal sənəd-informasiya fondlarının AMEA ETM-nın elmi-tədqiqatlarının istiqamətlərinə uyğun milli və xarici elmi çap və elektron nəşrlərlə komplektləşdirilməsi, elmi kataloqlaşdırılması, mühafizəsi, istifadəsinin təşkili, təbliği, tədqiqi, elmi fondların bərpası və konservasiyası, elmin analitik-informasiya təminatı, kitabxana-informasiya işinin tədqiqi, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması istiqamətində fəaliyyətini davam etdirmişdir.

Kitabxananın 2005-ci ildə həyata keçirdiyi böyük tədqiqat işlərindən biri də " "Azərbaycanda neft" elektron biblioqrafik göstəricisinin formalaşdırılması" işi olmuşdur. 2005-ci ildə Azərbaycanda neft sənayesinin tarixini, müasir vəziyyətini və perspektivlərini əhatə edən müxtəlif dillərdə məlumat elektron bazalar formalaşdırılmışdır. Bu işi əsas tutaraq əlavə edilir ki, AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşları Azərbaycan kitabxanalarında toplanmış neft ədəbiyyatının ilk toplu kataloqunu yaratmışlar. Kitabxana əməkdaşları Dövlət Neft Şirkətinin texniki yardımı ilə 120 mindən artıq neft ədəbiyyatının elektron kataloqunun və elektron kitabxanasının yaradılması sahəsində işlər görmüşdür.

AMEA MEK-in və digər kitabxanaların və informasiya mərkəzlərinin, elmi-tədqiqat və təhsil müəssisələrinin fondlarında və müvafiq orqanların arxivlərində toplanmış, Azərbaycanda və başqa ölkələrdə nəşr olunmuş neft ədəbiyyatının elektron kataloqunu və elektron kitabxanasını yaratmaq, çoxsahəli neft ədəbiyyatını elektron informasiya daşıyıcılarına köçürmək və İnternet səhifəsində yerləşdirməklə respublika daxilində və onun hüdudlarından kənarda məqsədyönlü təbliğat aparmaq, oxucu kütlələrini neft ədəbiyyatı ilə yaxından və daha operativ şəkildə tanış etmək məqsədilə başlanmışdır.

MEK-in "Azərbaycanda neft (1920-1970)" adlı beş cildlik biblioqrafik göstərici nəşr etməsi elektronlaşdırma işinin xeyli irəliləməsinə səbəb olacaqdır. İlin nailiyyətlərindən biri də Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi münasibətilə "Mərkəzi Elmi Kitabxana" adlı bukletin çapdan çıxması olmuşdur.

Ümumiyyətlə, insan fəaliyyətinin bütün sahələrinin kompüterləşdiyi, bütün iş növlərinin elektron sistemə keçirildiyi bir dövrdə kitabxanalar da bu prosesdən kənarda qalmamış, öz informasiya balansını, istifadəçilərə xidmət səviyyəsini, elektron sferada əməkdaşlıq və mübadilə yollarını artırmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası 80 illik fəaliyyəti dövründə respublika elminin inkişafında, alim və ziyalıların tədqiqatlarının səmərəliliyinin artırılmasında yaxından iştirak etmişdir. İndiki prinsiplərdən irəli gələn məsələləri əldə əsas tutaraq Mərkəzi Elmi Kitabxana öz fəaliyyətində bir sıra dəyişikliklər, yeniliklər etmiş, kitabxana proseslərinin avtomatlaşdırılması istiqamətində əsaslı addımlar atmışdır.



Cəmalə TALIBOVA
Bakı Dövlət Universitetinin
Kitabxanaçılıq-informasiya
fakültəsinin magistri

Elmə həsr olunmuş ömür salnaməsi



İsmət SƏFƏROV
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Bu günlərdə AMEA-nın H.Ə.Əliyev adına Coğrafiya İnstitutu özünün korifeyləri olan akademik Həsən Əlirza oğlu Əliyevin 100 illiyi və Budaq Əbdüləli oğlu Budaqovun 80 illiyinə həsr olunmuş biblioqrafik göstəriciləri geniş oxucu kütləsinə çatdırıb.

"Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından çap olunan ən son kitab görkəmli alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Coğrafiya İnstitutunun direktoru, Respublika Ağsaqqallar Şurasının sədri Budaq Budaqovun həyat və yaradıcılığını əks etdirir. 1015 adda kitabın, elmi-publisistik məqalənin, dövri mətbuatda dərc olunan yazıların, 20 xəritənin, Cografiya İnstitutunun fondunda saxlanılan 49 elmi istehsalat hesabatın biblioqrafik göstəricisi bu məhsuldar alimin böyuklyünü sübut edir.

Budaq müəllimin həyat salnaməsini vərəqləmək üçün kitabın əvvəllində verilmiş "Həyatı, elmi-pedaqoji və ictimaii fəaliyyətinin əsas tarixləri"nə nəzər salmaq kifayətdir. Müxtəlif elmi-nəzəri konfranslarda, simpoziumlarda iştirakının sübutu kimi, tədbirlərin keçirildiyi yerlər də müxtəlif və rəngarəngdir: Bakı, Tbilisi, Moskva, Leninqrad, Təbriz, Almatı, Kiyev, İstanbul, Daşkənd və s.

1928-ci il fevralın 28-də Qərbi Azərbaycanın Zəngibasar bölgəsinin Çobankərə kəndində anadan olmuş Budaq Budaqovun elmi yaradıcılığı tələbəlik illərindən başlanmışdır. Onun elmi əsərləri Azərbaycanda, həmçinin xaricdə - Rusiyada, Hindistanda, Polşada, Türkiyədə və İranda çap olunmuşdur. Onun kitabları və publisistikası da rəngarəngdir. "Dağların həyatı", "Türk uluslarının yer yaddaşı", "Novruz yaşarlı ömür", "Vətən yanğısı" və digər əsərləri biblioqrafiyada öz əksini tapıb.

Bəli, belə xoşbəxt alimlərdən biri olan akademik Budaq Budaqov keçmiş SSRİ Coğrafiya Cəmiyyətinin T.A.Prijevalski adına qızıl medalına layiq görülmüş, Azərbaycan Respublikasının "Şöhrət" ordeni, Y.H.Məmmədəliyev, akademik Həsən Əliyev, şair Məmməd Araz, mesenat Hacı Zeynalabdin Tağıyev adına mükafatları ilə təltif edilmişdir.

Ağsaqqal alim öz taleyini Coğrafiya İnstitutunun əməkdaşlarının taleyinə qovuşdurmağı özü üçün şərəf sayır. O



deyir ki, mənə bir elm ocağına 56 il külüng çalmaq səadəti nəsib olub.

Biblioqrafiyanın tərtibçiləri - Coğrafiya İnstitutunun elmi işçiləri ağsaqqal rəhbərlərinin 80 illik yubileyinə gözəl hədiyyə bəxş ediblər. Lakin təəssüflə göstərmək lazımdır ki, materialların təsvirində, tərtibində və qruplaşmasında heç bir biblioqrafik standartlara əməl edilməyib. Heç olmazsa, iynə ilə gor qazmaq kimi ağır, əziyyətli işə başlamazdan əvvəl AMEA Mərkəzi Elmi Kitabxanasının son illərdə buraxdığı biblioqrafik göstəricilərə nəzər salmaq lazım idi.

Yeni biblioqrafik vəsait



Bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyası, akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu və AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən Azərbaycan Elm və Mədəniyyət xadimləri seriyası ilə "Ozan" Nəşriyyatında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə ilk Müvəkkili (Ombudsman), kimya elmləri doktoru, professor, Nyu-York Elmlər Akademiyasının üzvü, SSRİ fəxri kimyaçısı, SSRİ ixtiraçısı, neft-kimya və üzvi-sintez sahəsində tanınmış alim və ictimai xadim, "Şöhrət" Ordenli və "Şərəf nişanı" Ordenli Elmira Teymur qızı Süleymanovanın biblioqrafiyası çap olunmuşdur.

Mürəkkəb quruluşa malik olan bu vəsait E.T.Süleymanovanın 1961-ci ildən 2007-ci ilə qədər elmi, elmi-təşkilati və ictimai fəaliyyətini əhatə edir.

435 səhifə həcmində olan kitabın tərtibçisi kimya elmləri doktoru H.M.Əlimərdanov və elmi işçi V.X.Quliyevadır. Kitabın redaktorları akademik M.İ.Rüstəmov, kimya elmləri namizədi G.Q.Abbasova və fəlsəfə elmləri namizədi A.İ.Əliyeva-Kəngərlidir. Nəşrin ixtisas redaktoru İ.H.Səfərovdur.

Vəsaitin ilk bölməsi "Həyatı, elmi, elmi-təşkilati və ictimai fəaliyyətinin əsas tarixləri" adlanır. Burada 1944-cü ildən 2007-ci ilədək olan materiallar öz əksini tapmışdır.

Biblioqrafiyanın növbəti bölməsinin müəllifi akademik M.İ.Rüstəmovdur və bölmə "Elmi, elmi-təşkilati və ictimai fəaliyyəti haqqında qısa oçerk" adlanır. Bu bölmə "Elmin çətin yolları ilə yüksəliş", "Qadın hərəkatında və ictimai fəaliyyətdə liderlər sırasında" və "Azərbaycanın İlk Ombudsmanı" adlı başlıqlardan ibarətdir.

Kitabda diqqəti cəlb edən başlıqlardan biri də "Əsərlərin biblioqrafiyası"dır. Burada 1961-ci ildən 2006-cı ilə kimi olan 167 adda əsərlər öz əksini tapmışdır. "Elmira Süleymanovanın dövri mətbuatda və kitablarda çap olunmuş elmi-publisistik məqalələri" bölməsi də maraq doğurur. Burada 1970-2007-ci illəri əhatə edən 103 material öz əksini tapmışdır.

Elmira Süleymanova haqqında kitablarda dərc olunmuş materiallar 1986-2007-ci illəri əhatə edir və bunların sayı da 66-dır. "Elmira Süleymanovanın redaktoru olduğu və tərtib etdiyi nəşrlər" bölməsində 19 çap məhsulu göstərilir.

Diqqəti cəlb edən maraqlı başlıqlardan biri də "Professor Elmira Süleymanova haqqında təbrik və rəylər" başlığıdır. Burada "Mükafatlar, fəxri adlar", "Dövlət rəsmilərinin təbrikləri və rəyləri", "Alimlərin təbrikləri və rəyləri", "Ombudsmanların və Beynəlxalq ekspertlərin təbrikləri və rəyləri", "İctimaiyyət nümayəndələrinin təbrikləri və rəyləri", "Vətəndaşların təşəkkür və təbrik məktubları" adlı yarım bölmələri vardır.

Bu vəsaitdə qeyd olunanlardan başqa o, Azərbaycanda və dünyanın digər ölkələrində keçirilmiş onlarca konfransların, ali məclislərin, elmi simpoziumların, seminarların, görüşlərin, sərgilərin fəal iştirakçısı olmuş, məruzələrlə çıxış etmiş, fikirlər söyləmiş, təkliflər vermiş, bir sözlə fəal və kamil mövqe nümayiş etdirmişdir. Hal-hazırda neçə-neçə elmi cəmiyyətlərin, təşkilatların, ictimai qurumların üzvü və iştirakçısıdır.

E.Süleymanovanın fəaliyyətini özündə əks etdirən bu biblioqrafik vəsaitin üstün cəhətləri çoxdur. Belə ki, xarici mütəxəssislərin vəsaitdən istifadəsini asanlaşdırmaq məqsədilə "Tərtibçidən", "Həyatı, elmi, elmi-təşkilati və ictimai fəaliyyətinin əsas tarixləri", "Elmi, elmi-təşkilati və ictimai fəaliyyəti haqqında qısa oçerk", "Əsərlərinin əlifba göstəricisi" və "Həmmüəlliflərin əlifba göstərici" bölmələrinin Azərbaycan dilindən əlavə rus və ingilis dillərində verilməsi təqdirəlayiqdir.

Sözsüz ki, şəxsi biblioqrafik göstəricilər sisteminə daxil olan bu biblioqrafik vəsait nöqsanlardan da yan keçməyib. Belə ki, materialların təsviri standartlara uyğun deyil. Bunlardan əlavə bəzi bölmələrin: "Əsərlərin biblioqrafiyası", "Elmira Süleymanovanın dövri mətbuatda və kitablarda çap olunmuş elmi-publisistik məqalələri", Dövri mətbuatda Elmira Süleymanova haqqında çap olunmuş materiallar" başlıqlarındakı materiallar dillər üzrə verilsəydi bu vəsait daha mükəmməl olardı.

Bütün bunlara baxmayaraq vəsait Azərbaycan biblioqrafiya elminə yeni bir töhfədir.

B.A.ƏLƏSGƏROV,
Beynəlxalq Nobel İnformasiya Mərkəzinin Həqiqi üzvü, BNİM-in Qafqaz və Orta Asiya Ölkələri üzrə səlahiyyətli nümayəndəsi

Yarım əsr elmin və elin xidmətində



Azərbaycanın dilbər guşələrindən biri olan süfrələrimizin bəzəyi, min bir dərdin dərmanı narın vətəni sayılan gözəl Göyçayda dünyaya göz açıb, boya-başa çatan və orta məktəbi uğurla başa vurub ali təhsil almaq üçün Bakıya ayaq basanda Rozanın yeganə arzusu universitetə daxil olmaq idi. O zaman respublikamızda yeganə universitet - S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti fəaliyyət göstərirdi. Burada təhsil almaq hər bir gəncin arzusu idi.

1953-cü ildə Roza Eyvazova arzusuna çatdı. O, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaşünaslıq şöbəsinə daxil oldu.

Tələbəlik həyatı da bir göz qırpımında gəlib keçdi. Aldığı təhsili respublikanın aparıcı kitabxanalarında - M.F.Axundov adına Respublika Kitabxanasında və Azərbaycan Elmlər Akademiyasının Əsaslı Kitabxanasında (indiki Mərkəzi Elmi Kitabxanada) keçdiyi təcrübələrdə daha da möhkəmləndirdi. Nəhayət 1958-ci ildə ali təhsilini başa vuraraq, təyinatla Akademiyanın kitabxanasında işə göndərildi. İlk əmək fəaliyyətinə Mərkəzi Elmi Kitabxananın Kitabsaxlama fondunda kiçik kitabxanaçı vəzifəsində başladı. Beləliklə, yarım əsrlik yolun başlanğıcı qoyuldu.

Bəli, Roza Eyvazova düz 50 ildir Mərkəzi Elmi Kitabxanada fəaliyyət göstərir. Onun əmək kitabçasında tək bircə təşkilatın əmri və möhürü vardır: Mərkəzi Elmi Kitabxana. 75 illik ömrün 50 ilini bir təşkilatda bir kollektiv arasında keçirtmək və bu gün də yorulmaq bilmədən çoxminlik oxucular ordusuna xidmət göstərmək, müstəqil Azərbaycan Respublikasında elmin inkişafında az da olsa öz töhfəsini vermək onun həyat amalıdır.

Adamların istək və arzularına həssaslıqla, qayğı ilə yanaşdığına görə kollektiv üzvlərinin dərin hörmətini qazanmışdır.

Roza Eyvazovanın işgüzarlığı, coşqun fəaliyyəti, istər kitabxana rəhbərliyi, istərsə də hökümət tərəfindən yüksək qiymətləndirilmişdir.

1990-cı ilin dekabrında Mərkəzi Elmi Kitabxanın bir qrup əməkdaşı, o cümlədən Roza Yunis qızı Eyvazova Respublika Prezidentinin fərmanı ilə informasiya-kitabxana xidməti sahəsində çoxillik fəal işinə görə Azərbaycan SSRİ xalq təsərrüfatının inkişafında qazanılmış nailiyyətlərə görə bürünc medalla V.İ.Leninin anadan olmasının yüz iliyi ilə əlaqədar "Rəşadətli işinə görə" və "Əmək veteranı" medalları ilə təltif olunmuşdur.

Roza Eyvazovanın şəxsi həyatı da bir tarixdir. O, nəvazişkar, mehriban anadır. Üç uşaq (iki oğul və bir qız) böyüdüb, boya-başa çatdırmış, onların hər birinə ali təhsil vermiş, ailə sahibi etmişdir. İndi oğlu Elşad Eyvazov prokurorluq sistemində müstəntiq vəzifəsində çalışır.

Deyirlər ki, ailə də kiçik bir dövlətdir. Ailəni idarə etmək, gündəlik baş verən problemləri yoluna qoymaq ailə başçısından, eləcə də anadan, həyat yoldaşından idarəçilik məharəti tələb edir. "Aslanın erkəyi, dişisi olmaz" deyiblər. Roza xanım həyat yoldaşı Aslan müəllim üçün aslan ürəkli bir dayaq olub. Aslan Eyvazov müharibədən II dərəcəli əlil kimi qayıdıb. Öz iradəsi, səyi bahasına təhsilini davam etdirmiş və elmlər doktoru, professor zirvəsinə yüksəlmişdir.Bu sahədə sədaqətli, mehriban, qayğıkeş bir azərbaycanlı qadının səyi və bacarığı çox mühüm amilə çevrilmişdir.

Roza xanımın əmək fəaliyyəti və həyatı ilə yaxından tanış olduqda ulu öndərimiz Heydər Əliyevin Azərbaycan qadını haqqında dediyi bu dəyərli fikri xatırlayırıq: “Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti ilə, gözəlliyi ilə Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır."

İsmət SƏFƏROV,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Kitabsevərlər tənhalıq bilməz

Qarşımda ahıl yaşlarında, lakin sağlam, gümrah, yüqarlı bir adam əyləşmişdir. Gəncliyi çətinliklər içərisində keçsə də, bu yaşında nikbinliyini itirməyən, şən qocaya həsəd aparmaya bilmirsən. Çoxlarının yaxşı tanıdığı bu adamın ömür yoluna nəzər salsaq, yəqin bizi qınamazsınız. Sadə bir çəkməçini öz yazıma qəhrəman seçmişəm. Beləliklə, müsahibim Əməkdar Mədəniyyət işçisi, Kitabsevərlər Cəmiyyətinin üzvü, çəkməçi Əli Əhmədovdur.

- Əli dayı, Siz kitab oxumaq həvəskarısınız. Eşitdiyimizə görə çox mütaliə edirsiniz. Hətta nadir kitablarla zəngin olan şəxsi kitabxananız da vardır. Kitaba belə maraq, sevgi sizdə haradan yaranıbdır?

- Eşitdikləriniz doğrudur, mənim kitab oxumaga çox böyük həvəsim var. Bunun bir tarixçəsi vardır. 1933-cü ildə Şəkidə anadan olmuşam. Mənim atam 1937-ci illərdə repressiyanın qurbanı olubdur. Orta təhsil almağa imkanım olmayıb. O dövrdə məktəblər, əsasən, Şəkidə, şəhərin mərkəzində yerləşirdi. Bizim yaşadığımız yer isə şəhərdən bir az kənar idi. Ona görə də məktəbə getməyə həm həvəsim, həm də imkanım olmadı. 1946-ci ildə Nizami Gəncəvinin anadan olmasının 805 illiyi keçirilirdi. Həmin illərdə onun dörd kitabının yeni nəşri çapdan çıxmışdı. 1947-ci ildə isə S.Vurğunun tərcüməsilə "Leyli və Məcnun" poeması çap olundu. O vaxtlar Şəkinin tanınmış ziyalılarından olan dayım mənə Nizaminin "Xəmsə"sini verib dedi ki, al bunları mütaliə et. Mən də o gündən başladım mütaliə etməyə.

- Bəs çəkməçilik sənətinə necə yiyələndiiniz?



Əməkdar Mədəniyyət işçisi, Kitabsevərlər Cəmiyyətinin üzvü, çəkməçi **Əli ƏHMƏDOV**

- O da dayımın təşəbbüsü ilə oldu. Mənə dedi ki, ya kamil elm almalısan, ya da kamil sənətkar olmalısan. Dahi Nizami demişkən: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan". O vaxt Şəki şəhəri Nuxa adlanırdı. Məni aparıb Nuxa sənət artelinə qoydular. İl yarım şagird oldum, öyrəndim bu sənəti.

1952-ci ildə isə Bakıya köçdüm, iki il çəkməçi işləyəndən sonra məni əsgər apardılar. Ondan sonra Sibirdə, Almatı şəhərində oldum. Orada işləyə-işləyə xeyli təcrübə topladım. 1960-cı ildə Bakıya qayıtdıqdan sonra Filarmoniyada çəkməçi işləməyə başladım. Gördüyünüz çarıqlara, başmaqlara kim gedib baxmışdısa, işləməyə boyun olmamışdı. Məni də bu ayaqqabı növü ilə tanış etdilər. Mən işləməyə razı oldum.

Gördüyünüz üç növ ayaqqabılardan hal-hazırda ən çox rəqqaslar istifadə edirlər. O dövrdə başmaqçı çarıq tikmirdi, çarıqçı da başmaq. Şəkidə bunların hərəsinin öz nəsli olurdu. Bir də var idi, pinəçi peşəsi. O isə küçədə oturub ayaqqabı tikirdi. Lakin çəkməçilik onların içərisində nisbətən daha yüksək səviyyəli peşə sayılırdı. "Çəkmə" sözü özü "çəkib geyən" sözündən yaranıbdır. Başqa dillərdə, məsələn, Qazaxıstanın Ensiklopediyasında bu söz "içki", yəni "içinə girmə" kimi adlanır. İndi adət halını alıb, bütün ayaqqabı tikənlərə çəkməçi deyirlər. Elə bil dəbə düşüb, necə ki, hamıya "müəllim" deyə müraciət edirlər.

- Şəxsi kitabxananızı necə yaratdınız?

Mütaliə insanı savadlandırır, dünyagörüşünü artırır. Amma lovğalıq kimi çıxmasın. Deyərdim ki, mənim

həm də çox yaxşı yaddaşım var. Nəyi oxumuşamsa, oxuduqlarımın çoxu yaddaşımda həkk olunubdur. Bilmirəm diqqətlə oxuduguma görədir bu, ya da ki, Allahın mənə verdiyi hafizədir ki, oxuduqlarım yadımda belə əzbər qalır.

O ki, qaldı kitabxanamın (5 min kitab) yaranmasına. Bu da Nizamidən gəldi. Nizamini oxuduqca, mənimsədikcə ona heyran qalmamaq mümkün deyil. Ensiklopediya başda olmaqla bütün Azərbaycanda çıxan elə bir kitab yoxdur ki, məndə olmasın, bəzən texniki kitabları da alırdım. Siz yaxşı bilirsiniz sovet vaxtında bəzi kitabları üstündə əlavə kitablarla satırdılar. Məsələn, mənim heç yadımdan çıxmaz. "Azərbaycan dastanları"nı - 7 cilddə almaq istədiyim kitabı üstündə bir əlavə (alınmayan) kitabla satmışdılar. Amma oxumağa, mütaliəyə olan marağa görə alırdıq.



- Siz həm də vətənpərvər insansınız. Klassiklərimizn əsərlərini daha çox sevirsiniz. Ən çox hansı klassiklərin yaradıcılığı sizi maraqlandırır?

- Mən klassiklərin çoxunun əsərlərini mütaliə etmişəm. Ən çox isə Nizami yaradıcılığının vurğunuyam. Bu dahi sənətkar əsərlərini yaradarkən o dövrün ən məşhur kitablarını oxumuş, müxtəlif mənbələrə müraciət etmiş və bizə gəlib çatmış nadir incilərini yaratmışdı. Biz bunu onların əsərlərini oxuduqca bir daha şahidi oluruq. Dahi şair Nizami yazır:

Məlum hekayədir bu "Xosrov və Şirin",
Dastan yoxdur ancaq bu qədər şirin.
Ruhu oxşasa bu gözəl dastan ,
Pərdədə qalmışdı bu gəlin çoxdan.
Tanıyan yox idi bu gözəl alması,
Bərdədə var idi bir əlyazması.
Bu ölkənin qədim tarixlərindən,
Öyrənmişəm bu ölkənin tarixini mən.
Bu yerdə yaşayan qoca adamlar,
Təklif verdi işə, mən verdim qərar.

Mən, ümumiyyətlə, müxtəlif xalqların da ədəbiyyatına müraciət etmişəm, onları oxumuşam, xoşuma gələn gözəl kəlamlarını əzbərləmişəm, deyərdim ömürlük hafizəmə həkk etmişəm. Məsələn, fars şairi Əbdürrəhman Cami (Abbasəli Salamzadənin tərcüməsində) isə kitaba belə qiymət verir:

Ağıllı adamlar yaxşı deyiblər,
Bilik kitabdadır axtarsan əgər.
Kitabı sevənlər tənhalıq bilməz,
Elmə arxalanan sınar, əyilməz.
Kitab işıq saçar bir günəş kimi,
Kitabdır arifin könül həmdəmi.

- Əli dayı, nədənsə, ötən əsrin sonlarından kitaba həvəs azalıb. Bunu nə ilə izah edərdiniz?

- Çox təəssüf ki, müasir dövrümüzdə kitaba meyıl azdır. Deyirlər ki, informasiya çoxdur, internet var və s. Lakin siz özünüz də fikir verin. Niyə filmlər çox vaxt yadda qalmır. Heç filmdən sitat da gətirən olmur, elə bil kölgədir. Özü haradan gəlibsə, oradan da çıxıb gedir. Amma kitab oxuyan adamın oxuduğu kitabdan bir cümlə də olsa yaddaşında qalır.

Yaşından asılı olmayaraq hamıya kitab oxumaq zəruridir. Kitab oxumaq insanın nitqinin inkişafına çox müsbət təsir göstərir. Mən elə bir adam tanımıram ki, kitab oxumasın, amma sərbəst danışsın. Mən televiziyaya baxanda orada çıxış edən insanların bəzilərinə irad tuturam. Bir dəfə televiziyada bir alim danışırdı və tez-tez də "buna gora" ifadəsini işlədirdi. Gor axı ayrı şeydir. Düzdür, ləhcə lazımdır. O da Azərbaycan dilinin bir gözəlliyidir. Amma "görə" əvəzinə "gora" işlətmək, o dəqiqə hiss olunur ki, bu adamın mütaliəsi yoxdur. Amma kitablarda dilçilik qaydalarına riayət olunur.

- Müasir ədəbi əsərlərlə sovet dövrünün əsərləri arasında hansı fərqləri görürsünüz?

- Onu sizə deyim ki, mən müasir Azərbaycan şairlərinin əsərlərini əvvəllər nə oxuyurdum, nə də maraqlanırdım. Buna görə özümü günarkar hesab edirəm. Mən elə bilirdim axtardığım hər şey Nizamidə var. Bir dəfə B.Vahabzadə ilə söhbətimdə mənə müasir şairlərin də əsərlərini mütaliə etməyimi məsləhət bildi. Dedi ki, müasir şairlərin əsərlərində bizim yaşadığımız dövr həkk olunub.

Sonralar mən müasir ədəbi əsərlərlə də tanış oldum. Hərəsindən müəyyən qədər mütaliə etmişəm. Umumiyyətlə, klassiksiz müasirlik olmaz, müasirlikdə də klassik olmaz.

Ədəbi dövrlər arasında fərqi, əsasən, onda görürəm ki, sovet ədəbiyyatında ideologiya vardır. Məsələn, tərif çox idi. Siz, bu gün, keçmiş Sovetə edilən tərənnümü müasir Azərbaycanın müstəqillliyinin tərənnümündə eşidirsinizmi? İndi siz təsəvvür edin ki, o dövrdə soveti tərifləməmək necə olardı? Bəzi hallarda tərifləməyə məcbur olan məşhur S.Vurğun o dövrdə yazırdı:

Öz canım, ciyərim, öz hünərimlə,
Qurduğum vətənin sovetdir adı.
Stalin adlanır onun ustadı,
Stalin adlanır qəlbim vicdanı,
Stalin yolunda halaldır qanım.

Bu tərənnümlərdə əsas cəhət o idi ki, orada güclü ədəbiyyat, yanğı hiss olunurdu. Əgər müasir dövrdə də bu tərənnüm güclü olsa, onda gənclərimiz də bilərlər ki, hansı dövrdə yaşayırlar.

Son illərdə Şəki, Qazax, Gəncə ziyalılarının kitabları çapdan çıxıbdır. Yaxşıdır, qoy olsun. Lakin mən hesab edirəm ki, müasir ədəbiyyatda Azərbaycançılıq ideologiyası yoxdur. Necə olur ki, bu boyda Bakıda bir dənə atın üstündə qəhrəman heykəli yoxdur. Şəkinin girəcəyində bir qadın heykəli var idi. Onu uçurdular. Heç olmazsa yerinə atın üstündə Çələbi xanın heykəli ucalsaydı pis olmazdı. O, Şəkidə tarixi memarlıq abidəsi olan Xan sarayını bizə yadigar qoyubdur.

Bir dəfə emalatxanama "mersedesli" bir müştəri gəlmiişdi. Dedi ki, "uşaqları yazıblar ki, onlara milli deyimdi-nədi onu göndər. Bilmirəm, nəyə lazımdı bunlar? Keçdi getdi o dövr." Dedim: müəllim, sən maşın sürürsən. Onun iki tərəfdə güzgüsü var. Güzgüyə baxıb, arxaya gedirsən, ya baxıb qabaga? Arxaya baxmadan qabaga getmək olmaz. Sənin elə maşınında bu fakt var." Müştəri udqundu. Durub məni öpüb qucaqladı.

B.Vahabzadə bu barədə yaxşı deyib:

Keçmişinə xor baxan,
Gələcəyə kor baxar.

İndi siz jurnal buraxmaq istəyirsiniz. O şey ki, kitabla baglıdır, onun xalqa ziyanı olmaz.



Nizami Gəncəvi olmasaydı ədəbiyyatımız yetim qalardı.

Ona görə ki, kitab verəndir, alan deyildir. Hansı adamın kitab oxumaqdan adı pis çıxıb? Kitab bilik mənbəyidir, onu oxumaq lazımdır. Mənə elə gəlir ki, kitabsız yaşamaq olmaz.

- Siz indiki gənclərə hansı tövsiyə, məsləhətlər verərdiniz?

- Mənim sənətim ayaqqabı tikməkdən ibarətdir, sadəcə çəkməçiyəm. Gör, bu sənət mənə nə qədər şöhrət gətirib. Bu gün mənim Respublikanın Əməkdar Mədəniyyət işçisi kimi fəxri adım var. 52 qəzetdə mənim haqqımda yazılar gedib. "Pravda" qəzetinin birinci səhifəsində, "Bakinski raboçi", "Sovetskaya kultura" və s. qəzetlərdə haqqımda yazılar çap olunubdur. Bu yazılardan birində İqor Moiseyev "Səhnə geyimləri" barəsində olan məqaləsində səhnə geyimlərindən bəhs edir. Səhnə geyimləri ilə adi geyimlər arasındakı fərqdən, bunları tikən ustalardan söhbət açır, sənətkarların adını çəkir. Onların içərisində mən də varam. O, yazır: **"В Баку живет уникальный человек, уникальный мастер. Таких людей надо беречь".**

Filarmoniyadan ev almışam, dəfələrlə nazirlik tərəfindən mükafatlandırılmışam. Mənə təqdim edilən fərmanların içərisində biri mənim



üçün daha sevimlidir. Bu Beynəlxalq fərmandır. Eşitdiyimə görə Azərbaycanda iki adama verilib.

Mən respublika Kitabsevərlər Cəmiyyətinin üzvüyəm. Həmin cəmiyyət 1976-cı ildən fəaliyyət göstərir. Onu demək istəyirəm ki, insan gərək çalışqan olsun. Dahi şairimiz Nizami demişkən:

Çalış öz xalqının işinə yara,
Geysin əməlindən dünya zər-xara.

Bu sözlər elə-belə deyilməyib. Elə insanlar da var ki, böyük-böyük sənətkarlarımızı heç tanımırlar. Demirəm həmin adamların tarixini öyrənsinlər. Amma heç olmazsa həmin adamlar haqqında bir balaca da olsa, məlumatları olsun.

Bir yunan məsəli var. Orada deyilir ki, hər bir millətin inkişaf etməsi üçün onun ziyalıları beş xüsusiyyəti ilə fərqlənməli və bunlar sıx birləşməlidirlər:

1. Müəllimi - ziyalı;
2. Həkimi - savadlı;
3. Hüquqşünası - ədalətli;
4. Yazıçısı- vicdanlı;
5. Prezidenti- milli olmalıdır.

Bu cəhətlər hansı xalqda birləşsə, o xalqın adı da yaxşı çıxar, gələcəyi də uğurlu olar, özü də xoşbəxt olar.

Mənim gənclərimizə məsləhətim odur ki, çoxlu kitab oxusunlar, həyatda səbirli olsunlar. Bir də eşidirsən ki, cavanların bəziləri özünü intihar edib. Həyat onu sıxır. Adamın yaxşı günləri də olar, pis günləri də. Pis günlərdə nənələrimiz "səbirli ol!" deyə məsləhət görüblər. Lakin bir də görürsən bəzi cavanlar atalar sözlərinə lağ edir. Çünki onun məzmununu, dövrünü başa düşmürlər. Hansı dövrdə deyilməsindən asılı olmayaraq, atalar o sözləri bizlərə əmanət ediblər.

Nizami yazır:

Gecəni,
gündüzü çox vermə bada,
Yaxşı ad uğrunda
çalış dünyada.
Məndən söyləməkdir,
səndən eşitmək,
Bir insan əliboş
gəzməsin gərək.



Şamil HƏŞİMOV,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

TƏSADÜF və ya HƏQİQƏT



NAPOLEON-HİTLER

Napoleon 1760-cı ildə doğulub.

Hitler 1889-cu ildə doğulub.

(fərq 129 il)

Napoleon Vyanaya hücum edib 1812-ci ildə.

Hitler Vyanaya hücum edib 1941-cü ildə.

(fərq 129 il)

Napoleon müharibədə məğlub olub 1816-cı ildə.



Sizcə aşağıdakı tarixi faktlar bir təsadüfdür, yoxsa rəqəmlərin yaratdığı tarixi mistika...?

Hitler müharibədə məğlub olub 1945-ci ildə.

(fərq 129 il)

Hər ikisi hakimiyyətə 44 yaşında gəlib.

Hər ikisi Rusiyaya 52 yaşında hücum edib.

Hər ikisi müharibədə 56 yaşında məğlub olublar.

LİNKOLN-KENNEDİ



Linkoln anadan olub 1818-ci ildə.

Kennedi anadan olub 1918-ci ildə.

(fərq 100 il)

Linkoln prezident olub 1860-cı ildə.

Kennedi prezident olub 1960-cı ildə.

(fərq 100 il)

Hər ikisi beşinci gün, hər ikisi xanımlarının gözləri qarşısında, hər ikisi baş nahiyəsinə alınan güllədən sonra vəfat



ediblər.

Linkoln "Kennedi" adlandırılan teatrda, Kennedi isə "Linkoln" markalı avtomobildə qətlə yetirilib.

Ölümünə az qalmış Linkoln Merilend ştatında yerləşən Monro şəhərciyində işgüzar səfərdə olub.

Kennedi isə ölümünə az qalmış məşhur aktrisa Merilin Monro ilə roman yaşayıb.

Hər ikisi cənubludur, hər ikisi demokratlardır.

Hər ikisi prezident olmamışdan qabaq A.BŞ senatoru olub.



Hazırladı:
Samirə İSLAMZADƏ

№ 1 (01), İyun 2008



Təqvimin

İndiyə qədər hər bir kəsin istifadə etdiyi təqvim insanlığın ən vacib ixtiralarından biridir. Dünyada hər il külli miqdarda, müxtəlif ölçüdə, müxtəlif mövzuda təqvimlər buraxılır. Onlar böyük və kiçik ölçülü, parça, plastik, kağız əsaslı, ucuz və bahalı olurlar. Həftəlik və bir günlük təqvimlər hər menecerin stolüstü iş aləti, kiçik cib təqvimi isə hər kəsin yol yoldaşıdır. Biz müxtəlif təqvimlərə baxarkən heç düşünmürük ki, onlar necə yaranmışdır. Buradakı ayları, günləri kim yaratmış, tərtib etmişdir. Halbuki, təqvim yaranıb müasir dövrdəki hallara gəlib çatana qədər müəyyən təkamül yolu keçmişdir.

"Kalendar" sözünün yaranması qədim Roma dövrlərinə təsadüf edir. O vaxt hər ayın 1-ci gününü "kalenda" adlandırırdılar ki, o da borcların qurtarılması günü idi. Borclar haqqında bütün məlumatlar xüsusi kitabda - kalendariumda öz əksini tapırdı. O vaxtdan bu söz kiçik dəyişikliklərlə bütün dünya xalqlarının dilində işlənməyə başlandı.

Bu gun hamımızın istifadə etdiyimiz təqvimin tarixi çox qədimlərə - daş dövrünə gedib çıxır. Hələ daş dövrlərdə insanlar başa düşürdülər ki, onların həyatı bir çox faktorlardan, o cümlədən, təbiətin fəsil dəyişikliklərindən asılıdır. Bir gün o birisi ilə əvəzlənir, günəş hər gün üfüqə qalxır, lakin dünənki kimi yox, bir qədər fərqli surətdə. Ay Yer ətrafında ciddi qaydada fırlanaraq həcmcə gah böyüyür, gah kiçilir. İsti yay günləri yağışlı payız, payızı qış, qışı bahar əvəz edir. Sonra yenə yay, payız, qış, yaz …

Adamlar həmişə göydə nələr baş verməsilə maraqlanmışlar. Astronomik işarələr əsasında müxtəlif xalqlar özünün vaxt hesablamaları sistemini yaradırdı. İndiyə qədər şumerlərin gildən hazırlanmış təqvimləri mayya indularının daş, qədim misirlilərin papirus, qədim çinlilərin kağız və ipək üzərində həkk edilmiş təqvimləri hazırkı dövrə qədər gəlib çatmışdır. Bir sıra xalqların təqviminin əsasını Günəşin, Ayın hərəkəti, digərləri isə hər ikisinin hərəkəti təşkil edirdi. Beləcə, Günəş, Ay və Ay-Günəş təqvimləri yarandı. Lakin bunların heç biri tam dəqiq olmurdu. Ona görə də təqvimi daim təkmilləşdirirdilər.

İlk dəfə vaxtın hesablanması sistemi Yaxın Şərq ölkələrində yaranmışdır. Şumer münnəcimləri ilk olaraq hesablamışlar ki, iki yeni ayların arasındakı vaxt 29,5 gün olur. Bu, vaxtın yeni hesablanmasının təməlini qoydu. Yəni, Ayın Yer ətrafında dövr eləməsi üzrə hesablanan vaxt Ay təqvimi kimi qəbul edildi. Şumerlərin Ay təqvimində 12 ay olurdu. Bu zaman yeni il yazdan, səmada ilk Ayın görünməsindən hesablanırdı.

Vavilon astronomları ili 12 ay hesablayaraq hər ili növbə ilə 29, 30 günə ayırırdılar. Bu təqvim üzrə bir il 354 gün, yəni o, əsil oldugundan 11 gün az hesablanırdı. Bu zaman günlər ayın axırından hesablanırdı. Yalnız yeni eranın VI əsrindən qəbul edilən günləri ayın əvvəlindən hesablamağa başladılar.

Çin təqvimi də dünyanın ən qədim təqvimlərindən biridir. Bizim eradan VI əsr əvvəl Çində 19 illik Çjan təqvimini qəbul etmişdilər. Ay təqviminə görə onda 228 ay, Günəş təqvimi üzrə 235 ay hesab edilirdi. Lakin bu təqvim də dəqiq

deyildi. Ona görə bu təqvimlər 50 dəfədən artıq dəqiqləşdirilmişdir. Bizim eradan 3 əsr əvvəl bir ili 24 fəsilə bölürdülər. 24 fəsildən ibarət olan təqvim dövrümüzə qədər gəlib çatmışdır.

İndiyə qədər Çin təqvimində daha bir əlamət mövcuddur. Bu, illərin müəyyən bir heyvanın adı ilə bağlanmasıdır ki, avropalılar da bunu qəbul etmişlər. 20 əsr əvvəl 12 heyvanın adı ardıcıl olaraq müvafiq illərə aid edilir.

Bütün təqvimlərin bir - birinə bənzədiyinə baxmayaraq, hamı üçün vahid təqvim yox idi. Ona görə təqvimdə dəyişiklik yaratmaq lazım idi. Belə bir dəyişiklik yeni eradan 46 il əvvəl Qay



yaranma tarixindən

Yuli Sezar həyata keçirdi. Yeni Günəş təqvimini öz dövrünün ən böyük astronomu Sozigen yaratdı. Öz təqviminin əsasını Günəşin ulduzlar arasındakı yerdəyişməsindən götürdü ki, bu zaman hər il 365 gün, dörddə bir sutkadan ibarət olurdu. Sozigen hesabladı ki, 3 il ardıcıl olaraq 365 gün, dördüncü il isə 366 gün olur. İli 12 aya bölür və 1 sutkanü çıxırdı. Hər yeni il yanvarın 1- dən hesablanırdı. Sayılarkən tək aylar 31, cüt aylar isə 30 gün hesab edilirdi. Fevral ayı isə qısa ay hesab edilərək 29 gün olurdu. Yeni eradan əvvəl 45- ci ildən yeni Günəş təqvimi tətbiq edilməyə başlandı. Roma senatı bu münasibətlə Yuli Sezara təşəkkür etdi və onun şərəfinə ayların birini kvintilius yulies (iyul), təqvimi isə Yulian təqvimi adlandırdı. Bu təqvim indiyə qədər mövcud olan müasir təqvimin əs asını qoydu.

Yulian təqvimi romalıların zəbt etdikləri bütün yerlərdə tətbiq edilirdi.

Yeni eranın 325- ci ilində Nikes şəhərində keçirilmiş xristian kilsələrinin tədbirində Yulian təqvimi bütün xristian dünyası üçün qəbul edildi. Xristianlıq yayıldıqdan sonra vaxt dünyanın yaradılması dövründən hesablanmağa başlandı. Bibliyada göstərilirdi ki, dünya İisus Xristanın anadan olduğu gündən 5508 il əvvəl yaranmışdır. Roma monaxı Dionisiy İisus Xristosun anadan olduğu tarixi dəqiqləşdirərək göstərir ki, o Yulian təqviminin tətbiq edildiyi gündən 45 il sonra həyata gəlmişdir. XVI əsrdən başlayaraq İisus Xristosun həyata gəldiyi dövrdən əvvəlki vaxt yeni eradan əvvəl, sonrakı vaxt isə yeni era hesab edilir. Bu zaman yeni eradan əvvəlki illər çoxdan aza, yeni eradan sonrakılar isə azdan çoxa dövrü hesablanır. Rusiyada da bu təqvim I Pyotrun əmri ilə o dövrə qədər hesablanan 7209-cu il 1700- cü illə əvəz edildi, yeni il isə yanvarın 1-dən başlandı.

Lakin haqqında danışılan bütün təqvimlərdə bu və ya digər dərəcədə müəyyən nöqsanlar mövcud idi. Bu nöqsanları aradan qaldırmaq üçün Papa XII Qriqorii 1582- ci ildə ən görkəmli italyan astronomu və riyaziyyatçılarından ibarət komissiya yaradır. Astronomlar təyin edirlər ki, hər 400 ildən bir Yulian təqvimində 3 gün əlavə vaxt qalır. Onlar qərara alırlar ki, hər 4 əsrdən bir bu üç günü hesabdan silsinlər. Bu yeni təqvim Papa XII Qriqorinin şərəfinə Qriqorian təqvimi adlandırıldı. Hal-hazırda bütün xristian dünyası Qriqorian təqvimindən istifadə edir.

Müsəlman ölkələrinə gəldikdə, indiyə qədər orada vaxt Ay təqvimi ilə hesablanır. Müsəlman Ay təqvimində illər Günəş təqvimindən qısa our. Bu təqvimdə yaz, yay, payız, qış fəsilləri ayrılmır. İllər Məhəmməd Peyğəmbərin (s.ə.s.) Məkkədən Mədinəyə köçdüyü vaxtdan - yeni eranın 12 iyul, 622- ci ilindən başlanır. Avropa təqviminə çevirmək üçün müsəlmanlar xüsusi cədvəldən istifadə edirlər.



Beləliklə, hamının tanıdığı, istifadə etdiyi təqvim dəfələrlə təkmilləşdirilərək müasir səviyyəyə çatmışdır.

Ülviyyə QASIMOVA
Mədəniyyət və İncəsənət Universitetinin magistri

№ 1 (01), İyun 2008

Qeyri-adi yuxular və yuxu yozmu



Salam aleykum Azərmuslimçilər. Mənə maraqlıdır müsəlman şəxs dini yuxular gördükdə (peyğəmbərlər, salih adamlar (və ya digər) bunun başqasına danışmağı necədir? Allahu Təalanın bu barədə hökmü varmı və ya peyğəmbərdən hədis varmı? Yuxu insanların tam idrak etməkdən aciz qaldığı Allahın bir sirridir.

Rəsulullah (s.a.s.) buyurur: "Yuxu üç cürdür: "Saleh yuxu. Bu Allahdan bir müjdədir. Digər bir yuxu şeytan tərəfindən insanı məyus etmək üçün göstəriləndir. Digər bir yuxu isə insanın öz-özünə etdiyi təlqinlərdir." (Buxari, Müslim). Başqa bir hədisdə belə buyurur: "Yuxu üç cürdür. Bunlardan birisi şeytanın bu yolla Adəm oğlunu üzməsi üçün qorxutması və dəhşətə düşürtməsidir. Bir qismi isə adamın oyaq ikən etmək istədikləri ilə əlaqədardır ki, bunları yuxuda ikən görər. Digər qisim yuxu isə peyğəmbərliyin qırx altı bölümündən bir bölümdür" (İbni Macə).

Yuxunun yozulmağına gəldikdə, bu böyük bir məharət, təcrübə, bilgi, istedad tələb edən bir elmdir. İmam Malikə hər kəs yuxunu yoza bilirmi? - deyə soruşulmuş, o "Peyğəmbərliklə oynamaqmı istənilir. Yuxunu ancaq bu işi gözəl bilən kimsələr yoza bilər. Əgər bir xeyir görürsə onu bildirsin. Xoş olmayan bir şey görürsə, ya xeyir söyləsin, ya da sussun" - deyə cavab vermişdir. Yuxunun danışılmasına gəldikdə ümumiyyətlə, yuxu hər kəsə danışılmaz. Görülən yuxunun hansı növdən olmasından asılı olaraq, onu kimlərə anladıb kimlərə anlatmamağı müəyyən etmək olur. Açıq şeytani və qarışıq (əğdaş) yuxular. Qarışıq yuxular sadiq yuxulara bənzəməklə birlikdə onlarla əlaqəsi olmayan yuxulardır. Qarışıq olduğundan dolayı doğru yozulması mümkün olmayan şeytani yuxular növündəndir. Bu yuxular heç kəsə anladılmaz və tez unudulmağa çalışırlar. İnsan oyaq ikən şeytan ona pisliklərı gözəl göstərib vəsvəsələrlə tələlər hazırladığı kimi, eyni şəkildə yatarkən də onu qorxutmaq və sındırmaq üçün bu cür yuxularla ona tələlər qurur.

Xoş yuxular. Bu yuxuları danışmaq olar. Amma bunu edərkən adam kimə danışacağına diqqət etməlidir. Etibar etdiyi, yaxın bildiyi adamlara danışması gərəkdir. Rəsulullah (s.a.s.) buyurur: "Sizdən hər hansı biriniz sevdiyi bir yuxu görərsə şübhəsiz ki, o Allahdandır. Bu yuxuya görə Allaha həmd etsin və yuxusunu danışsın. Əgər bundan fərqli olan, xoşuna gəlməyən bir yuxu olarsa, şübhəsiz ki, bu şeytandandır. Şərdən Allaha sığınsın və heç kimə anlatmasın. Bu



təqdirdə yuxunun ona zərəri olmaz" (Buxari). Əbu Sələmə (r.a) deyir ki: "Mən bir yuxu görürdüm, sonra onun üzündən xəstələnirdim. Peyğəmbər (s.a.s.) belə buyurdu: "Gözəl yuxu Allahdandır. Buna görə sizdən hər hansı bir kimsə sevdiyi bir şey görərsə, onun ancaq sevdiyi kimsələrə danışsın. Xoşuna gəlməyən bir şey görəcək olursa, onun və şeytanın şərindən Allaha sığınsın və üç dəfə (soluna) tüpürəcək kimi etsin və yuxusunu kimsəyə danışmasın. Bu təqdirdə bu yuxunun ona zərəri olmaz" (Buxari, Müslim). Peyğəmbər (s) buyurur: "Yuxu yozulduğu şəkildə gerçəkləşir. Bunun



örnəyi isə ayağını qaldıran və onu yerə qoyacağı zamanı gözləyən kimsənin halına bənzəyir. Buna görə sizdən kimsə bir yuxu görsə onu onun yaxşılığını istəyən səmimi birisinə ya da alim birisinə danışsın. Başqasına danışmasın" (Hakim). Bu hədislər yuxunun yozulduğu kimi çıxdığı mövzusunda açıq ifadələr daşıyır. Buna görə Rəsulullah (s) yuxunu ancaq bu işi bilən ya da səmimiyyətlə öyüd verən kimsələrə danışılmasını buyurmuşdur. Peyğəmbəri (s.a.s.), salehləri və digərlərini yuxuda görmək.Rəsulullah (s.a.s.) buyurur: "Kim məni yuxuda görərsə, məni görmüş olar. Çünki şeytan mənim surətimdə görünməz. Mömin göründüyü yuxu da peyğəmbərliyin qırx altıda bir hissəsindən bir hissədir" (Buxari). "Kim məni görürsə haqqı görmüş olur. Çünki şeytan mənim surətimə girə bilməz" (Buxari). Qazi İyad (r.) deyir: "Hədisin belə bir mənaya gəlmə ehtimalı vardır. Əgər bir adam Peyğəmbəri (s.a.s.) onun həqiqi görünüşü ilə ziddiyyət təşkil etməyən həyatda sahib olduğu şəkildə görərsə, haqqı görmüş olur. Yox, əgər Allah Rəsulunu (s.a.s.) həqiqətindən fərqli bir şəkildə görərsə, bu yuxu təvil ediləcək (başqa mənaya yozulması lazım gələcək) bir yuxu deməkdir. Və bu yuxu həqiqəti ifadə edən bir yuxu deyildir. Çünki bəzi yuxular eyni ilə görüldüyü kimi gerçəkləşər, digər bir qismi isə yozuma, şərh edilməyə möhtacdır". İslam dini tamamlanmışdır. Bu dinin istər əsası olsun, istər digər məsələləri olsun - dəyişdirilməz. Bu dində yenidən icad edilən hər bir şey rədd olunan işlərdən sayılır. Çünki Allahın bu dini əskiksiz və mükəmməl olduğunu bildirdiyi gerçəyin inkar anlamına gəlir. Bundan hərəkət edərək elm əhli Peyğəmbərin (s) yuxuda birisinə şəriətin bir hökmünə zidd gələn bir hökm əmr edərsə, bu alınan əmr nə yuxu görənin, nə də başqasının yerinə yetirilməsi üçün uyğun olmaz. Peyğəmbərin (s) həyatda ikən və oyaq olaraq verdiyi fətva yuxuda görülən fətvadan üstündür. Peyğəmbəri (s) yuxuda görmək olar, amma heç kim təminat verə bilməz ki, onun söylədiyi sözlər yuxu görən tərəfindən başa düşülmüş və ya yadda saxlanmışdır. Yuxuyozmanı yaxşı bilən, yuxu yozmaqda bəlli bir vərdiş və məharəti olan yuxunun nə şəkildə təvil ediləcəyini bilən xaricində kimsənin yuxunu yozması doğru deyildir. Saleh adamları, mələkləri, digər peyğəmbərləri, səhabələri və sair bənzəri insan və mələkləri yuxuda görmək haqqında bunları söyləmək olar. Əgər Rəsulullahın (s.a.s.) yuxuda görülməsi zamanı 100 faiz bunun haqq olmasına dəlalət etməmə ehtimalı varsa, onda digərləri haqqında bunu necə söyləmək olar? Təcrübə göstərir ki, yaşadığımız cəmiyyətdə meydana çıxan cadugərlər, falçılar, sehrbazlar, cinlilərin bu "sənətə" başlamasına səbəb məhz bu qəbildən olan yuxulardır. Bunların əksəriyyətinin anlatdıqları məhz bu kimi yuxulardır. Əsasən ağ əmmamədə, ağ paltarda, ağ saqqalda yaşlı bir nurani kişi gəlir və deyir: "Sən namaz qılmalısan, Quran oxumalısan və s." Arxasınca adam başlayır namaz qılmağa, Quran oxumağa və s... Çox keçmir ki, adama *"VERGİ"* verilməsi haqqında söhbətlər gəzib dolaşır, yayılır, reklam edilir, ona iman etməyə dəvət edilir və s. Bundan sonra adam başlayır "fəaliyyətə". Hər dəfə "ağ əmmamə və paltardakı nurani yaşlı kişi" haqqında nağıllar başlananda artıq arxasınca "verginin" gələcəyini ehtimal etmək üçün alim olmağa gərək yoxdur. Çünki təcrübə göstərir ki, adətən hadisələr eyni və ya bənzəri ssenari ilə cərəyan edir. Bu kimi şeytanın şərindən Allaha sığınmaq gərəkdir. Allah sığınanların ən etibarlısı və güclüsüdür. Ondan başqa sığınacaq yoxdur. Həmd olsun Ona!



Vəfa RAMAZANOVA,
AMEA İqtisadiyyat İnstitutu
Kitabxanasının əməkdaşı

№ 1 (01), İyun 2008



QƏDİM VƏ HƏMİŞƏ MÜASİR NƏRD

Nərd çox qədim oyundur. Onun tarixi eramızdan 3 min il əvvəllərə gedib çıxır. O, Azərbaycanda, Orta Asiya respublikalarında daha geniş yayılmışdır.

Nərdin xarici görünüşü qədimdə çox simvolik olmuşdur. Burada 12 xətt - ilin ayları, taxtanın 4 yerə bölünməsi - ilin fəsillərini bildirir. 30 daş - ayın günləri deməkdir. Ağ və qara daşlar gecə-gündüzü bildirir. Onların dairə üzrə hərəkəti isə göydə ulduzların hərəkətini təsvir edir. Zərlərin alt və üst tərəfindəki rəqəmlərin cəmi 7-yə bərabərdir. Qədimdə insanlara 7 planet məlum olmuşdur.



Oyunun ixtiraçısının adı minilliklər arxasında gizlənir. Bu gün həmin adamın misirli, yunan, fars və yaxud hindli olması heç kimə məlum deyildir. Təkcə onu bilirik ki, nərd oyunu 5000 ildən artıqdır ki, oynanılır və sevilir.

İlk nərd taxtası Kiçik Asiyada aşkar olunmuşdur. Firon Tutanxamonun məqbərəsində də bu qədim oyunun taxtası tapılmasıdır. Qədim əfsanəyə görə hindlilər farsların sərişt-əsini, iradəsini yoxlamaq üçün onlara şahmat dəsti göndərirlər. Lakin fars aqillərindən olan Büzürkmehr nəinki bu öyunun öhdəsindən gəlir, cavab olaraq hidlilərə nərd oyununu göndərir ki, onlar 12 il nərdin sirrini tapa bilmirlər. Fars münəccimləri nərdin köməyilə hökmdarların taleyini xəbər verirdilər. Oyun meydanını onlar səma, daşların dairəvi hərəkətini isə ulduzların hərəkəti hesab edirdilər.

Qədim nərd taxtaları indiki nərdtaxtalardan fərqlənirdi. Mesepotamiyanın Ur şəhərindən tapılan nərdtaxta 12 damadan ibarət olub 6-6 yeşiklərdə yerləşdirilmiş, yeşiklər isə öz növbəsində 2-2 birləşmişdir. Ayrı-ayrı ölkələrdə nərd oyunu müxtəlif adlar daşımışdır. İspanlar ona tablero, almanlar bretspiel, türklər tavla, italyanlar tavola, fransızlar trik-trak və ingilislər bakqammon deyirdilər. Qədim Mesepotamiyada (indiki İraq, İran və Suriyanın bir hissəsi) bu oyunu "Taxta nərd" və ya "Taxta" adlandırırdılar ki, bu da ədəbi tərcümədə "taxta üzərində döyüş" deməkdir.



Oyunun nisbətən qədim adı "Cədvəl" və ya "Kral cədvəli"dir ("Table" və ya "Royal table"). Romalılar ona tabula, yunanlar tavli, italyanlar tavola reale, ispanlar tablas reales deyirdilər.

Nərdin Qərbi Avropada yayılması XII əsrdə səlib əhlinin xaç yürüşündən qayıtması ilə bağlıdır. Oyun orta əsrlərdə Avropada çox populyar olmuş və trik-trak adlanırmış. Bu ad çox ehtimal ki, sümükdən hazırlanmış zərlərin taxtaya düşdüyü zaman çıxardığı səslə əlaqədardır. O zaman bu oyun Avropada kralların oyunu sayılırdı. Yalnız yüksək təbəqədən olanlar bu oyunu oynayırdılar. Orta əsrlərdə nərd Orta Şərqdə və Aralıq dənizi sahilində yerləşən ölkələrdə daha populyar idi.

Nərdin tarixi kökləri qədim Şərqdə məlum olsa da, oyunun qaydaları 1743-cü ildə ingilis Edman Hoyl tərəfindən müəyyən edilmişdir. ABŞ-da isə oyun qaydaları 1931-ci ildə rəsmi olaraq müəyyən edilərək nərd üzrə Beynəlxalq Oyun Qaydalarında qəbul edilmişdir.

Bu gün nərd nəinki Yaxın Şərqdə, hətta bütün dünyada çox populyardır. Dünyanın ən iri paytaxtlarında nərd həvəskarları klubları vardır və beynəlxalq turnirlər keçirilir.

Maraqlıdır ki, bu gün nərd həm də virtual olaraq oynanılır. Bunun üçün sadəcə www.gambler.ru saytında qeydiyyatdan keçmək lazımdır.



OQTAY